# 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür!


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 288 (30404) 31 dekabr 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

xalqqazeti.az


# Azərbaycanın qürur yaşantıları, mübarizə əzmi və suverenliyimizin xoşbəxtlik dastanı

*2023-cü ilin siyasi almanax zənginliyindəki gərginlik anları arxada qaldı*



**Son gününü yaşadığımız 2023-cü il Vətənimiz Azərbaycan üçün siyasi anlamda çox uğurlu ildir. Əlbəttə, ötən müddətin hadisə və proseslərinə nəzər salarkən, bu uğurun heç də asan başa gəlmədiyini vurğulaya bilərik. Çətinliklərimiz oldu, ancaq əldə etdiyimiz möhtəşəm nailiyyət üzləşdiyimiz bütün çətinlikləri unutdurur. Söhbət dövlət suverenliyimizin bərpasından gedir.**

Bəli, 2023-cü ilin ən böyük hadisəsi Silahlı Qüvvələrimizin sentyabrın 19-da keçirdiyi lokal xarakterli antiterror tədbirləridir. Bu tədbirlərin uğuru onu deməyə əsas verir ki, biz artıq bütövləşmiş, tamlaşmış Vətənə sahibik. Xocalı, Əsgəran, Ağdərə və nəhayət, Xankəndili Azərbaycanımız var. Allaha şükürlər olsun ki, torpaqlarımızda otuz ildən çox hökm sürmüş, at oynatmış erməni kabusu artıq canını tapşırıb. Bu gün tam qətiyyətlə deyə bilərik ki, ərazilərimizdə separatizm yoxdur. Əslində, bu mənada yanaşsaq, 2023-cü il xalqımız üçün yuxu, xəyal kimi bir ildir. Arzularımızı gerçəkləşdirib, haqqımızı və ədalətimizi bərpa etmişik. Bundan böyük xoşbəxtlik ola bilməz.

*(ardı 3-cü səhifədə)*

## Prezident Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ilə əlaqədar paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**




Paylaşılan fotonun üzərində "Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni iliniz mübarək!" sözləri yazılıb.

## Suverenliyimizin tam bərpası ili

**Dövlətimiz uğur estafetini növbəti ilə ötürmək əzmindədir**



**Yola saldığımız 2023-cü il digər sahələrdəki ciddi uğurlarımızla yanaşı, Qarabağ iqtisadi rayonunun bütün ərazisində suverenliyimizin tam bərqərar olması ilə əlamətdardır.**

*(ardı 4-cü səhifədə)*

# Sarkisyanın "stəkanda tufan" cəhdi

*Ermənistanın üçüncü prezidenti, sanki, "asqırıb" "artsax"ı xatırlayıb*

**Hayların adına "dqr", "artsax", daha nələr dedikləri, bizdən ötrü Qarabağdakı Konstitusiyamıza zidd, qeyri-qanuni qurum, qondarma rejim həm "de-fakto", həm də "de-yure" tarix səhnəsindən silindi. Daha doğrusu, Azərbaycan Xankəndidəki separatçı xunta rejimini bir sutkalıq antiterror tədbirləri ilə təmizlədi. Üstündən bir həftə keçəndən sonra özünü həmin rejimin "sonuncu prezidenti" adlandıran Samvel Şahramanyan imzaladığı "fərmanla" 2024-cü il yanvarın 1-dən onun bütün "psevdodövlət strukturları" öz fəaliyyətini dayandırdı.**



İndi məlum olub ki, Qarabağı tərk edəndən sonra İrəvanda lövbər salan Şahramanyan 27 sentyabr tarixli məlum "fərmanını ləğv edib". Hazırda bu mövzu ətrafında cəmiyyətin müxtəlif siyasi qüvvələri arasında "debatlar" başlanıb. Üzdə rəsmi İrəvanın bu məsələnin gündəmə gətirilməsində dəst–xətti görünməsə də, arxada bəzi qüvvələrin qızışdırıcılığı istisna edilmir. Ən azı, Paşinyan hakimiyyətinin Şahramanyana müxtəlif üsullarla təzyiqlərin göstərilməsinə, "artsax"ın buraxılmış strukturlarını diriltməsinə təşəbbüslərə susqun və loyal yanaşması şübhəsizdir. Belə revanşist-separatçı təşəbbüslərə daxildəki "beşinci kolon"un, o cümlədən Ermənistan parlamentindəki Rusiyayönlü müxalifətin də dəstək verdiyi faktdır. Onların Şahramanyanın ünvanına özünü buraxmış "dqr" xunta rejiminin strukturlarının "işini davam etdirməsi" ilə bağlı çağırışları daha ucadan eşidilməkdədir.

*(ardı 3-cü səhifədə)*

# TAP Azərbaycanı Avropanın enerji bazarına qovuşdurur




Səhifə ⇨ 7

# Yeni il niyə qışdan başlayır?

Səhifə ⇨ 15



# Türk dövlətləri yüksəliş yolunda

Səhifə ⇨ 7

Səhifə ⇨ 12




# 2023-ün mədəni akkordları

# Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü ilin yanvar ayında görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur.

Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik ideyalarının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 dekabr 2023-cü il**

# Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur.

Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldənizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.

Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin birpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar.

Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.

Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur. Naxçıvan Respublikasının ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi geniş qeyd olunsun.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diaspora İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tədbirlər planının hazırlanmasını və həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 dekabr 2023-cü il**

# "Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası"nın və "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 dekabr 2023-cü il**

# S.E.Alıyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Sahib Eyvaz oğlu Alıyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 dekabr 2023-cü il**

# Xarici İşlər Nazirliyində görüşlər

**Dekabrın 30-da xarici işlər naziri Ceyhun Bayramov Fransa tərəfindən heç bir əsas olmadan "persona non grata" elan edilmiş Fransadakı səfirliyimizin əməkdaşları ilə görüşüb.**

Nazir səfirlik əməkdaşlarına göstərdikləri səmərəli diplomatik xidmətə görə təşəkkür edib. Fransa tərəfindən atılan bu əsassız addımın sözügedən ölkə tərəfindən Azərbaycan və Fransa arasında mövcud ikitərəfli münasibətlərə vurulan növbəti zərbə olduğu bildirilib. İkitərəfli münasibətlərdə hökm sürən gərginliyin səbəbkarının ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirərək əsassız addımlar atan Fransa tərəfinin olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov səfirlik əməkdaşlarına bundan sonrakı diplomatik fəaliyyətlərində uğurlar arzulayıb.

***



**Həmin gün xarici işlər naziri Ceyhun Bayramov Yaponiyanın ölkəmizə yeni təyin olunmuş səfiri Katsuya Vatanabe ilə görüşüb.**

Görüş zamanı səfir Katsuya Vatanabe etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Görüşdə Azərbaycanla Yaponiya arasında bir sıra istiqamətlərdə tarixi dostluq və əməkdaşlıq münasibətlərinin əhəmiyyəti və qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişafının vacibliyi qeyd olunub. Bu çərçivədə yüksək səviyyəli ikitərəfli səfərlərin, siyasi məsləhətləşmələrin, iqtisadi komissiyanın işinin intensivləşməsinin əhəmiyyəti vurğulanıb.

İki ölkə arasında "yaşıl enerji", nəqliyyat və logistika, yüksək texnologiyalar, təhsil və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğu qeyd edilib.

***XQ***

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizəd kimi qeydə alınması haqqında

## Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 2023-cü il 19 dekabr tarixli 9/23 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2023-cü il dekabrın 26-da partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyev namizəd kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Milli Məclisin 2023-cü il son iclası



**Dekabrın 30-da Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasında son iclası keçirilib.**

Cari məsələlərin müzakirəsi zamanı çıxış edən deputatlar ölkə rəhbərliyini və xalqımızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni təqvim ili münasibəti ilə təbrik edib bir sıra aktual məsələlərə toxunublar.

Bildirilib ki, "Heydər Əliyev İli" çərçivəsində Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilib. Sentyabrda keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası təmin olunub.

Qarşıdan gələn 2024-cü il fevralın 7-də baş tutacaq növbədənkənar Prezident seçkilərini dövlətçilik tariximizin yeni inkişaf mərhələsinə keçid kimi dəyərləndirilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyə 7 məsələnin daxil edildiyini bildirib. O, birinci məsələnin "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol"un təsdiq edilməsi haqqında" Qanunun layihəsi olduğunu deyib. Layihəni təqdim edən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov mülahizə mətnində sənədin terrorçuluqla mübarizə sahəsində əhəmiyyətli olduğu vurğulanıb. Diqqətə çatdırılıb ki, Əlavə Protokolun əsas məqsədi 2, 3, 4, 5 və 6-cı maddələrdə təsbit olunan əməllərə görə cinayət məsuliyyətini müəyyənləşdirməkdən və bununla da terrorçuluğun, onun mənfi təsirlərinin qarşısının alınmasına yönəlmiş səyləri artırmaqdan ibarətdir. Bildirilib ki, Azərbaycan Respublikası Əlavə Protokolu müvafiq bəyanatlarla təsdiq edir. Belə ki, Azərbaycan Respublikası Əlavə Protokolun 7-ci maddəsinə müvafiq olaraq, terrorçuluq məqsədilə ölkə xaricinə səfər edən şəxslər haqqında məlumatların mübadiləsi üçün əlaqə məntəqəsi qismində Dövlət Təhlükəsizlik Xidmətini təyin edir. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi bir oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri gündəliyin növbəti iki məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib. Sonra spiker bildirib ki, hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Milli Məclis soydaşlarımıza və həmvətənlərimizə müraciət edir və gündəliyin sonuncu məsələsi məhz Milli Məclisin müraciəti ilə bağlıdır.

Daha sonra Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə Azərbaycan Respublikası Milli Məclisinin Müraciəti səsə qoyularaq qəbul edilib.

Milli Məclisin payız sessiyasının son iclasına yekun vuran spiker Sahibə Qafarova bildirib ki, Milli Məclis Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətləri tam yerinə yetirib. Payız sessiyasında parlamentin 16 iclası olub, 100 qanun və qərar layihəsinə baxılıb. Ümumiyyətlə, 2023-cü ildə Milli Məclisin 39 plenar iclası keçirilib, 268 qanun və 27 qərar qəbul edilib.

Sonda Milli Məclis adından Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təbrik məktubları qəbul edilib.

***Əliqismət BƏDƏLOV***
***XQ***

# Milli Məclisin Dünya Azərbaycanlılarına təbriki

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin müraciətində deyilir:**

– Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz. Böyük və qüdrətli Azərbaycan xalqının övladlarının söz, əqidə və əməl birliyinə nail olmaq arzusunu və əzmini təcəssüm etdirən həmrəylik günü dünyanın çoxsaylı ölkələrində əziz bayram kimi böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 32 il öncə başlanmış milli-mənəvi bütövləşmə hərəkatı xalqımızın tarixi köklərə bağlılığından və milli yüksəliş amalından güc almışdır. Dövlət müstəqilliyimizlə yaşıd olan bu proses sonrakı dövrdə daha da genişləndikcə dünya azərbaycanlıları ümummilli qayələrimizin gerçəkləşməsi naminə azərbaycançılıq ideyası əsasında sıx birləşməyin əhəmiyyətini dərindən dərk etmişlər. Azərbaycan icmaları və diaspor təşkilatları inkişaf edib möhkəmlənir, soydaşlarımızın və həmvətənlərimizin siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işində yaxından iştirak edir, tarixi vətənlə əlaqələrini gücləndirirlər.

**Müraciətdə daha sonra deyilir ki, Azərbaycan dövləti dünya azərbaycanlılarının birlik və həmrəyliyinin möhkəmləndirilməsinə ümdə əhəmiyyət verir:** "Xalqımızın mütəşəkkil qüvvəyə çevrilməsinə yönələn tədbirlər mütəmadi şəkildə davam etdirilir. Tarixin gərdiyi ilə Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımıza qayğı göstərilməsi, onların milli kimliyinin, hüquq və mənafelərinin, təhlükəsizliyinin qorunmasına dəstək verilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Bu gün biz böyük imkanlar vəd edən yeni bir dövrün astanasındayıq. Xalqımızın bir çox nəsillərinin arzuladığı gələcəyin qurulması üçün hər bir azərbaycanlı öz səylərini əsirgəməməlidir".

**Müraciət Milli Məclisin soydaşlarımıza təbriki ilə bitir:**

– Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz! Sizi milli amallarımızın gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya azərbaycanlılarının həmrəyliyi günü münasibətilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, doğma Azərbaycanımıza işıqlı gələcək arzulayırıq!

***XQ***

# Azərbaycanın qürur yaşantıları, mübarizə əzmi və suverenliyimizin xoşbəxtlik dastanı

(əvvəli 1-ci səhifədə)

Azərbaycanın Qarabağ probleminin həllinin ideoloqu Ulu öndər Heydər Əliyevdir. Dövlət suverenliyimizə qovuşmağımızın Ümummilli liderin 100 illiyinə təsadüf etməsi isə ilahi qanunauyğunluqdur. Dahi şəxsiyyətin minbir əziyyətlə başladığı, böyük çətinliklər bahasına gələcəyə daşıdığı Qarabağ probleminin tam qələbə ilə yekunlaşması azərbaycanlı ruhunun müqəddəs Zəfəridir. Bu Zəfər Vətən naminə əzmkarlığın, prinsipiallığın və qətiyyətin dünyaya nümunə olacaq pərvəriş səhnəsidir. Deməli, Heydər Əliyev şəxsiyyətinin ruhu şaddır. Onun ruhunun şadlığı isə xalqımızın bu dahi azərbaycanlıya yanaşmasındakı misilsiz qədirbilənliyin təcəssümüdür. Ordumuz xalqımızın Heydər Əliyev qədirbilənliyini əməli fəaliyyəti ilə bir daha ucalara qaldırdı, bu böyük neməti milli şüur və düşüncəmizin yüksəliş mərhələsi kimi vurğuladı. Nəticədə 2023-cü il qarşımızda yeni üfüqlər açdı. Artıq daha böyük zirvələrin fəthinə doğru yol almışıq. Yolumuz daim açıq olsun!

*

Bildirdiklərimizin fonunda bir məqamı da vurğulamağa ehtiyac var. 2020-ci ilin 44 günlük müharibəsində Azərbaycan beynəlxalq aləmə güc amilinin həlledliciliyini göstərdi. Öz torpağına qanı bahasına sahibolmanın örnəyinə çevrildi. Dünyanın müxtəlif qütblərindəki ermənipərəstlər bunu işğalçılıq kimi qiymətləndirməyə çalışsalar da, Vətən müharibəsindəki şücaətimiz hətta onların da xalqımıza rəğbətini doğurdu. Üzərindən üç il keçdikdən sonra Azərbaycan Qarabağa tam sahiblənmək, özünün ərazi bütövlüyü və suverenliyini bərpa etməklə, bir daha güc amilindən səmərəli, düzgün və tədbirli istifadənin nümunəsi olduğunu bir daha göstərdi. Heç şübhəsiz, cəmi 23 saat 43 dəqiqəyə yerinə yetirilmiş tapşırıq, 2020-ci ilin Şuşa əməliyyatı kimi, bütövlükdə, dünyanın hərb tarixinə peşəkarlığın və mübarizliyin növbəti təntənəsi olaraq düşəcək.

*

Azərbaycanın dövlət suverenliyinə qovuşmasının timsalında biz 2023-cü ili Heydər Əliyev idarəçilik məktəbinin növbəti böyüklük yaşantısı kimi də xatırlayacağıq. Xatırlayacaq və hər zaman vurğulayacağıq ki, Prezident İlham Əliyevin idarəçilikdəki mükəmməl varislik xəttindəki başlıca formul yenilməzlik, məğlubedilməzlik və ardıcıllıqdır. Axı, Heydər Əliyev də məğlubedilməz idi.

Dövlətimizin başçısı nəyi nə vaxt və necə etməyin lazım olduğunu bir daha göstərdi. Böyüklük də elə məhz bundadır. Böyüklük uğur və müvəffəqiyyət anını duymaqda və son həmləni zamanında etməkdədir. Sentyabrın 19-dakı həmlə həm də böyük siyasət adamının dünyanı mat qoyan usta gedişi idi.



Bəli, suverenliyimizin bərpası Prezident İlham Əliyevin böyük siyasət meydanındakı parlaq qələbəsidir. Elə bir qələbə ki, dövlətimizin başçısının yetkin dövlət və siyasət adamı obrazına yeni xarizma qazandırdı. Bu qazanc, bütövlükdə, xalqımızın heyrətamiz qürur və fəxarət qazancıdır. Bu qazanc dünyadakı yerimizi və rolumuzu təsdiqləyən nemətdir. Nəhayət, bu qazanc parlaq gələcəyimizin əbədi təminat paktıdır. İlham Əliyev şəxsiyyətinin suverenliyimizin bərpası ilə xarakterizə olunan bu paktı özünün Prezident fəaliyyətinin iyirminci ilinin tamamında imzalamasında da xüsusi rəmzi anlam var. Deməli, möhtəşəm Zəfərimiz iyirmi illik yolun hesabatıdır. Bizi biz edən, bizi özümüzə qaytaran Zəfərin hesabatı. Ulu öndər Heydər Əliyevin ruhu, eyni zamanda, ona görə şaddır ki, bu gün onun qurub-yaratdığı, qara buludların cənginədən alıb aydın səmaya qovuşdurduğu Azərbaycan günəşi dünyaya da parlaqlıq gətirir, şölə saçır.

*

Əvvəldə də vurğuladığımız kimi, bütün qürur və fəxarət səhnələrinə, tarixi uğur və nailiyyətlərə baxmayaraq, son gününü yaşadığımız 2023-cü il Azərbaycan üçün siyasi anlamda heç də asan keçmədi. Dünyanın Cənubi Qafqaza marağı olan qütbləri ilə daimi ziddiyyətlər, psixoloji savaş, əsəb müharibəsi şəraitində keçdi. Siyasətin sərt, soyuq üzü ilə qarşılaşdıq. Lakin heç nədən nəinki çəkinmədik, bir addım da geri atmadıq. Bəs çətinliklərimiz əsasən kimlərlə, daha doğrusu, hansı dövlətlərlə oldu? Nəzərə alaq ki, "soyuq müharibə" hələ də davam edir.

Xronoloji baxımdan yanaşsaq, 2023-cü ilin yanvarından başlayaraq, cənub qonşumuz İranla aramızdakı gərginliyin pik həddə çatdığını vurğulaya bilərik. Bu trayektoriyada Azərbaycanın İran İslam Respublikasındakı səfirliyinə silahlı hücum başlıca rol oynadı. Qanlı olaydan sonra səfirliyimiz fəaliyyətini dayandırdı. Mövcud fonda İran–Ermənistan işbirliyinin güclənməsi, Tehranın İrəvana dəstək motivli açıqlamaları, müvafiq olaraq İranın bəzi dairələrindən qatı anti-Azərbaycan xarakterli fikirlərin səslənməsi durumu xeyli mürəkkəbləşdirdi. Bir anlıq elə təəssürat yarandı ki, İranla Azərbaycan müharibə şəraitindədir. Lakin hər iki dövlət – həm İran, həm də Azərbaycan vəziyyəti sabitləşdirmək, münasibətləri əvvəlki məcrasına qaytarmaq üçün zoru, gücü deyil, səbri və təmkini "silah"a çevirdilər. Nəticə isə göz önündədir. Bu gün Azərbaycan üçün müstəsna əhəmiyyət daşıyan və Ermənistanın reallaşmasına şərait yaratmadığı Naxçıvana yolun İran ərazisindən keçməsi kimi müstəsna razılaşma, bir növ, niyyət, səmimiyyət memorandumu var. Hər iki dövlət "3+3" regional platformasının aktiv iştirakçısı qismində çıxış etməkdə, "Region region dövlətləri üçündür" şüarını rəhbər tutaraq, qarşılıqlı əməkdaşlığı yeni, daha səmimi fazaya daşımaqdadırlar.

*

Fransa ilə yenə davam etməkdə olan gərginlik xətti də 2023-cü ilin xarakterik siyasi hadisələrindəndir. Fransa Prezident Emmanuel Makronun səriştəsizliyi səbəbindən dünya siyasətindəki mövqeyini itirməkdədir. Ölkə, sanki, yaralı ayıdır, həm acısını ovutmaq, həm də özünü təsdiqləmək üçün ətrafa hücum çəkməkdədir. Afrikada itirdiklərini kompensasiya etmək üçün şığıdığı bölgə isə Cənubi Qafqazdır. Paris üçün Cənubi Qafqazdan möhkəm yapışmağın başlıca formulu isə erməniprəstlikdir.

Bəli, Fransanın ənənəvi erməniprəstliyi 2023-cü ildə ən pik həddə çatdı. Nəticədə indi Azərbaycan–Fransa münasibətlərindəki ziddiyyətlər də özünün ən yüksək nöqtəsindədir. Deməli, 2023-cü il müasir müstəqillik dövründə Azərbaycan üçün uğurlu olduğu kimi, ölkəmizə qarşı ittihamların açıq formada səsləndiyi il kimi də yadda qalmaqdadır. Ancaq uğurlar çoxaldıqca bədxahların sayının artmasında müəyyən təbii qanunauyğunluq var və Azərbaycan dövləti hadisələrin bu cür axarına tam hazır olan müqavimət və immunitetə malikdir. Əlbəttə ki, bu sevindiricidir. Necə deyərlər, çəkişməsən bərkimzəsən.

*

Azərbaycanla Ermənistan arasındakı sülh gündəliyi, o cümlədən, danışıqlar prosesi ölkəmizin istər regional, istərsə də qlobal siyasət meydanındakı başlıca gündəmini təşkil etdi. Fransa və İranla bağlı məqamları diqqətə çatdırdıq. Əslində, Paris və Tehranla ziddiyyətlərimizin kökündə dayanan da elə erməni amili, Ermənistan avantürizmi və bu avantürizmi qlobal siyasətdə alətə çevirmək cəhdləridir. Qeyd edək ki, erməni amili 2023-cü ildə respublikamızın Rusiya və ABŞ kimi super güclərlə münasibət trayektoriyasına da təsirini göstərib. Ermənistanı yenidən öz orbitinə qaytarmaq, onu Qərb yolundan döndərmək istəyən Rusiya tərəfindən səslənmiş Qarabağla bağlı bəzi açıqlamaların tam anlamda Haqqa və ədalətə xidmət ruhuna köklənmədiyini görmüşük. ABŞ Dövlət Departamenti rəhbərinin köməkçisi Ceyms O`Brayenin Birləşmiş Ştatlar Konqresinin Nümayəndələr Palatasındakı çıxışının birbaşa təhdid xarakteri daşıdığına da şahidlik etmişik. Xatırladaq ki, Vaşinqtonun Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirəcək yolun İran ərazisindən keçməsinə qəti şəkildə qarşı çıxacağını bildirmiş cənab O`Brayenin fikirləri beynəlxalq hüquqa heçə saymaq, açıq deməmarş cəhdi idi.

Əlbəttə, Azərbaycanla təhdid dilində danışmaq mümkünsüzdür. 2023-cü il mövcud reallığı bir daha sübuta yetirdi. Ölkəmiz nə İranın, nə Fransanın, nə də ABŞ-ın təhdidləri qarşısında geri çəkildi. Azərbaycan, həmçinin, dünyanın, belə demək mümkünsə, birləşmiş erməniprəstlərinin Bakı-İrəvan nizamlamasına təsir göstərmək meyillərinə qarşı da layiqli direniş göstərdi. Şübhəsiz, antiterror tədbirlərinin uğuru və suverenliyimizin bərpası direnişimizin mükafatıdır.

*

Ümumən, 2023-cü il Azərbaycan–Ermənistan danışıqlarındakı intensivlik baxımından da yaddaqalan oldu. Ancaq prosesdəki qəribə trayektoriya diqqətdən yayınmadı. Əlbəttə, bu trayektoriya Ermənistanın tutduğu qeyri-konstruktiv mövqe ilə bağlı idi. Daim anti-Azərbaycan ritorikanı gündəmdə saxlayan rəsmi İrəvan danışıqlar masasında xal qazanmağa, xüsusən, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini beynəlxalq tribunalara daşımaqla, yeni reallıqlar formalaşdırmağa, Qarabağda separatçılığın leqal müstəviyə çıxması naminə zəmin yaratmağa girişdi. Lokal xarakterli uğurlu antiterror tədbirləri bir çox suallara aydınlıq gətirdiyi kimi, belə qəbuledilməz meyillərin də qarşısına birdəfəlik sədd çəkdi.

*

Sonda qeyd edək ki, 2023-cü ilin qısa siyasi təhlilini apardığımız və əsasən də ziddiyyətli məqamları və həmin məqamların fonunda qazandığımız suverenliyimizin müstəsna məziyyətlərini diqqətə çatdırdığımız bu məqalədəki ayrı-ayrı məqamlar qarşıdan gələn 2024-cü ilin də siyasi gərginlik baxımından rəvan keçməyəcəyini söyləməyə əsas vermək dədir. Ancaq, bu, heç də fövqəladə hal deyil. Çünki Cənubi Qafqaz coğrafiyası, ümumən, təbəddülatların yaşandığı siyasi platformadır. Başlıca məqam budur ki, çətinliklər dövlətimizi daha əzmli və qüdrətli edir.

Deməli, 2024-cü ildən başlıca gözləntimiz daha da güclənməkdir. Əminik ki, fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkiləri gözləntilərimizin özünü doğrultması istiqamətində atılacaq yeni və daha müzəffər addımlar üçün çıxış nöqtəsi kimi tariximizdə əbədi qalacaqdır. Fəqət, gözləntimiz olduğu kimi, arzumuz da var. Arzu edirik ki, 2024-cü ildə Azərbaycan–Ermənistan əsaslı barışığının yaranması, yekun sülh müqaviləsinin imzalanması fonunda Cənubi Qafqaza, nəhayət ki, əmin–amanlıq mühiti, firavanlıq və asayiş gəlsin.

**Əvəz CAHANGİROĞLU**
**XQ**

# Sarkisyanın "stəkanda tufan" cəhdi

(əvvəli 1-ci səhifədə)

### Sarkisyan xələfini qızışdırır

Şahramanyandan növbəti fayda-sız "artsax oyunu"nda alət kimi istifadə edildiyi aydındır. Ondan bu statusda öz xeyrinə yararlanmağa çalışanlardan biri də Ermənistanın üçüncü prezidenti, "Qarabağ klanı"nın vurulmuş nümayəndəsi Serj Sarkisyandır. "Ümummilli" dedikləri məsələ ətrafında gedən diskussiyaya qoşulan Sarkisyan "vəziyyətdən çıxış yolları tapmaq və özünü rüsvay etməmək üçün" Şahramanyana məsləhətlər verməyə girişib.

Bu yerdə oxuculara bir incə nüansı xatırladaq. Azərbaycanın Qarabağ iqtisadi rayonunda antiterror əməliyyatlarına qədər Ruben Vardanyanın, Bako Saakyanın və Arkadi Qukasyanın (hazırda hər üçü Bakının istintaq təcridxanasındadır) hakim qarşısına çıxarılacaqları günü gözləyir) təzyiqləri altında "istefa verməsi" separatçıların lideri Arayik Arutyunyanın (o da çayını "kpz"də içir) yerinə Samvel Şahramanyanın namizədliyinin əsas dəstəkçisi məhz Serj Sarkisyan olub. İndi, o, Şahramanyanın "artsaxı xilas edəcəyinə" inandığını bəyan edir. Xələfi ilə görüşü və mövcud vəziyyəti müzakirə etdikləri barədə jurnalistlərə danışan Xocalı soyqırımının təşkilatçı və icraçılarından biri Sarkisyan hayları açıq-aydın revanşa hazırlaşmağa çağırışlar edir. O, revanşı "ermənilərin haqqı" sayır.

Jurnalistlər sabiq prezidentlərinə Azərbaycanın sülh müqaviləsinə Ermənistanın revanşizmdən imtinasının da salınması tələbini xatırladaraq sual ediblər: "Bu halda "Qarabağ problemi" necə həll edilə bilər?". Müharibə canisinin suala "elmi-fəlsəfi cavabına" diqqət yetirin: "Revanş sözü bizim cəmiyyətimizdə tez-tez istifadə olunur. Revanş – yeni uğurların əldə edilməsidir. Yəni, əvvəlcə azərbaycanlıların revanşı oldu. Bundan hansı məntiq hasil olur? Onlara olardı, bizə yox? Başqalarında olduğu halda, sənin belə bir



haqqın yoxdursa, ümumiyyətlə, yaşamağa dəyərmi?".

Dediklərinin reallıqla daban-dabana zidd, utopiya olduğunu özü də yaxşı anlayan Sarkisyanın "artsax"ı diriltmək cəhdləri, necə deyərlər, "stəkanda tufan yaratmaq effekti" kimi bir şeydir. Onun kimi digər "eks"lər də süni deyil, əsl tufanda çoxdan yollarını itiriblər.

### "Vətən" var ki?

Hər şeydən göründüyü kimi, Azərbaycanın kitabını bağladığı "artsax"ın formal olaraq bircə səhifəsinin "qorunub saxlanması" bir növ revanşist müxalifət cəbhəsini psixoloji cəhətdən dəstəkləmək amilinə çevrilib. Rəsmi Bakının hər müstəvidə tərk-silah etdiyi həmin cəbhəyə Sarkisyan və onun kimilər daxildir. Problem sadəcə ondan ibarətdir ki, "Vətən, yaxud ölüm!" ideyasından populistcəsinə istifadə edən "Qarabağ klanı" və onun əqidədaşları çox vacib iki məqamı yadlarından çıxarırlar. Birincisi, Qarabağ heç vaxt onların vətəni olmayıb. İkincisi, bu başıpozuq kütlənin revanşa yönəlik maniakal xəyallarının özlərinin yeganə dövlətləri – Ermənistan Respublikası üçün öldürücü fəsadları ola bilər. Bu yerdə Azərbaycan dilini yaxşı bilən Sarkisyanın yadına "Çox istəyən azdan da olar" el məsəlimizi salmağımız yerinə düşər.

Üstündən 3 il keçməsinə baxmayaraq, zəfərimizi həle də həzm etməkdə çətinlik çəkən separatçı tör-töküntüsünün anti-Azərbaycan isterikasının yeni dalğasına start verməyə hazırlaşmasının bütün əlamətləri göz önündədir. Çox güman ki, Qərbdən və Şərqdən əlləri üzülən bu avantüristlər arxivləşmiş revanş iddiasını gündəmdə saxlamaq üçün yeni üsullar, fürsətlər axtarışına girişiblər. Onların düşüncəsinə görə, Azərbaycanla sülhə gəlmək məhz bu baxımdan "uğursuzluq" sayılır. Bəli, sülh revanşistlər üçün ölümə bərabərdir.

### Xəyalpərəstləri "ruhlandıran" amil

İrəvan ətrafında məskən salmış separatçıların ayağının yer almasının əsas səbəbi iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının gecikməsidir. Daha doğrusu, İrəvanın bu nəticənin əldə olunmasını ən müxtəlif bəhanələrə ləngitməsidir. Siyasi səhnədə azlıqda qalmış separatçı-revanşist düşərgəni "ruhlandıran" əsas amil məhz budur. İndi bunlara necə başa salaq ki, əgər Qarabağda on illər boyu topladığı silah-sursat, ağır hərbi texnika, "keçilməz Ohanyan sədləri" karlarına çatmadısa, on bir min fərarisi olan orduları 44 gündə darmadağın edildisə, hazırda rəzilcəsinə sığınacaq tapdıqları Ermənistanda "Bəlkə də qaytardılar" xülyası beşiyindən uğursuzluğa məhkumdur. Bəlkə onların xəbis ürəklərindən yenidən qanunsuz silahlı birləşmələr yaratmaq, Üçüncü Qarabağ savaşına hazırlaşmaq keçir? Zühurunu ehtimal etdiyimiz həmin silahlı quldur dəstələrinin daxildə özünə qarşı çevrilə biləcəyini gözəl başa düşən baş nazir Nikol Paşinyan çətin ki, belə bir siyasi səhvə yol versin. Bəlkə də indi, o, hakimiyyətinə real təhdidi münasibətləri tarıma çəkilmiş Şimaldan deyil, daha çox daxildəki həmin başıpozuq sərgərdan kütlə tərəfindən görür.

"Bu günlərdə "artsax"ın və Ermənistanın bir sıra siyasi qüvvələri, tanınmış xadimləri ilə görüşdüm. Onların narahatlığını gördüm, arqumentlərini dinlədim. İndi bunu bildirməkdən məmnunam ki, yanvarın 1-dən "artsaxın dövlət qurumları"nın fasiləsiz fəaliyyət göstərməsi üçün bütün hüquqi əsaslar mövcuddur. Şəxsən mənim bununla bağlı heç bir narahatlığım qalmadı. Buna görə "artsax respublikasının prezidenti" Şahramanyana, eləcə də bu prosesdə iştirak edən bütün fiqurlara son dərəcə minnətdaram". Bu "şad xəbəri" hay izləyiciləri ilə revanşist-daşnak politoloq Qrant Melik-Şahnazaryan paylaşıb.

"Dərin təfəkkürə" malik Melik-Şahnazaryan xəyali reallıq kimi təqdim etməklə kifayətlənməyib, diqqəti "Ы" planının "məxfiliyinə" yönəldir: "Amma təəssüf ki, müəyyən risklər səbəbindən məsələnin təfərrüatından danışmağa ehtiyac duymuram. Sadəcə, sizlərə problemi sırf emosional müstəvidə nəzərdən keçirməməyi tövsiyə edirəm. Amma "artsaxın dövlət orqanları"nın fəaliyyəti üçün hər hansı hüquqi maneə olmadığı mənə gün kimi aydındır. Allah qoysa, gələcəkdə daha sevindirici xəbərlər eşidəcəyik. "Artsax dövlətçiliyi"nin qorunub saxlanmasına hər zaman dəstək və tərəfdar olan bütün insanlara təşəkkür edirəm. Bu, bizim hamımızın borcudur".

"Məxfi planın" az qala bütün detallarını açıb ortaya qoyan bu gerizəkalı daşnakın yazdıqlarından həm də belə bir nəticə hasil ola bilər ki, rəsmi İrəvan bu avantüradan xəbərdardır. Bunun həqiqətən də, deyildiyi kimi olub-olmamasının cavabını sabah, yeni ilin ilk günü biləcəyik.

Dünən yazmışdıq: oyun başa çatdı, sülhlə imitasiya cəhdləri də tükəndi. Artıq Paşinyan hökuməti qəti qərar verməyin məqamının çatdığını birmənalı qəbul etməlidir. Rəsmi İrəvan, özünün bəyan etdiyi kimi, doğrudan da, yaxın vaxtlarda Azərbaycanla sülh sazişini imzalayacağına əmindirsə, bu təqdirdə prosesə əngəllər törədən revanşist-separatçı qüvvələrin hərəkətlərinin qarşısını qəti şəkildə almalıdır. Əgər Nikol Vovayeviç xalqını yeni və daha böyük fəlakətə sürükləyəcək perspektivdən xilas etmək istəyirsə, onda qələmini əlinə götürsün.

**İmran BƏDİRXANLI**
**XQ**

## Ekspert rəyi



**Fikrət SADIXOV,**
**Qərbi Kaspi Universitetinin professoru, politoloq**

Aydın məsələdir ki, Serj Sarkisyan böyük oyunda istifadə edilən "piyada"dır. Onun arxasında dayanmış dairələrin, yaxud qüvvələrin xarakteri də məlumdur. Əslində, özü də yaxşı başa düşür ki, Qarabağa bir daha "artsax" adı ilə qayıtması mümkün deyil. Bu yöndə səsləndirdiyi şüarlar, etdiyi çağırışlar, ilk növbədə, mövcud hakimiyyətin devrilməsinə istiqamətlənib. Görünür, Sarkisyanın arxasındakı həmin dairələr baş nazir Paşinyana dərs vermək istəyirlər. Çünki Paşinyanın Qərbə meyilliliyi artıq özünü aşkar şəkildə büruzə verməyə başlayıb.

Əlbəttə ki, bu meyil Rusiyanı da narahat etməyə bilməz. İndi Moskva bunu açıq şəkildə deyir. İntəhası, qondarma "artsax respublikası"nın bərpa olunması sadəcə fantastik ideyadır. Bu ideya uğrunda kiminsə gedib canını verməyə hazır olduğunu demək də utopiyadır. 44 günlük müharibədən sonra Ermənistanda heç kəsin ağlından belə bir istək və ya arzu da keçmir.

"Artsax oyunu" Paşinyana qarşı düşünülmüş və ssenariləşdirilmiş siyasi addımdır. Aydın məsələdir ki, hazırda Ermənistanda ağlı başında olan heç bir siyasətçi "artsax" şüarı altında Qarabağa qayıtmağı düşünmür. Axı onlar Azərbaycanın buna imkan verəcəyini təsəvvürlərinə belə gətirə bilməzlər.

# Suverenliyimizin tam bərpası ili

(əvvəli 1-ci səhifədə)

Üçrəngli Dövlət Bayrağımız bu il Xankəndi, Ağdərə, Xocavənd və Xocalı şəhərlərində, Əsgəran qəsəbəsində, Sərsəng su anbarının ərazisində ucaldıldı. Noyabrın 8-də – Zəfər Günündə Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi parad keçirildi. Qalib ordunun şəxsi heyəti müzəffər Ali Baş Komandanın dayandığı tribunanın önündən inamla addımladı.

Ancaq Zəfərə gedən yol heç də asan olmadı. Hətta çox çətin, qanlı-qadalı oldu. Azərbaycan xalqı bu anın yetişməsini 30 ildən çox səbirlə gözlədi. Ölkəmizin dilbər güşəsi Qarabağın dağlıq hissəsində ötən əsrin 80-ci illərinin sonundan separatçı ünsürlərin Azərbaycandan ayrılmaq, Ermənistana birləşmək (miatsum) tələbləri ilə başlatdıqları mitinq və nümayişlər, bunun İrəvan və Moskva tərəfindən dəstəklənməsi proseslərin getdikcə daha kəskin xarakter almasına rəvac verdi. Azərbaycanlı əhali əvvəlcə Ermənistandakı tarixi yurd-yuvalarından, sonra isə keçmiş DQMV-nin erməni əhalinin çoxluq təşkil etdiyi yaşayış məntəqələrindən zorla çıxarıldı. Ərazimizdə separatçı xunta rejimi yaradıldı.

1992-ci ilin əvvəlindən Ermənistanın Azərbaycana qarşı başlayan silahlı təcavüzü keçmiş DQMV-yə bitişik 7 rayonunun (Kəlbəcər, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam) işğal altına düşməsi ilə nəticələndi. Ümumilikdə, ərazimizin 20 faizi işğal olundu, bir milyona yaxın insan qaçqın və məcburi köçkünə çevrildi. 1994-cü ilin mayında Bişkek şəhərində atəşkəsə dair sazişin imzalanması ilə başlanan danışıqlar prosesi 26 il ərzində heç bir səmərə vermədi. Ermənistan tərəfi danışıqlarda vaxt udmağa, “status-kvo”nu möhkəmləndirməyə çalışdı, eyni zamanda, işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşma həyata keçirdi.

İrəvan, hətta, keçmiş DQMV-yə daxil olmayan rayonları belə qaytarmaqdan imtina etdi. Həmin rayonları “Qarabağın təhlükəsizliyi üçün bufer zona” hesab etdiyini bildirdi.

Ermənistanın baş naziri Nikol Paşinyan 2019-cu il avqustun 5-də Xankəndi şəhərinə növbəti dəfə gəlişi zamanı bədnam “Qarabağ Ermənistandır və nöqtə” fikrini səsləndirdi. Azərbaycan haqlı olaraq, Paşinyanın sözlərini münaqişənin həlli üçün aparılan danışıqlardan imtina kimi qəbul etdi. Ermənistanın hərbi-siyasi rəhbərliyinin sonrakı təxribatları 44 günlük Vətən müharibəsinin başlanmasında xüsusi rol oynadı. Həmin təxribatlardan ən “məşhuru” hazırda İrəvanda dəmir barmaqlıqlar arxasında saxlanılan və məhkəmənin barəsində çıxaracağı hökmü gözləyən sabiq müdafiə naziri David Tonoyanın 2019-cu ilin aprelində ortaya atdığı “Yeni müharibə – yeni ərazilər” tezisidir. Tonoyan bu tezislə ölkəsinin siyasətinin formulunu ortaya qoymuşdu. Bu, o demək idi ki, münaqişənin təzələnməsi halında Ermənistan nəinki müdafiəni möhkəmləndirməyi, həm də təsir zonasını genişləndirməyi, başqa sözlə desək, yeni ərazilər ələ keçirməyi nəzərdə tutur.

Həmin günlərdə Paşinyan jurnalistlərin Tonoyanın mövqeyinə dair sualına cavab olaraq demişdi: “Əgər o başqa cür danışsaydı, mən onu vəzifədən azad edərdim”. Paşinyan bununla Tonoyanla həmfikir olduğunu ortaya qoymuşdu. Hərçənd ki, 2016-cı ilin Aprel döyüşlərinin nəticələri qüvvələr nisbətinin ölkəmizin xeyrinə dəyişdiyini və məhz Azərbaycanın öz ərazilərini azad edə biləcəyini göstərmişdi. Vətən müharibəsi bu həqiqəti bir daha təsdiqlədi.

Döyüş meydanında qisasını alan, işğal altındakı torpaqlarını azad edən Azərbaycan daha sonra qondarma rejimin əsarəti altında yaşayan insanların reinteqrasiya prosesinə start verdi. Buna baxmayaraq, edilən bütün cəhdlər uğursuzluqla nəticələndi. Əksinə, ölkəmiz Ermənistanın və qondarma rejimin yeni təxribatları ilə üzləşdi. Bütün bunlar sentyabr ayında lokal xarakterli antiterror tədbirlərinin görülməsinə gətirib çıxardı. Bir sutkadan az davam edən antiterror tədbirləri nəticəsində separatçı rejim ağ bayraq qaldıraraq təslim oldu. Xunta rejimi Qarabağın erməni əhalisini bölgəni tərk edərək Ermənistana köçməyə məcbur etdi. Bununla belə, Azərbaycan bu gün də Qarabağ erməniləri üçün, necə deyərlər, qapıların açıq olduğunu bəyan edir. Yeganə şərt Azərbaycan vətəndaşlığını qəbul etmək, ölkəmizin pasportunu daşımaq və qanunlara əməl etməkdir. Eyni zamanda, bu zaman azərbaycanlıların Ermənistan ərazisindəki yurd yerlərinə geri qayıtması məsələsi də gündəmə gəlir.

2023-cü ilin sonunda xalqımız daha bir tarixi hadisəyə şahidlik etdi. Dekabrın 21-də Xankəndi stadionunda futbol üzrə Azərbaycan Kubokunun 1/8 final mərhələsində Ağdamın “Qarabağ” və Bakının MOİK komandaları arasında oyun keçirildi. Oyunu tarixi edən işğaldan azad edilmiş ərazilərdə futbol matçının ilk dəfə keçirilməsi idi.

Bu il həm də Ermənistanla sülh müqaviləsinin imzalanması istiqamətində danışıqların davam etdirilməsi ilə yadda qaldı. 2023-cü ildə Azərbaycan və Ermənistan rəhbərləri arasında ümumilikdə 4 rəsmi, 1 qeyri-rəsmi görüş baş tutub. Eləcə də Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin il ərzində 4 rəsmi, 1 qeyri-rəsmi görüşü keçirilib.

İli dəyərləndirən Xarici işlər naziri Ceyhun Bayramov da dekabrın 28-də keçirdiyi mətbuat konfransında 2023-cü ilin Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün bərpası ilə yadda qaldığını bildirib. Qeyd edib ki, bu proses zamanı bəzi dairələrin açıq qərəz və ikili siyasət yürütməsinə baxmayaraq, Azərbaycanın qətiyyətli və prinsipial yanaşması bu istiqamətdə olan çağırışların öhdəsindən gəlməyə imkan verib.

Onu da qeyd edək ki, Ermənistan ilin ilk üç rübündə, yəni sentyabr ayınadək aşkar destruktiv siyasət yürütsə də, İrəvanın sonrakı davranışında müəyyən pozitiv elementlər nəzərə çarpır. Buna misal olaraq, noyabrın 30-da Azərbaycan–Ermənistan şərti sərhədində iki ölkənin baş nazirlərinin müavinləri – Şahin Mustafayev və Mher Qriqoryanın rəhbərlik etdikləri dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə komissiyaların iclasını göstərmək olar. Heç bir vasitəçinin iştirakı olmadan keçirilən həmin iclasda müəyyən nəticə əldə olunub. Tərəflər iclasların və birgə işçi görüşlərin təşkili və keçirilməsi reqlamentinin mətnini ilkin olaraq razılaşdırıblar.

Eyni zamanda, dekabrın 7-də Azərbaycan Prezidenti Administrasiyası və Ermənistan baş naziri aparatı saxlanılan şəxslərin qaytarılmasına dair yaydıqları birgə açıqlama da diqqəti cəlb edir. Bu razılaşma da Bakı və İrəvan arasında aparılan birbaşa danışıqlar nəticəsində əldə olunub.

Yaranmış müsbət zəmin qarşıdan gələn 2024-cü ildə Ermənistanla Azərbaycan arasında çoxdan gözlənilən sülh müqaviləsinin imzalanması perspektivlərini artırır. Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyev də bugünlərdə “TRT World” telekanalına müsahibəsində ölkəmizin Ermənistanla sülh müqaviləsi bağlamaq üçün ciddi maneə görmədiyini bildirib. Onun sözlərinə görə, Prezident İlham Əliyevin dekabrın 26-da Sankt-Peterburqda MDB dövlət başçılarının görüşü çərçivəsində Ermənistanın baş naziri N.Paşinyanla qeyri-rəsmi söhbəti Azərbaycan tərəfindən iki ölkə arasında sülh gündəliyinin təşviqi istiqamətində səmərəli və konstruktiv təmas kimi qiymətləndirilib: “Biz iki ölkə arasında sülh müqaviləsinin bağlanması üçün əlavə ciddi maneə görmürük. Konkret tarixlər barədə danışmaq bir az çətindir, çünki prosesi başa çatdırmaq üçün Ermənistan və Azərbaycan arasında hələ də əlavə danışıqlara ehtiyac var”.

Danışıqlarda irəliləyişə nail olmaq üçün münbit zəminin yarandığı fikrini Xarici işlər naziri Ceyhun Bayramov da vurğulayıb. O qeyd edib ki, Azərbaycan və Ermənistan arasında sülh üçün mühit önəmlidir: “2023-cü ilin sonunda müəyyən müsbət nəticələrin birbaşa təmaslar nəticəsində əldə olunmasına diqqəti çəkmək istəyirəm. 2024-cü ildə sülh istiqamətində inkişafa nikbin baxırıq. Eyni zamanda, öz tərəfimizdən legitim maraqlarımızı nəzərə alaraq, beynəlxalq hüququ əsas götürərək üzərimizə düşən müsbət qarşılıqlı addımları atmağa hazırıq”.

Nazirin sözlərinə görə, sülh istiqamətində hər hansısa müsbət irəliləyiş olarsa, bu ümumi prosesə yaxşı mənada təsir edə bilər: “Bu mənada, dekabrdakı inkişaf ciddi etimad quruculuğu tədbiri kimi qiymətləndirilə bilər. Razılıq iki ölkə arasında birbaşa əldə edilib, üçüncü ölkənin iştirakı baş verməyib”.

Göründüyü kimi, 2023-cü ili uğurla başa çatdıran Azərbaycan növbəti ildə sülh müqaviləsinin imzalanması ilə uğurunu davam etdirmək əzmindədir. Sülh isə təkcə Azərbaycan üçün deyil, Ermənistan, bütövlükdə region və dünya üçün faydalıdır. İrəvanla danışıqlarda müşahidə olunan müsbət dinamika gələn il bölgədə davamlı sülhün bərqərar olacağına ümidləri artırır.

**Səxavət HƏMİD**
**XQ**

## Ekspert rəyi



**Zaur MƏMMƏDOV, politoloq**

– İl ərzində baş verənlər ölkəmiz üçün, sözsüz ki, önəmli və ciddi hadisələrdir. Müxtəlif qüvvələr düşünürdülər ki, onlar Vətən müharibəsindən sonra yaranmış vəziyyəti qoruyub saxlayacaq və separatçı rejimin ləğvinə heç bir halda imkan verməyəcəklər. Lakin Azərbaycan prinsipial mövqe nümayiş etdirdi və “erməni məsələsi” Cənubi Qafqazda öz maraqlarını həyata keçirmək istəyən qüvvələrə, necə deyərlər, göz dağı oldu. Azərbaycan Ordusu bir daha peşəkarlığını nümayiş etdirdi və nəticə hamıya məlumdur.

Həm antiterror tədbirlərindən əvvəl, həm də ondan sonra müxtəlif dövlətlər tərəfindən ölkəmizə təzyiqlər edilir. Fransa başda olmaqla, Qərbdəki bəzi dövlətlər BMT Təhlükəsizlik Şurasında, ayrı-ayrı beynəlxalq təşkilatlarda ölkəmizə qarşı sanksiyalardan, hansısa qətnamələrin qəbulundan danışırlar. Hadisələr göstərdi ki, ölkəmiz qarşısında kim olmasından asılı olmayaraq, haqlı mövqeyindən çəkilməyəcək. Fransanın iki diplomatının ölkəmizdən çıxarılması da bunun bir nümunəsi idi. Əlbəttə, Xankəndidə Azərbaycanın Dövlət Bayrağının ucaldılması, Qərbi Azərbaycan mövzusunun danışıqlar prosesinə daxil edilməsi, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə eyni vaxtda azərbaycanlıların Ermənistana qayıdışının gündəmə gətirilməsi Cənubi Qafqazdakı proseslərdə yeni səhifədir. Bu, onu göstərir ki, Azərbaycan dövləti hər bir vətəndaşının maraqlarını müdafiə edir.

İl ərzində Azərbaycan ətrafında baş verən hadisələr fonunda ölkəmizin müstəqilliyini daha da möhkəmləndirməsi xalqımız və dövlətimiz üçün çox vacib idi. Əlbəttə, 2024-cü ildə də qarşıya qoyulan məqsədlərə nail olunması üçün işlər davam etdiriləcək. Gələn il həm də ölkəmizdə prezident seçkiləri keçiriləcək. Bu seçkilər qalib xalqın iştirak edəcəyi və ölkəmizin bütün ərazisində keçiriləcək ilk seçkilər olacaq. Sözsüz ki, bu da tarixi hadisədir.

# Mərkəzi Seçki Komissiyasının iclası



**Dekabrın 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.**

İclasda İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası prezidentliyinə Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədliyinin qeydə alınması məsələsinə baxılıb.

Diqqətə çatdırılıb ki, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2023-cü il dekabrın 26-da partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün MSK-ya təqdim edilib. MSK bununla əlaqədar Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb və namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən edib.

Sözügedən proseslərin gedişi barədə ətraflı məlumat verildikdən və aparılan müzakirələrdən sonra Komissiya üzvlərinin yekdil qərarı ilə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyev 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd kimi qeydə alınıb.

İclasda, habelə qarşıdan gələn seçkilərlə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası Komissiya üzvləri tərəfindən müzakirə olunaraq təsdiq edilib. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 6524203 (altı milyon beş yüz iyirmi dörd min iki yüz üç) seçki bülleteninin Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində MSK-nın təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında mətbəə üsulu ilə hazırlanması qərara alınıb.

Komissiyanın iclasında 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi özü tərəfindən irəli sürülmüş Namizəd Heydər oğlu Səfərovun namizədliyinin irəli sürülməsi də təsdiq olunub.

Beynəlxalq müşahidə missiyası və media qurumları nümayəndələrinin iştirak etdiyi iclasda, həmçinin cari məsələlərə də baxılıb.

**XQ**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 99.1-99.4-cü və 199-cu maddələrinin tələbinə görə, seçki bülletenlərinin mətni və forması, onların sayı, hazırlanmasına aid tələblər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) qərarı ilə səsvermə gününə ən geci 35 gün qalmış təsdiq edilməli, qeydə alınmış seçicilərin sayının 3 faizindən artıq olmamaq şərtilə səsvermə gününə ən azı 10 gün qalmış Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin müşahidəsi altında müvafiq qaydada hazırlanmalıdır.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində istifadə ediləcək seçki bülletenləri ilə əlaqədar yuxarıda göstərilən qayda və şərtlər əsas götürülməli, mövcud seçki dairələri üzrə həmin bülletenlərin bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnməli, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilməli, qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü), onları irəli sürmüş subyektlərin adı, siyasi partiyalar (siyasi partiya blokları) tərəfindən namizədliyi irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü, 99-cu və 199-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində mövcud seçki dairələri üzrə bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnmiş, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilmiş, habelə qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda – fəaliyyət növü), onları irəli sürmüş subyektlərin adı, siyasi partiyalar (siyasi partiya blokları) tərəfindən namizədliyi irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilmiş seçki bülleteninin mətni və forması təsdiq edilsin.
2. Ölkə üzrə qeydə alınmış seçicilərin ümumi sayından 3 faiz artıq olmamaqla, cəmi 6 524 203 (altı milyon beş yüz iyirmi dörd min iki yüz üç) ədəd seçki bülleteni Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində Mərkəzi Seçki Komissiyasının təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında mətbəə üsulu ilə hazırlansın.
3. Qərarın icrası öz səlahiyyətləri daxilində Mərkəzi Seçki Komissiyasının Katibliyinə və Milli Məclisin mətbəəsinə həvalə edilsin.
4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Məhkumlar üçün virtual kitabxana

**Cəmiyyətin həssas qrupu olan yetkinlik yaşına çatmayan və qadın məhkumların hüquqlarının təminatı, islah prosesinin və asudə vaxtının səmərəli təşkili, sosial adaptasiyası ilə bağlı ardıcıl tədbirlər görülür, bu istiqamətdə aidiyyəti dövlət qurumları və publik hüquqi şəxslər, vətəndaş cəmiyyəti institutları və beynəlxalq təşkilatlarla əməkdaşlıqda məhkumların istəkləri nəzərə alınmaqla onların bilik və bacarıqlarının artırılması, peşə hazırlığı ilə bağlı proqramlar, təlim-tədris kursları və digər maarifləndirici tədbirlər təşkil olunur.**



31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində Ədliyyə Nazirliyi tərəfindən, Hüquq və İnsan Haqları İnstitutu və BMT İnkişaf Proqramının (UNDP) dəstəyi ilə 4 saylı Qadın Cəzaçəkmə Müəssisəsində “Hüquq və insan haqları virtual kitabxanası”nın təqdimatı keçirilib.

Tədbirdə penitensiar sahədə aparılan islahatlar çərçivəsində qadın məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması məqsədilə ötən il istifadəyə verilmiş yeni müasir penitensiar müəssisədə virtual kitabxananın yaradılmasının əhəmiyyətindən bəhs olunub.

Bildirilib ki, müəssisədə fəaliyyət göstərən kitabxana fondundan mütəmadi istifadə edən məhkumlar insan hüquqları və hüquq sahəsində yüzlərlə elektron vəsaitə çıxış əldə edəcəklər. Bu da onların təhsilinə, maariflənməsinə, asudə vaxtlarının səmərəli təşkilinə töhfə verəcəkdir.

Hüquq və İnsan Haqları İnstitutu İdarə Heyətinin sədri Məhəmməd Quluzadə institutun saytında cari ilin may ayında yaradılan və bu il 100 illiyini qeyd etdiyimiz ulu öndər Heydər Əliyevin adını daşıyan virtual kitabxana barədə məlumat verərək onun oflayn versiyasının penitensiar müəssisədə istifadəyə verilməsində dəstəyə görə Ədliyyə Nazirliyinə dərin təşəkkürünü bildirib. Qeyd edib ki, hazırda virtual kitabxanada azərbaycanlı alimlərin hüquq və insan haqlarına dair üç dildə yazdıqları 250-dən çox kitab, dərslik, məqalə və hesabatlar yerləşdirilib.

BMT İnkişaf Proqramının nümayəndəsi Leyla Fəthi UNDP-nin ən uğurlu layihələrdən olan virtual kitabxanadan qısa zamanda on minlərlə insanın bəhrələndiyini vurğulayıb.

Tədbirdə müəssisədə kitabxananın fəaliyyətini təmin etmək məqsədilə UNDP tərəfindən 7 ədəd noutbuk ianə edilib.

**Qabil YUSİFOĞLU**
**XQ**

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Namizəd Heydər oğlu Səfərovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Namizəd Heydər oğlu Səfərovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 25-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra – Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Namizəd Heydər oğlu Səfərovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.
2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# “Görmüşmü bu səltənət – Əliyev tək şəxsiyyət?!”

## *Yaxud Daşkənddə [illegible] Heydər Əliyev idealına sədaqəti*

**Heydər Əliyev kimi dahi tarixi şəxsiyyətin sabiq Sovet İttifaqı rəhbərliyindəki (1982-1987) böyük və yenilikçi rolunun təfsilatları çoxsaylı xatirələrdə öz əksini tapıb və bundan sonra da zaman keçdikcə üzə çıxacaq.**

Mən isə bu möhtəşəm “Heydər Əliyev İli”nin verdiyi imkandan yararlanaraq, uzun illər (1979-2005) çalışdığım Özbəkistan Elmlər Akademiyasının A.S. Puşkin (indiki Əlişir Nəvai) adına Dil və ədəbiyyat institutunda keçən əsrin 80-ci illərində baş vermiş maraqlı bir hadisənin canlı şahidi kimi onun təfsilatını paylaşmaq istəyirəm.

...Əslində hər şey 1982-ci ildə Heydər Əliyevin Sov.İKP MK Siyasi bürosunun üzvü seçilməsindən və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olunmasından başlanmışdı. Belə ki, bu təyinatdan sonra aspiranturasını yenicə bitirdiyim həmin institutun kadrlar şöbəsinin müdiri Yevgeniya Basalko öz kabinetində başı üzərindən Heydər Əliyevin böyük portretini asmışdı.

İnstitutda çalışan yeganə azərbaycanlı kimi yalnız məndə deyil, Heydər Əliyev şəxsiyyətinə rəğbət bəsləyən bütün özbək qardaş və bacılarımızda qürur hissi doğuran bu fakt hardansa gedib institutun yerləşdiyi Daşkənd şəhər Kuybışev (indiki Mirzə Uluğbəy) rayon partiya komitəsinin 1-ci katibi, erməni kökənli Yemeliyanovun qulağına çatmışdı və rayon rəhbərini cin atına mindirmişdi. O, institutun partiya təşkilat katibini raykomun büro iclasına çağırtdırıb, SSRİ-nin və Özbəkistan SSR-in partiya rəhbərləri dura-dura Y.K.Basalkonun Heydər Əliyev portretini kabinetindən asmasını nə az, nə çox, institutun fəaliyyətində “ideoloji böhran və siyasi təxribat” kimi yorumlayaraq, məsələnin əvvəl institutun, ardınca da raykomun bürosunda müzakirəyə çıxarılmasını tələb etmişdi.

Beləliklə, Yemeliyanovun tapşırığı ilə və məhz onun siyasi ittihamı əsasında Yevgeniya Konstantinovnaya qarşı faktiki olaraq partiya məhkəməsi qurulmuşdu. Onu da qeyd edim ki, institut partbürosundakı müzakirədən öncə Y. K. Basalkodan Heydər Əliyevin portretini başı üzərindən endirmək tələb olunmuşdu və birmənalı olaraq rədd cavabı alınmışdı. İclasa rəhbərlərdən və partbüro üzvlərindən başqa heç kim buraxılmadığından bütün maraqlananlar yarıaçıq qapının ağzında toplaşıb, içəridən aydın eşidilən səslərə diqqət kəsilmişdilər.

İclası açan institut partiya təşkilat katibi ilk sözü Y. K. Basalkonun özünə vermişdi. Kadrlar şöbəsinin müdiri Heydər Əliyevin dahi şəxsiyyəti və islahatçı fəaliyyəti ilə, eləcə də, sovet cəmiyyətindəki neqativ hallara, xüsusən, rüşvətxorluğa və korrupsiyaya qarşı prinsipial və ardıcıl mübarizəsi ilə hələ onun “Literaturnaya qazeta”nın səhifələrində yer almış geniş müsahibəsindən tanışlığını, Kremldə tutduğu yüksək vəzifədə çox keçmədən idarə etdiyi bütün sahələrdə ciddi irəliləyişlərə nail olduğunu vurğulayaraq, Sov.İKP MK Siyasi Bürosu üzvlərindən və SSRİ hökuməti rəhbərlərindən daha çox ona inam bəslədiyinə görə başının üzərinə portretini qaldırdığını bildirmiş və nitqini özünəməxsus bir xəbərdarlıqla bitirdi: “Əgər mənə qarşı əsassız irəli sürülən “siyasi təxribat” ittihamı geri götürülməsə, İttifaqın ən nüfuzlu qəzetlərinə, eləcə də, möhtərəm Heydər Əliyevlə hörmətli Şərəf Rəşidova yazılı müraciətlər ünvanlamağa məcbur olacam!”

Araya dərin və uzun bir sükut çökmüşdü. “İttiham”ın xeyirinə danışmaq üçün tapşırıq alanların keçirdiyi tərəddüd, bir tərəfdən, mərd qadının böyük cəsarəti ilə bağlı idisə, digər tərəfdən, Yevgeniya Konstaninovnanın o dönəmdəki Türküstan Hərbi Dairəsinin nüfuzlu və yüksək rütbəli zabitlərindən birinin xanımı olması ilə əlaqəsiz deyildi.

Nəhayət, iclas sədrinin “Kim danışmaq istəyir?” sualına ilk səs verən institut partbürosunun ən gənc üzvü, mənim kurs yoldaşım və yaxın dostum, Azərbaycan-özbək ədəbi əlaqələrinin tanınmış tədqiqatçısı, sonralar təşkilatçılıq istedadına görə Müstəqil Özbəkistan Respublikasının Mədəniyyət naziri vəzifəsinə qədər yüksələn və vəzifə başında da faciəli ölümlə üzləşən Ənvər Cabbarov oldu. O, Heydər Əliyevin bir rəhbər kimi yenilikçi və islahatçı fəaliyyəti haqqında Y.K.Basalkonun səsləndirdiyi bütün faktların düzgünlüyünü ayrıca qeyd edərək, 70-ci illərdə Azərbaycanda təhsil aldığı zaman bunların canlı şahidi olduğunu xüsusi vurğulayaraq, yekunda sözü öz şəxsi taleyi üzərinə gətirdi: “Dərin minnətdarlıq hissi ilə etiraf etməliyəm ki, şəxsən mənim və kurs yoldaşım Turğunəli Mahmudəliyevin dövlət xətti ilə tələbə mübadiləsi əsasında Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil almağımız, eləcə də, qarşılıqlı olaraq tələbə yoldaşlarımız Akif Bağırov və Yaşar Qasımovun Daşkənd Dövlət Universitetinin filologiya fakültəsində oxumaqları məhz Heydər Əliyevin müdrik kadr siyasətinin bəhrələrindən biridir. Ona görə də Yevgeniya Konstantinovnanın Heydər Əliyev şəxsiyyətinə dərin rəğbətində, eləcə də, Sovet hökumətinin yenilikçi rəhbərlərindən biri kimi ehtiram əlaməti olaraq kabinetində məhz Heydər Əliyevin portretini asmasında hər hansı “ideoloji böhran” yaxud, “siyasi təxribat” nişanəsi görmürəm!”

Təbii ki, Yemeliyanovu qane edə bilməzdi və o daha da qəzəblənərək, məsələni raykomun bürosuna çıxarmaqda və “siyasi təxribatçı”ları cəzalandırmaqda israr etdi. Lakin Ənvər Cabbarovun və onun atası – Özbəkistanın görkəmli ictimai xadimi, Xalq şairi Cüməniyaz Cabbarovun ciddi səyləri nəticəsində Özbəkistan rəhbəri və tanınmış yazıçı, rəhmətlik Şərəf Rəşidovun müdaxiləsi erməni raykom katibinin bəd niyyətini gözündə qoydu.

Amma bu, Heydər Əliyevə qarşı erməni paxıllığının və daşnak kin-küdurətinin hələ hamısı deyildi. Şərəf Rəşidovun vəfatından çox keçməmiş qondarma “özbək işi” adı altında Moskvanın ivanovlar və qdlyanlardan ibarət bədnam komissiyası fırıldaqçı “Müfəttiş” rolunu oynamağa girişdi. Yeri gəlmişkən, əvvəldən ayıq özbək ziyalıları arasında bu uydurma “pambıq işi” kampaniyasının növbə ilə və əsasən türkdilli respublikalara qarşı qurulmuş bir tələ olması, məsələnin Siyasi büroda müzakirəsi zamanı Heydər Əliyevin bu məkrli haqsızlığa və namərdliyə uzaqgörənliklə ciddi etiraz etməsi haqqında söhbətlər gəzirdi və xeyli sonralar artıq müstəqil



Azərbaycan Respublikasının Prezidenti kimi Heydər Əliyevin Özbəkistana rəsmi səfəri (1997-ci il) çərçivəsində ona Mirzə Uluğ bəy adına Özbəkistan Milli Universitetinin fəxri doktoru diplomu təqdim olunan görüşdə həmin söhbətlərin əsassız olmadığı bir daha təsdiqləndi.

Özbəkistanda Telman Qdlyanın vasitəsilə yaranan fürsətdən sui-istifadə edən fürsətcil Yemeliyanov və əlaltıları Y.K.Basalkodan intiqam almaq üçün Heydər Əliyevin enməz portreti ilə bağlı məsələni yenidən gündəmə gətirməyə çalışırdılar.

Qeyd etdiyim kimi, Qdlyanın quldur dəstəsinə arxalanaraq, Heydər Əliyevin enməz portreti ilə bağlı ermənipərəst qüvvələrin intiqam almaq və cəzalandırmaq üçün Y.K.Basalkonu yenidən raykomun bürosuna çağırmışdılar. Həmin həyəcanlı günlərdəki görüşlərimizin birində Yevgeniya Konstantinovna kabinetindəki işıqlı portretə işarə edərək dedi:

– Görürsən də, paxılları və bədxahları sənin həmyerlinin portretini layiq olduğu ucalıqdan endirmək üçün necə partlamaya düşüblər?!..

– Görürəm və mübariz əzminizi alqışlayıram! Amma Yevgeniya Konstantinovna, icazə verin, sözlərinizin bir yerinə düzəliş edim, – dedim portreti göstərərək, – O, mənim yox, mən Onun həmyerlisiyəm! Daha doğrusu, Özbəkistandakı minlərlə soydaşlarından yalnız biriyəm.

Çöhrəsinə çox yaraşan bir təbəssümlə:

– Belə düzgün düzəliş önündə əllərimi qaldırıram, – dedi, – 1:0 sənin xeyrinə!..

Sonra söhbət əsnasında raykomdan gələn hədə-qorxulara münasibətini bildirdi:

– Mən öz fikrimi partkoma da çatdırdım. Heç bir büro iclasına-filanına gedən deyiləm. Əllərindən nə gəlir, onu da eləsinlər... Ancaq nə qədər ki, bu kabinet mənimdir, bədxahlar özünü yırtsa da, o portret enməzdir!

Artıq növbəti görüşümüzdə mən Y. K. Basalkonun, xüsusən, bu son sözlərinin təsirində doğulmuş və bir gün əvvəl Ənvərə oxuduğum “Enməzdir o portret” adlı şeirimi o kabineti daha da işıqlandıran portretə baxa-baxa Yevgeniya Konstantinovnanın özünə də oxudum:

**Qoy dillənsin həqiqət,**
**Görmüşmü bu səltənət**
**Əliyev tək şəxsiyyət?! –**
**Enməzdir o portret!**

**Nə qədər ki, binadan**
**Haqqındır bu kabinet,**
**Cırılsa da Qdlyan,**
**Enməzdir o portret!**

**O mənim xoş amalım,**
**Həyatda idealım,**
**İftixarım, kamalım,**
**Enməzdir o portret!**

**Nə qədər ki, var imkan,**
**Mənimdi bu kabinet,**
**Özün yırtsa da Telman,**
**Enməzdir o portret!**

Orijinalı oxuduqdan sonra onun özbəkcə və rusca sətri tərcüməsini diqqətə çatdırdım. Xoşuna gəldi:

– Əhsən! Azərbaycana dönəndən sonra nə vaxtsa bu şeiri çap etdirəcəyinə və bu hadisələr haqda yazacağına ümid edirəm! – dedi.

Mütləq yazacam! – dedim.

Axırda iş elə gətirmişdi ki, Heydər Əliyevin Moskvadakı yüksək vəzifəsindən istefa verməsi ilə Y. K. Basalkonun hərbçi ərinin başqa respublikaya təyinat alması hardasa üst-üstə düşmüşdü. Onu institutdakı iş otağında sonuncu dəfə ziyarət edirdim. Bir qədər fikirli və dalğın görünürdü. Kefini xəbər aldım.

– Heç bilmirəm, necə deyim, həm yaxşıyam, həm pisəm. Sevinirəm, ona görə ki, namərdlərin bəd niyyətləri elə ürəklərində də qaldı. Mən bu kabineti o enməz portretlə birgə qalib kimi tərk edirəm, sənin şeirində deyildiyi kimi! Bundan sonra evdəki iş otağımda o portretin yeri bundan da yüksəkdə olacaq. Fikirliyəm, ona görə ki, Heydər Əliyevin vaxtsız istefası onun Sovet İttifaqının hər yerindəki milyonlarla xeyirxahları və tərəfdarları üçün gözlənilməz oldu. Ancaq bir həqiqəti heç vaxt yaddan çıxarma: Heydər Əliyev kimi dahi şəxsiyyətin və islahatçı rəhbərin qədir-qiymətini bilməyən bir quruluşun axırı yoxdur, bunu mən deyirəm!

Sözlərinizə zərrə qədər şübhə eləmirəm, – dedim.

– İndi isə gəl, mənə kömək elə, – dedi, – bir az da geciksən, səni özüm çağırtdıracaqdım. Görürsən, əşyalarımın hamısını yığmışam. Portreti axıra saxlamışam ki, səninlə birlikdə aşağı düşürək. Aşağıda maşın gözləyir. İndi mən bu portreti götürməyi səndən başqa heç kimə etibar edə bilmərəm! İllər uzunu mən bu otaqdakı işimə hər günü çiçəklərə su verməklə və bu portreti silməklə başlamışam...

Y.K.Basalko ilə sonuncu görüşümüz oldu. Ancaq onun qədirbilənliklə və sonsuz sədaqətlə Heydər Əliyev şəxsiyyəti və fəaliyyətinə dərin ehtiramı yaddaşıma və xatirələrimə ömürlük həkk olundu.

Yadımdadır, Sovet İttifaqının rəhbərlərindən biri kimi Heydər Əliyevin Vyetnam Respublikasına səfəri haqqında sənədli film çəkilmişdi və həmin film Daşkəndin bütün kinoteatrlarında göstərilən yeni bədii filmlərdən öncə kinojurnal kimi nümayiş etdirilirdi. Yevgeniya Konstantinovnanın sevincinin həddi-hüdudu yox idi. O, öz məsləkdaşlarını və Heydər Əliyevin xeyirxahlarını hər görəndə onlara sözügedən sənədli filmə baxmağı tövsiyyə edirdi və filmin yaratdığı gözəl təəssüratdan fəxrlə ağızdolusu danışırdı. Şəxsən Ənvərlə ikimizi dəfələrlə institut yaxınlığındakı “Dostluq” kinoteatrında sevimli filmimizi birgə tamaşa etməyə dəvət etmişdi. Belə məqamlarda Ənvərin tez-tez təkrar etdiyi sözlər də yaxşı yadımdadı: “Akif, bilmirəm sən fərqindəsənmi, ya yox, bu xanımda Heydər Əliyev şəxsiyyətinə dərin rəğbət artıq sarsılmaz etiqad dərəcəsinə çatıb!” Mən isə hər dəfə sonsuz qürur hissi ilə dostumun fikrini təsdiq edirdim.

Heydər Əliyevin istefasından sonra daha da quduzlaşmış qdlyanlar qondarma “rəşidovçuluq” böhtanı ilə yanaşı, artıq müəyyən dairələrdə uydurma “əliyevçilik” iftirasını da dilə gətirməkdən çəkinmirdilər. Amma heç nəyə nail ola bilmədilər.

Bəli, söhbət nə az, nə çox, sabiq SSRİ-nin ilk və son prezidenti Mixail Qorbaçovun gerçəkləşdirə bilmədiyi yenidənqurma ideyasının plagiatlığından və bu konseptual yeniliyin həm nəzəri, həm əməli cəhətdən tam mənada məhz Heydər Əliyevin dahiyanə zəkasına və islahatçı təfəkkürünə mənsubluğundan gedir. Heydər Əliyevin istər Azərbaycan, istər SSRİ miqyasında gerçəkləşdirdiyi böyük yeniliklər həqiqi yenidənqurmanın parlaq misalları kimi bu qənaətin doğruluğunu bir daha təsdiq etməkdədir. Əsl ideya və konsepsiya müəllifinin Kremli tərk etməsi ilə M. S. Qorbaçovun yalnız dildəki “yenidənqurma”sının, eləcə də, Y. K. Basalkonun öncədən vurğuladığı kimi, Heydər Əliyevin qədrinə yetməyən dövlət və hökumətlə birgə, o quruluşun özünün də süquta üz tutması əsla təsadüfi deyildir.

Əliyevşünaslığın Azərbaycanda artıq müstəqil elm kimi formalaşdığı indiki dönəmdə sözügedən plagiat aktını danılmaz faktlarla dərindən araşdırmaq və təkzibolunmaz dəlillərlə geniş şəkildə işıqlandırmaq, hər kəsdən öncə, siyasətşünaslarımızın qarşısında duran ən mühüm vəzifələrdən biridir.

**Akif AZALP,**
**Azərbaycan–Özbəkistan Dostluq Cəmiyyəti İdarə Heyətinin üzvü,**
**fəlsəfə doktoru, şair**




# Ulu öndərin “Qələbəyə aparan yol”u

**Bu adla işıq üzü görmüş yeni kitab Ümummilli lider, dünya şöhrətli siyasətçi və dövlət xadimi, müstəqil Azərbaycan dövlətinin banisi,Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunub. “Heydər Əliyev ili” çərçivəsində nəşr olunan əsərdə yaxın tariximizdə düşmən qüvvələrin və onların nankor əlaltılarının xalqımıza qarşı törətdikləri müsibətlərdən və onlardan qurtuluş yollarından bəhs olunur.**

Müəllif öncə şəxsiyyətlərin tarixdəki rolunu fəlsəfi-politoloji kontekstdə izah etməyə çalışmış və Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti timsalında buna nail olmuşdur. Heydər Əliyev mənəvi-siyasi irsinin varisi, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin yaşadığı yeni tarixi mərhələ barədə fikirlər də nəşrdə böyük maraq doğurur və reallığı tam əks etdirir. Kitab müəlliifi Hüseyn Əlixanov Ulu öndər Heydər Əliyevin ölkəyə rəhbərliyi dövründə hüquq-mühafizə orqanlarında çalışmışdır. Əsərdə ölkədə həmin vaxtlar cərəyan edən hadisələr və ayrı-ayrı cinayət işləri üzrə istintaq-əməliyyat fəaliyyətinə dair faktiki epizodlar da öz əksini tapıb.

Kitabda Prezident Heydər Əliyevin torpaqlarımızın işğaldan azad edilməsi istiqamətindəki fəaliyyəti, 2003-cü ildən sonra ölkə başçısı İlham Əliyevin bu yolu uğurla davam etdirməsi ilə bağlı məqamlara açıqlıq gətirilir: “Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin müqəddəs vəsiyyətini ölkə həyatının bütün sahələri ilə yanaşı, həm diplomatiya sahəsində, həm də döyüş meydanında yerinə yetirdi. Yenilməz mərdlik və sücaət nümayiş etdirməklə, Azərbaycan Ordusunun fədakarlığı və igidliyi sayəsində işğal altında olan ərazilərimizi erməni faşistlərindən azad etdi.”

Kitabda ölkə başçısı İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Meriban Əliyevanın yüksək tribunalardan Azərbaycan həqiqətlərini dünyaya çatdırması, azad olunmuş ərazilərdə dağıdılmış tarixi-mədəni abidələrimizin bərpası istiqamətindəki fəaliyyəti də geniş şəkildə işıqlandırılır.

Tariximizin son 30 illik dövrünün ictimai-siyasi mənzərəsini yaradan “Qələbəyə aparan yol” kitabını vərəqlədikcə qələbəyə gedən yolun çətinliyini görür, zəfər sevincini bizə yaşadanlara minnətdarlıq hissi duyuruq.

**Nurəngiz ADİLQIZI**

# Heydər Əliyev: Azərbaycan dünya azərbaycanlılarının Vətənidir

**Azərbaycanlılar qədim dövlətçilik ənənələrinə və zəngin mədəniyyətə malik inkişaf etmiş, dünya mədəniyyətinə böyük töhfələr vermiş xalqlardan biridir.**



Tarix dəfələrlə sübut edib ki, milli özünüdərk, milli birlik və həmrəylik kimi keyfiyyətlərdən məhrum olan xalqlar gec-tez daha güclü xalqların təsiri altına düşərək, assimiliyasiya olunur və öz xüsusiyyətlərini itirirlər. Müasir dünyanın qabaqcıl xalqlarından, millətlərindən biri olmaq üçün milli əzm, siyasi iradə nümayiş etdirmək, bir millət kimi beynəlxalq nüfuz qazanmaq lazımdır.

Bu mənada həm Azərbaycanda yaşayan, həm də müxtəlif səbəblərdən, məcburiyyət qarşısında, müəyyən tarixi-siyasi hadisələrlə əlaqədar Vətəndən çıxıb getmiş və dünyanın 70-dən çox ölkəsinə səpələnmiş azərbaycanlıların xalqımızın, millətimizin gələcəyi naminə, dövlət müstəqilliyimizi qoruyub saxlamaq, möhkəmləndirmək və onu əbədi etmək üçün möhkəm həmrəylik və mütəşəkkillik nümayiş etdirməsi, diasporumuzun daha da gücləndirilməsi zamanımızın vacib məsələsidir.

Hazırda dünya azərbaycanlılarının ümumi sayı 50 milyondan çoxdur. Onlardan 10 milyondan çoxu ( Şimali və Cənubi Azərbaycan istisna olmaqla ) dünyanın müxtəlif ölkələrində yaşamaqdadır. Məsələn, bu gün Cənubi Azərbaycanda – öz vətənlərində yaşayanların sayı 30 milyondan çoxdur. O cümlədən, qardaş Türkiyədə 3 milyonadək, ABŞ-da 1 milyon, Rusiyada 1 milyondan çox, Almaniyada 300 min, Fransada 150 min, Finlandiyada 12 min və s. ölkələrdə yaşamaqdadırlar.

Yaxşı olardı ki, əvvəlcə tarixi şəraitə və reallıqlara nəzər yetirək. Sovet imperiyasının 70 illik dövründə biz dünyadan, həmçinin xaricdə yaşayan soydaşlarımızdan təcrid olunmuşduq. Azərbaycanlıların milli birliyinin, xaricdəki diasporumuzun formalaşması prosesi XX əsrin əvvəllərindən başlasa da, yalnız 70-ci illərdə güclü vüsət almışdır. Dövlətçilik tariximizə milli oyanış və dirçəliş dövrü kimi daxil olan 70-ci illərdən etibarən xaricdə azərbaycanlıların yeni-yeni milli mədəniyyət mərkəzləri, xeyriyyə cəmiyyətləri və fondları, assosiasiyaları formalaşmağa başlamışdı.

Ölkəmiz dövlət müstəqilliyi qazandıqdan sonra, xüsusilə Ulu öndər Heydər Əliyevin xalqımızın təkidli tələbi ilə Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə gəlməsi ilə azərbaycanlıların və diasporumuzun təşkilatlanma prosesi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub, soydaşlarımızla hərtərəfli əlaqələr yaradılıb. Hazırda da Prezident İlham Əliyevin gərgin fəaliyyəti və qayğısı ilə azərbaycanlıların milli birlik prosesi daha da güclənir.

Hazırda Avropa ölkələrində fəaliyyət göstərən diasporumuz xüsusilə fərqlənir, həmçinin Türkiyədə, ABŞ-da, Almaniyada, Fransada, Polşada, Böyük Britaniyada, Macarıstanda yaşayan soydaşlarımızın fəallığı xüsusilə qeyd olunmalıdır. Bu ölkələrdə azərbaycanlıların çox sayda təşkilatı yaranıb və fəal iş aparır. Azərbaycan dilində onlarca qəzet və jurnallar çıxır, doğma Vətənlə əlaqələr daha da güclənib.

ABŞ-ın Kaliforniya ştatındakı 300 minlik azərbaycanlı icması ilk dəfə qubernator seçkilərində öz namizədini irəli sürüb və bu ştatda öz fəallıqlarını daha da genişləndiriblər. Rusiya Federasiyasında seçkili orqanlarda və digər idarəetmə strukturlarında vəzifə tutan həmyerlilərimizin sayı artmaqdadır.

Dünya azərbaycanlıların harada yaşamasından asılı olmayaraq, ən mühüm və müqəddəs vəzifələrindən biri Azərbaycan xalqının tarixi nailiyyətini bütün dünya azərbaycanlılarının mənəvi-siyasi iradəsinin nəticəsi olan müstəqil dövlətçiliyimizi qoruyub saxlamaqdan, milli dövlətimizin dünya birliyində özünəməxsus yerini daha da möhkəmləndirməkdən ibarətdir.

Müstəqil Azərbaycan dövlətinin mövcudluğu, onun demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu yolu ilə irəliləməsi yalnız respublika vətəndaşlarının deyil, dünya azərbaycanlılarının da müstəqillik və dövlətçilik təfəkkürünün inkişafına, onların həmrəyliyinə təkan verir, mədəni bir etnos kimi Azərbaycan xalqına beynəlxalq nüfuz qazandırır.

Soydaşlarımızın əksəriyyəti başqa xalqlar içərisində azərbaycanlılığı, milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, dilimizi qoruyub saxlaya bilmiş və övladlarına ötürmüşdür.

Bu gün inamla deyə bilərik ki, dünya azərbaycanlılarının əsl milli özünüdərk və ümummilli ideya – azərbaycançılıq, müstəqil dövlətçilik və milli-mənəvi dəyərlər ətrafında birləşmə prosesinin başlanması Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, dünya azərbaycanlılarının ümummilli ideya ətrafında fəal qüvvə kimi birləşməsi, ilk növbədə, Ümummilli liderimiz Heydər Əliyevin 34 ildən artıq dövrü əhatə edən möhtəşəm siyasi fəaliyyəti və onun rəhbərliyi altında Azərbaycan Respublikasının inkişafı ilə bağlıdır.

Dünya azərbaycanlılarının milli şüurun güclənməsində Ulu öndər Heydər Əliyevin Kremldə Sovet İttifaqının ali rəhbərlərindən biri kimi fəaliyyəti də xüsusi rol oynamışdır. Heydər Əliyev şəxsiyyətinə qarşı siyasi qısqanclıq nəticəsində aktiv siyasi fəaliyyətdən kənarlaşdırıldığına baxmayaraq, 1990-cı il 20 Yanvar qırğını ilə bağlı Moskvada vətəndaş qeyrəti və həqiqi vətənpərvərlikdən irəli gələn cəsarətli bəyanatı ilə dünya azərbaycanlılarını ayağa qaldırdı, xalqın dönməz siyasi iradəsini bəyan etdi. Dünya azərbaycanlılarının bir millət kimi mütəşəkkilliyinə, birliyinin formalaşmasına təkan verən bu bəyanat soydaşlarımızı xalqın taleyi ilə yaşayan, tarixi məsuliyyəti daşımaq qüdrətində olan yeganə siyasi xadim və milli lider, dahi şəxsiyyət Heydər Əliyev ətrafında birləşməyə başladı.

XX əsrin 80-ci illərinin axırlarında dünyada baş verən qlobal dəyişikliklərlə əlaqədar bir sıra xalqların, o cümlədən, Azərbaycan xalqının özünüdərki, həmrəylik hissi güclənməyə başladı. İctimai həyatın demokratikləşməsi istiqamətində genişlənən xalq hərəkatı zəminində ilk olaraq Naxçıvan Muxtar Respublikasında 1989-cu ilin noyabrında Şimali və Cənubi Azərbaycan arasında humanitar, mədəni, iqtisadi və qohumluq əlaqələrini bərpa etmək məqsədilə əsassız çəkilmiş sərhəd çəpərlərinə qarşı xalqın etirazı başladı. Başlanan bu siyasi aksiya 1989-cu ilin dekabrın 31-də azərbaycanlıların həmrəylik hərəkatına çevrildi.

1990-cı illərin əvvəllərində, tariximizin çox mürəkkəb və gərgin bir mərhələsində, siyasi böhranın dərinləşdiyi bir vaxtda dünya azərbaycanlılarının birliyi yolunda məhz Ümummilli liderimiz tərəfindən daha bir önəmli addım atıldı.

1990-cı il noyabrın 3-5-də Türkiyədə keçirilən I Millətlərarası Azərbaycan-Türk Dərnəkləri qurultayı isə Naxçıvan Muxtar Respublikasında başlamış hərəkatın davamı kimi milli birlik və həmrəylik yolunda atılan mühüm addım oldu. Qurultayın qəbul etdiyi qərarda 31 dekabrın hər il Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd edilməsi təklifi irəli sürüldü. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il 16 dekabr tarixli iclasda 31 dekabrın Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan edilməsi qərara alındı.

Naxçıvan MR Ali Məclisinin bu qərarını əsas tutaraq Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası 1991-ci il dekabrın 25-də hər il dekabrın 31-nin dünyada yaşayan azərbaycanlıların həmrəylik günü kimi qeyd edilməsini qərara aldı.

1993-cü ilin iyununda Ulu öndər Heydər Əliyevin Azərbaycan Respublikasında siyasi rəhbərliyə qayıtmasından sonra ölkəmizin ictimai həyatının bütün sahələrində, o cümlədən dünya azərbaycanlıları ilə əməkdaşlıq sahəsində də keyfiyyətcə və mahiyyətcə yeni mərhələ başladı.

Azərbaycan Prezidenti Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultayda 36 ölkədən gəlmiş 1105 nümayəndə, 96 qonaq iştirak edirdi. Qurultayda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin söylədiyi proqram xarakterli nitqinin aparıcı xəttini belə bir tezis təşkil edirdi: "Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimiz ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik".

Qurultay göstərdi ki, qüdrətli Azərbaycana gedən yol bütün azərbaycanlıların milli birliyindən keçir. Dünya Azərbaycanlılarının ali məclisi müxtəlif ölkələrə səpələnmiş soydaşlarımızın bir araya gətirilməsi vəzifəsinin həyata keçirilməsi istiqamətində atılmış ilk ciddi və qəti bir addım idi. Qurultay Azərbaycanın Avroatlantika məkanına inteqrasiyasına kömək edəcək diasporumuzun inkişafında həlledici əhəmiyyətə malik qərarlar qəbul etdi.

Türk dünyasının böyük lideri Heydər Əliyev çoxminillik tariximizdə dünya azərbaycanlılarını ilk dəfə bir araya gətirən böyük dövlət xadimi oldu. Azərbaycan dövləti Dünya Azərbaycanlılarının I Qurultayının qərarlarının əməli surətdə həyata keçirilməsi üçün bir sıra mühüm işlər gördü. 2002-ci il iyulun 5-də Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla iş üzrə Dövlət Komitəsi yaradıldı. 2008-ci ildə bu qurumun adı dəyişdirilərək Diasporla İş üzrə Dövlət Komitəsi adlandırıldı.

Azərbaycan Respublikasının Ümummilli lideri Heydər Əliyev Almaniyadakı Azərbaycan Mədəniyyət Mərkəzinin nümayəndələri ilə görüşündə demişdir ki, “Azərbaycan dünya azərbaycanlılarının Vətənidir. Hər bir azərbaycanlı Azərbaycana öz ata evi kimi baxmalıdır”.

Prezident Heydər Əliyevin xarici səfərlərinin proqramına həmin ölkələrdə yaşayan azərbaycanlılarla görüşlərin daxil edilməsi, müəyyən qərarların qəbulu və icrası diasporumuzun mütəşəkkilliyini, təşkilatlanmasını sürətləndirdi. Bu prosesə münbit zəmin yaradan əsas amillərdən biri Heydər Əliyevin daxili və xarici siyasəti arasında üzvi vəhdət oldu.

Dövlət başçısı Heydər Əliyev çoxsaylı xarici səfərləri zamanı həmvətənlərimizlə görüşlərdə, bir qayda olaraq, onların problemləri ilə maraqlanır, dəyərli tövsiyələrini verir, səfirliklərimizi bu işə istiqamətləndirir, soydaşlarımızı ölkəmizin ictimai, iqtisadi, mədəni həyatında fəal iştiraka dəvət edirdi.

Ümummilli liderin başladığı işləri davam etdirən, o cümlədən, dünya azərbaycanlılarının milli birliyinin gücləndirilməsi istiqamətində apardığı uğurlu siyasətə sadiq qalan Prezident İlham Əliyev 2006, 2011, 2016 və 2021-ci illərdə dünya azərbaycanlılarının növbəti qurultaylarının keçirilməsini təşkil etmişdir. Bu qurultaylarda xaricdə yaşayan azərbaycanlılarının problem və qayğıları, onların birliyi, təşkilatlanması və Azərbaycan Respublikası ilə əlaqələri sahəsindəki mövcud vəziyyət təhlil edilmiş, qərarlar qəbul olunmuşdur. Həmçinin, xaricdə yaşayan azərbaycanlıların ölkəmizlə əlaqələrinin daha da möhkəmlənməsinə, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasına, diaspor quruculuğu işinin təkmilləşdirilməsinə dair qərarlar qəbul edilmişdir.

Qırx dörd günlük Vətən müharibəsində qazanılmış Qələbə dünya azərbaycanlılarının bir bayraq altında birləşməsi, onların milli birliyinin daha da güclənməsi istiqamətində keyfiyyətli mərhələnin başlanmasına səbəb oldu.

**İbrahim ZEYNALOV,**
**Bakı Dövlət Universiteti tarix fakültəsinin dekanı, professor**

Redaksiyaya məktub

# Rusiyalı alim hər mühazirəsində “Azərbaycan – Heydər Əliyev” deyirdi

**Keçən əsrin 70-ci illərində Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə respublikadan kənarda ali təhsil almağa göndərilmiş çoxsaylı azərbaycanlı gənclərdən biri də mənəm. 1975-1980-ci illərdə Voronej Kənd Təsərrüfatı İnstitutunda (indiki Voronej Dövlət Aqrar Universiteti) yerquruluşu fakültəsinin tələbəsi olmuş, sonra orada aspiranturada təhsil almışam.**

“Xalq qəzeti”ndə “Heydər Əliyev İli” çərçivəsində oxuduğum maraqlı xatirələr, görkəmli şəxslərlə müsahibələr Ulu öndərin mənalı həyatını bir daha gözlərim önündə canlandırır, məni tələbəlik illərinə və ondan sonrakı illərə qaytarır. İlk növbədə onu deyim ki, Azərbaycan KP MK-ya rəhbərlik edən zaman Heydər Əliyevin gəncləri respublikadan kənara oxumağa göndərməsi böyük uzaqgörənlik idi. Bu, bir tərəfdən, Azərbaycanın ucqar kəndlərindən olan gənclərə keçmiş İttifaqın qabaqcıl ali təhsil müəssisələrində təhsil almaq, digər tərəfdən, dünyaca məşhur sovet alimlərinin tələbələri, aspirantları olmaq imkanı yaradırdı.

O vaxtlar Azərbaycanda yer quruluşu üzrə mütəxəssislər az idi. Ona görə də mən Rusiyaya bu ixtisası öyrənməyə göndərildim. 1975-ci ilin yayında Voronej şəhərinə, Kənd Təsərrüfatı İnstitutuna oxumağa getdim. Ruscanı akademik səviyyədə zəif bilirdim. Xeyirxah insanlar – tələbə yoldaşlarım, müəllimlərim, xüsusilə də professor Vladimir Zapletin bu çətinliyi yenməyimə kömək etdilər. Yeri gəlmişkən qeyd edim ki, Rusiya Kənd Təsərrüfatı Elmləri Akademiyasının müxbir üzvü, iqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi olan Zapletinin də bu günlərdə (dekabrın 25-də) 100 yaşı tamam olur.

İkinci Dünya müharibəsinin qanlı-qadalı günlərində Azərbaycandan olan insanlara xüsusi rəğbət bəsləyən bu rus zabiti müharibədən uzun müddət keçməsinə baxmayaraq yenə də həmin hisslərə sadiq qalmışdı. Bunu ona görə vurğulayıram ki, görkəmli alim həmişə Azərbaycana və azərbaycanlılara böyük hörmətlə yanaşır, Ulu öndərin kadr hazırlığı üzrə siyasətini dəyərləndirir, gənclərimizin gələcəkdə yüksək ixtisas sahibi, intellektli ziyalı kimi formalaşması üçün səylərini əsirgəmirdi. Elə mühazirəsi olmazdı ki, Heydər Əliyevdən söz salmasın. Sevimli professorumuz yerquruluşu ixtisası üzrə dissertasiyalar müdafiə etmiş və alimlik dərəcəsi almış ilk azərbaycanlı alimlərin elmi işlərinin rəhbəri olub.

Vladimir Zapletinin elmi-tədqiqat işləri aqrar iqtisadiyyat elminə böyük yeniliklər gətirmişdir. Zəngin torpaq, iqlim potensialına malik olan Sovetlər İttifaqında landşaft əsaslı ərazi planlaşdırmasının konseptual əsaslarına ilkin olaraq məhz onun elmi əsərlərində rast gəlinir. Yazdığı dərsliklər, dərs vəsaitləri keçmiş SSRİ məkanında ali təhsil ocaqlarında istifadə edilirdi. “Zapletin yerquruluşu məktəbi”nin azərbaycanlı məzunları sonradan müstəqil respublikamızda torpaq islahatlarının müvəffəqiyyətlə həyata keçirilməsində əməli fəallıq göstərdilər. Onlar Azərbaycan Kənd Təsərrüfatı Akademiyasında, Azərbaycan Memarlıq və İnşaat Mühəndisləri İnstitutunda yerquruluşu və torpaq kadastrı istiqaməti üzrə mütəxəssis hazırlığında, İqtisadiyyat Nazirliyində, Ekologiya və Təbii Sərvətlər Nazirliyində, Kənd Təsərrüfatı Nazirliyində, keçmiş Azərbaycan Dövlət Torpaq və Xəritəçəkmə Komitəsində, digər dövlət orqanlarında ölkəmizin təbii sərvətlərindən, o cümlədən torpaq ehtiyatlarından səmərəli istifadə edilməsinə, onların mühafizəsinə dair dövlət əhəmiyyətli proqramların hazırlanmasının və həyata keçirilməsinin bilavasitə iştirakçıları oldular. Bu gün həmin məzunlar arasında 1 professor, 2 elmlər doktoru, 3 elmlər namizədi,1 general var.

Ali və akademik təhsil illərini Voronej şəhərində keçirən bir azərbaycanlı kimi, yarım əsr sonra bu böyük şəxsiyyəti yad etməyim onu göstərir ki, böyük insanlar təkcə öz millətinə yox, bəşəriyyətə məxsusdurlar. Onlar xeyirxah əməlləri ilə təkcə öz xalqının deyil, digər xalqların da qəlblərində abidələrini ucaldırlar.



...90-cı illərin əvvəlləri idi. Müəllimlərimdən birinə zəng edib hal-əhval tutarkən dedi ki, sabah institut partiya komitəsinin iclasında V. Zapletinin məsələsinə baxacaqlar. Donub qaldım. Çünki o, çox nizam-intizamlı bir adam idi və heç vaxt səhvə yol verməzdi. Səbəbini soruşanda müəllim bildirdi ki, V.Zapletin erməni tələbələrinin də iştirak etdiyi mühazirə auditoriyasında Ermənistanın işğalçı dövlət olduğunu demiş, Qarabağ torpaqlarının Azərbaycan Respublikasına aid olduğunu bəyan etmişdir.

Doğrudur, erməni əsilli birisinin rəhbərlik etdiyi institut partiya komitəsində professor Zapletinin “məsələsinə baxıldı”, amma onun alim nüfuzu, çoxminli kollektiv içərisində qazandığı imici erməni partkomun qarayaxmasını heçə çıxardı...

Bax, beləcə, Heydər Əliyev dühasına böyük ehtiram bəsləyən rus alimi daim onun təbliğatçısı və Azərbaycanın təəssübkeşi kimi çıxışları ilə yadda qalıb. Onun yetirməsi kimi, mən də hədsiz dərəcədə fəxr edirəm ki, Ulu öndərin ən layiqli davamçısı, Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandanımız İlham Əliyevin iradəsi, şəhidlərimizin canı, qanı, qazilərimizin sağlamlığı bahasına torpaqlarımız erməni işğalından azad edilib, ölkəmizin suverenliyi tam təmin olunub və yurdlarından didərgin düşmüş soydaşlarımız öz ata-baba ocaqlarına qayıdırlar.

Bəli, biz bu Qələbəni 30 ildən artıq müddət ərzində səbirsizliklə gözləmişdik. Bu gün qalib xalqımız hədsiz sevinir, şadyanalıq edir. Elə Azərbaycan sevdalısı olmuş professor Vladimir Zapletinin də ruhu şaddır.

**Ramiz QULİYEV,**
**kənd təsərrüfatı elmləri doktoru, professor**

# TAP Azərbaycanı Avropanın enerji bazarına qovuşdurur

## 3 il əvvəl işə salınmış kəmər 9 ölkəyə qaz ixrac edir

**Avropanın enerji xəritəsinin zənginləşdirilməsinə mühüm töhfələr verən Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) istismara verilməsindən 3 il ötür. Xəzər regionu ilə Avropa qitəsi arasında vacib enerji körpüsü rolunu oynayan Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP kəməri ötən müddətdə Azərbaycanın Avropa İttifaqının mötəbər enerji tərəfdaşına çevirib.**

TAP layihəsinin 10 il əvvəl həyata vəsiqə alması isə heç də təsadüfi deyildi. Çünki həmin dövrdə ölkəmiz potensial qaz tədarükçüsü kimi Avropanın diqqətini getdikcə daha çox cəlb edirdi. Eyni zamanda, regionda siyasi sabitlik və əməkdaşlıq meydanına çevrilmiş Azərbaycan Respublikası enerji sahəsində Qərbin fəal əməkdaşlıq edə biləcəyi bir ölkə kimi də yüksək inam və etimad qazanmışdı. Həmin inamın nəticəsi idi ki, Qərb tərəddüd etmədən üzünü qaz ehtiyatları ilə zəngin, mühüm tədarükçü rolunda gördüyü Azərbaycana tərəf çevirdi. Elə 2013-cü ildə Trans-Adriatik boru kəmərinin əsas ixrac marşrutu kimi seçilməsi də məhz bunun nəticəsi idi. Beləliklə də, XXI əsrdə Avropanın enerji xəritəsini zənginləşdirəcək yeni bir qaz dəhlizinin formalaşdırılmasına əsaslı zəmin yarandı.




Xatırladaq ki, Trans-Adriatik Qaz Boru Kəmərinin tikintisi 2020-ci ilin oktyabrında başa çatıb. Kəmərin ümumi uzunluğu 878 kilometr təşkil edir ki, bunun da 550 kilometri Yunanıstanın şimal hissəsindən, 215 kilometri Albaniya ərazisindən, 105 kilometri Adriatik dənizinin dibi ilə, 8 kilometri isə İtaliya ərazisindən keçir.

Azərbaycan qazının TAP kəməri vasitəsilə Avropaya nəqlinə isə həmin il dekabrın 31-də başlanılıb. Bununla da, ölkəmiz tarixdə ilk dəfə öz təbii qazını boru kəmərləri ilə Avropa bazarına çıxarmağa nail olub. Eyni zamanda, dünyada təbii qazın ən iri idxalçısı olan Avropa bazarına birbaşa çıxışla Azərbaycan, həm də öz ixrac imkanlarını şaxələndirmək imkanı əldə edib. Elə Cənub Qaz Dəhlizinin Avropa seqmenti olan TAP vasitəsilə hər il İtaliyaya 8 milyard kubmetr, Yunanıstan və Bolqarıstanın hər birinə isə 1 milyard kubmetr həcmində qaz nəql olunması da məhz ixrac infrastrukturunun şaxələndirilməsinin nəticəsidir. Yeri gəlmişkən, bu ilin 4-cü rübündə Azərbaycanın "Şahdəniz" yatağının ikinci işlənmə layihəsi çərçivəsində çıxarılan təbii qazın ən böyük Avropa alıcısı olan İtaliyaya Trans-Adriatik boru kəməri ilə 2,5 milyard kubmetr "mavi yanacaq" nəql olunub. Kommersiya istismarı başladıqdan ötən müddətdə TAP vasitəsilə bu ölkəyə nəql olunan qazın ümumi həcmi 25,9 milyard kubmetrə çatıb. Bütövlükdə isə, ötən 3 il ərzində TAP vasitəsilə Azərbaycandan Avropa bazarına 31 milyard kubmetrdən çox qaz ixrac olunub. Bütövlükdə isə, hazırda Azərbaycan 9 ölkəyə "mavi yanacaq" ixrac edir ki, bunun da 7-si Avropa ölkəsidir.

Bu ilin yekununda ölkəmizdən Avropaya nəql olunan qazın 12 milyard kubmetrə çatacağı gözlənilir. Avropa ölkələrinin "mavi yanacağ"a olan tələbatının getdikcə artdığı indiki şəraitdə isə bu, son hədd sayıla bilməz. Təkcə onu qeyd etmək kifayətdir ki, qarşıdakı illərdə Azərbaycan Avropanın 10-dək ölkəsinə qaz ixrac etməyi planlaşdırır. Buna isə TAP-ın mövcud nəqletmə gücünün iki dəfəyədək artırılması, eləcə də Avropa ölkələrinin qaz şəbəkələrini sözügedən kəmərlə əlaqələndirən interkonnektorların inşası ilə nail olmaq mümkündür. Məlum olduğu kimi, illik ötürücülük qabiliyyəti 10 milyard kubmetr təşkil edən TAP-ın yeni borular çəkməyə ehtiyac olmadan mərhələli şəkildə 20 milyard kubmetrədək artırılması nəzərdə tutulur. Hazırda isə TAP konsorsiumu tərəfindən kəmərin genişləndirmənin birinci mərhələsi üzrə işlər davam etdirilir.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

### Ekspert rəyi



***İlham ŞABAN,***
***Neft Araşdırmaları Mərkəzinin rəhbəri***

Trans-Adriatik Boru Kəməri (TAP) Azərbaycan qazının böyük bazarlara çıxarılmasını təmin edən infrastrukturdur. TAP-ın ərsəyə gəlməsində ölkəmizin çox böyük rolu olub. Məlum olduğu kimi, 2013-cü ildə boru kəmərinin tikintisi ilə bağlı imzalanmış müqavilənin iştirakçıları olan təsisçi şirkətlərin 60 faizi məhz Azərbaycandakı hasilatçılar idi. Bunlar, əsasən, hər biri 20 faiz iştirak payına malik SOCAR, BP və Statoyl şirkətləri idi. Yəni, TAP-ın ərsəyə gəlməsinə sərf olunan əziyyətin, çəkilən xərcin yarıdan çoxu Azərbaycan və tərəfdaşlarının payına düşür.

Bir məqamı da qeyd edim ki, Avropa 2018-ci ilin dördüncü rübündə TAP vasitəsilə bizdən qaz qəbul etməli idi. Amma onlar üçün, bir növ, yaxşı dövr olduğu üçün buna tələsmədilər. Nəhayət, 2 il sonra, 2020-ci ilin dekabrın sonuncu günü bu qazı almağa başladılar. Həmin gün kəmərlə 10,7 milyon kubmetr Azərbaycan qazının Avropaya ixracı qeydə alındı. 2021-ci ildə artıq bu həcmlər 8 milyard 150 milyon kubmetrə qədər yüksəldi. Ötən il qaz ixracının 11,4 milyard kubmetr təşkil etdiyi halda, cari ildə bu rəqəmin 12 milyard kubmetr olacağı gözlənilir.

Yeri gəlmişkən, Azərbaycan öz qazını Avropa bazarlarına çıxarmaqla nəinki "Şahdəniz"in zəngin ehtiyatlarının işlənməyə cəlb edilməsinə, həmçinin sonradan digər yataqlardan hasil ediləcək qazın da böyük bazarlarda satılması üçün fürsət qazandı. Burada söhbət "Abşeron" yatağının ikinci işlənmə mərhələsindən gedir. Çünki həmin qaz həcmləri Cənub Qaz Dəhlizinin, o cümlədən də TAP-ın genişləndirilməsi üçün əsas resurs rolunu oynayacaq. Göründüyü kimi, TAP Azərbaycanı böyük meqa bazarlarla bağlayan ilk layihə oldu. Müqayisə üçün deyim ki, əgər Bakı – Tbilisi – Ceyhan kəməri region ölkələri içərisində, yəni qonşu ölkələrin bazarında bitən və oradan digər bazarlara çatdırıla biləcək bir layihə idisə, Cənub Qaz Dəhlizi birbaşa olaraq Azərbaycanda hasil edilən enerjidaşıyıcısının Avropa istehlakçılarına çatdırılmasını həyata keçirən layihə oldu. Nəticə etibarilə Azərbaycanın həm təsir dairəsi, həm xarici ticarət əlaqələri, həm də ölkəmizlə münasibətlər yeni müstəviyə keçdi. Digər tərəfdən, 2022-ci ilin fevralında Rusiya – Ukrayna müharibəsi başlayandan sonra 50 il ənənəvi logistik-nəqliyyat və enerji bazarında pozulmalar, dayanmalar, qeyri-sabitliyə keçilməsi səbəbindən Azərbaycan qazı Balkan və Cənubi Avropa ölkələrinin enerji təhlükəsizliyinin təminatında mühüm rol oynamağa başladı.

Bütün bunlar bir daha onu göstərir ki, Azərbaycan vaxtında bu layihəyə maliyyə sərf etməklə, onu dəstəkləməklə, özü də beynəlxalq tender vasitəsilə öz seçimini etməklə nə qədər doğru, düzgün addım atıb. Nəticə etibarilə biz həm özümüzün iri yataqlarını işləməyə, həm də Avropa ilə Azərbaycan, Xəzər arasında bir körpü yaratmağa imkan əldə etdik . Eyni zamanda, qaz gəlirlərimizi artırmağa nail olduq. Bir müddət sonra isə iri qaz həcmlərinin böyük bazarlarda satılması nəticəsində bu enerjidaşıyıcısından əldə edəcəyimiz vəsaitlər neftdən qazandığımız gəlirləri üstələyəcək. Bu hədəfə nail olmağımızda isə TAP-ın rolu şəksizdir.

## Orta Dəhlizdən keçid 4–5 gün qısalacaq

**Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) üzrə tranzit müddətinin 2024-cü ildə 18–23 gündən 14–18 günə, o cümlədən Qazaxıstan ərazisində 6 gündən 5 günə endirilməsi planlaşdırılır.**




Qazaxıstan mətbuatında bununla bağlı yayılan məlumatda, həmçinin qeyd edilir ki, bu marşrut üzrə daha əvvəl malların çatdırılma müddəti 38-53 gün arasında dəyişirdi.

2023-cü ilin 9 ayı ərzində Orta Dəhliz çərçivəsində yükdaşımaların həcmi 88 faiz artaraq 2 milyon tona çatıb. 2022-ci ilin analoji dövründə bu rəqəm 1,1 milyon ton olub. 2022-ci ildə marşrut üzrə yükdaşımaların həcmi isə 2,5 dəfə artaraq 1,5 milyon tona çatıb.

Qeyd olunur ki, dəhliz mövcud marşrutlara ciddi alternativə çevrilib. Onun ümumi ötürücülük qabiliyyəti ildə 5,8 milyon ton yük təşkil edir.

Xatırladaq ki, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu Çin, Qazaxıstan, Xəzər dənizi, Azərbaycan, Gürcüstan ərazisindən keçərək Türkiyə və Avropa ölkələrinə keçir.

## Bu il Bakı Limanında yükaşırma 15 faiz çoxalıb

**"Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC-dən bildirildiyinə görə, bu ilin yanvar-noyabr aylarında limandan 6 milyon 735 min tondan çox yük aşırılıb. Bu, 2022-ci ilin eyni dövrü ilə müqayisədə 15 faizdən çox artım deməkdir.**



Məlumata əsasən, 2023-cü il üzrə aşırılan yükün ümumi həcmi rekord həddə – 7 milyon tondan çox olacağı gözlənilir. Bu il ərzində Bakı Limanında, xüsusi ilə təkərli texnika, neft və neft məhsullarının aşırılmasında artım qeydə alınıb.

Xatırladaq ki, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı 1902-ci ildən fəaliyyət göstərən Bakı Limanının bazasında 2015-ci ildə yaradılıb. Onun nizamnamə kapitalı 16 min manat təşkil edir. Liman yük, neft və bərə terminallarından ibarətdir.

Prezident İlham Əliyevin iştirakı ilə 2018-ci il mayın 14-də açılışı olmuş yeni Bakı Limanının 1-ci fazada yükaşırma potensialı 15 milyon ton, o cümlədən 100 min TEU konteyner təşkil edir. İkinci fazanın yekunlaşdırılmasından sonra isə limandan ildə 25 milyon tona qədər yük aşırılacaq, 500 min TEU konteyner keçə biləcək.

## "Qubadlı" gəmisi dənizə qayıtdı

**"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə (ASCO) məxsus "Qubadlı" təchizat gəmisinin əsaslı təmiri başa çatıb.**

ASCO-nun verdiyi məlumata görə, gəminin təmiri "Bibiheybət" Gəmi Təmiri Zavodunda həyata keçirilib.

Təmir işləri başa çatdıqdan sonra mexanizm və elektrik avadanlıqlarının hərəkətdə yoxlanılması məqsədilə gəmi dəniz sınağına çıxarılıb. Uğurla yekunlaşan sınaq işlərindən sonra "Qubadlı" yenidən istismara qaytarılıb.



## 2024-cü ildə ÜDM 2,4 faiz artacaq

**Bununla ölkədə yeni yaradılan dəyər 118,4 milyard manat olacaq**




Maliyyə Nazirliyinin "Vətəndaşın büdcə bələdçisi"ndə bildirildiyinə əsasən, gələn il ölkəmizin ümumi daxili məhsulun (ÜDM) real artım tempi 2,4 faiz təşkil edərək 118,4 milyard manata çatacağı gözlənilir.

Məlumata görə, qeyri-neft-qaz sektoru üzrə ÜDM 4,6 faiz artaraq 84,2 milyard manata yüksələcəyi proqnozlaşdırılır.

***XQ***

# Türk dövlətləri yüksəliş yolunda

## Qardaş ölkələr ili uğurla başa vurur

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (İİTKM) "Türk iqtisadi icmalı"nın yeni üçüncü sayında ötən ilin eyni dövrü ilə müqayisədə 2023-cü ilin yanvar–sentyabr aylarında Türkiyə iqtisadiyyatının 5,9 faiz, Azərbaycan iqtisadiyyatının 0,8 faiz, Özbəkistan iqtisadiyyatının 5,8 faiz, Qırğızıstan iqtisadiyyatının 4,2 faiz, Qazaxıstan iqtisadiyyatının isə 4,7 faiz böyüdüyü bildirilib. Bundan başqa icmalda adıçəkilən ölkələrin 2023-cü ilin 9 ayı üzrə əsas makroiqtisadi göstəriciləri müqayisəli şəkildə verilib. Belə ki, dövlət büdcəsinin artımı baxımından ən yaxşı göstərici 74,2 faizlə Türkiyədə qeydə alınıb. Türkiyənin dövlət büdcəsinin gəlirləri 125 milyard 631 milyon dollar olub.**

Xarici ticarətdə ən yüksək saldoya Azərbaycan (ticarət balansı 8 milyard 363 milyon dollar) və Qazaxıstan (ticarət balansı 13 milyard 23 milyon dollar) malikdir. Cari ilin 9 ayı ərzində Macarıstan istisna olmaqla, Türk Dövlətləri Təşkilatına (TDT) daxil olan bütün ölkələrdə əsas kapitala yönəldilən vəsaitlərdə artım müşahidə olunub.

Qeyd edək ki, TDT qlobal kənd təsərrüfatı torpaq ehtiyatlarında 6,1 faiz, o cümlədən əkin sahələrində 3,9 faiz, kənd təsərrüfatı məhsullarının qlobal istehsalında 2,2 faiz, kənd təsərrüfatı və emal məhsullarının ixracında isə 2 faiz paya malikdir. Qurum iştirakçı dövlətlər arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması və qarşılıqlı maraq doğuran layihələri reallaşdırmaq imkanlarını daim diqqətdə saxlayır.

Şübhəsiz ki, Azərbaycan da bu məsələyə hər zaman həssaslıqla yanaşır, türk dövlətlərinin vahid rəqəmsal "aqro-data" platformasının yaradılması, TDT brendi altında birgə kənd təsərrüfatı və qida məhsullarının istehsalı ilə bağlı təklifləri təşkilata üzv ölkələrə təqdim edir və bu istiqamətdə layihələrin reallaşdırılmasına ciddi töhfələr verir. TDT-nin Kənd Təsərrüfatı Nazirlərinin II Toplantısının Yekun Bəyannaməsində isə qarşıya qoyulan vəzifələr sadalanır, qida məhsulları üzrə ticarət dövriyyəsinin artırılması, aqrar sahədə müasir texnologiyaların transferi, ən yaxşı təcrübələrin qarşılıqlı mübadiləsi kimi məsələlərin həlli zəruriliyi vurğulanır.

Yeri gəlmişkən, TDT-yə üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin daha da genişləndirilməsi üçün son illər ərzində bir sıra layihələr reallaşdırılıb. Məsələn, Milli Məclisin 4 aprel 2023-cü il tarixli iclasında "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" 2022-ci il noyabrın 11-də Səmərqənd şəhərində imzalanan saziş təsdiqlənib. Bununla da TDT hökumətlərinin gömrük orqanları arasında malların və nəqliyyat vasitələrinin hərəkəti ilə bağlı məlumat mübadiləsi asanlaşıb. Başqa sözlə, belə bir layihənin icrası nəticəsində təşkilata üzv hökumətlər arasında daşınan mallar və nəqliyyat vasitələri haqqında məlumatların elektron şəkildə mübadiləsi gerçəkləşib, nəticədə sürətli yük daşımaları, o cümlədən yük daşımaların həcmində nəzərəçarpacaq dərəcədə artıma nail olunması reallaşıb.

Burada bir məqama xüsusi diqqət yetirmək istərdik. Bu, TDT-yə üzv ölkələrin müasir nəqliyyat-logistika infrastrukturunun inkişafına mühüm önəm verməleri ilə bağlıdır. Belə bir amilin əhəmiyyətini dəyərləndirməyin nəticəsidir ki, hazırda Orta Dəhlizlə yükdaşımaların həcmi getdikcə artır. 2023-cü ilin yanvar–avqust aylarında bu dəhliz üzrə yükdaşımaların dinamikası 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 85,3 faiz artaraq 1,7 milyon tondan çox olub. Şübhəsiz ki, bu artım Azərbaycanın da həmin ölkələrlə iqtisadi əlaqələrinə öz müsbət təsirini göstərib. Belə ki, 2022-ci ildə Azərbaycanla TDT-yə üzv ölkələr arasında ticarət dövriyyəsi əvvəlki illərlə müqayisədə 70 faiz artaraq 7 milyard 170 milyon dollar təşkil edib. Cari ilin yanvar–iyul aylarında isə Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsi 5 milyard 666 milyon dollar təşkil edib. Bu göstərici 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə 41,9 faiz çoxdur.




Qeyd edək ki, TDT işğaldan azad olunan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa-yenidənqurma layihələrinə də mühüm önəm verir. Özbəkistan tərəfindən Füzulidə Mirzə Uluqbəy adına 1 nömrəli tam orta məktəbin, Qazaxıstanın Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin, Türkiyənin Cəbrayılda Azərbaycan–Türkiyə Beynəlxalq Meşə Təlim Mərkəzinin və Zəngilanda birinci mərhələsi açılan "Dost Aqropark" ağıllı kənd təsərrüfatı kompleksinin tikintisi bunun bariz ifadəsidir.

Azərbaycanın əməkdaşlıq etdiyi TDT-yə üzv dövlətlər sırasında Türkiyə xüsusi yer tutur. Ölkələrimiz arasında imzalanan sənədlər, o cümlədən investisiyaların təşviqi və qarşılıqlı qorunması, həmçinin ikiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlər ikitərəfli hüquqi bazanı getdikcə möhkəmləndirir, tərəflər arasında yüzlərlə işgüzar tədbir, biznes forumlar, ixrac missiyaları, işgüzar görüşlər və sərgilər biznes dialoqun genişlənməsini, birgə layihələrin icrasını stimullaşdırır.

Azərbaycan–Türkiyə qardaşlığı iqtisadi tərəfdaşlığın inkişafında xüsusi əhəmiyyət kəsb edir. Türkiyə ölkəmizin 2-ci əsas ticarət tərəfdaşıdır. 2023-cü ilin 11 ayında ticarət dövriyyəsinin, təxminən, 7,2 milyard dollar təşkil etməsi, bu göstəricinin ötən ilin analoji dövrü ilə müqayisədə 33 faiz artması da bunun, bariz ifadəsidir. Ticarət əməkdaşlığında müşahidə olunan müsbət dinamika dövlət başçıları tərəfindən qarşıya qoyulan vəzifələrin sürətlə yerinə yetiriləcəyinə dərin inam yaradır.

Azərbaycan xarici ölkələrdə ən çox investisiyanı Türkiyəyə yatırıb. Həmçinin respublikamızda qeyri-neft-qaz sektoruna investisiya qoyan ölkələr sırasında Türkiyə 1-ci yerdə qərarlaşıb. Qarşılıqlı sərmayələrin yatırımı və sahibkarlığa dəstək sahəsində imkanların artırılması iqtisadi tərəfdaşlığı daim təşviq edib.

TDT ölkələri arasında ticarət dövriyyəsinin böyüməsi birbaşa türk dövlətləri arasındakı münasibətlərin son 2 ildə dərinləşməsi ilə bağlıdır. Azərbaycanın Vətən müharibəsində əldə etdiyi tarixi zəfərdən sonra türk dövlətləri strateji əməkdaşlığı daha da gücləndiriblər. Azərbaycanın türk dövlətləri ilə ticarət dövriyyəsinin yaxın illərdə 15 milyard dollaradək yüksəlməsi proqnozlaşdırılır.

***Vaqif BAYRAMOV***
***XQ***

# Həmyerlilərinin Ulu öndərə ehtiramı

**Dünən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və digər rəsmi şəxslər Naxçıvan Dövlət Milli Dram Teatrında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş sərgi və filmə baxıblar.**



Məlumat verilib ki, sərgidə Naxçıvan rəssamlarının Ulu öndərə həsr etdiyi portret, rəsm və əl işləri, dahi rəhbərin mənalı ömür yoluna həsr olunmuş nəşrlər, o cümlədən digər vəsaitlər nümayiş etdirilir. Naxçıvan televiziyasının "Heydər Əliyev İli"nə həsr etdiyi "100-cü ilə 10 film" layihəsi çərçivəsində hazırladığı filmlər, veb və audio materiallar sərgidə öz yerini alıb. Ümummilli liderin siyasi fəaliyyətinin Naxçıvan dövrü, həmin çətin illərdə dahi rəhbərin "Şərq qapısı" qəzetinə verdiyi müsahibələr, ölməz rəhbərin zəngin irsindən bəhs edən qəzet məqalələri sərgi iştirakçılarına təqdim olunub.




Sonra tədbir iştirakçıları Heydər Əliyev Fondu tərəfindən Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə hazırlanmış "İz" sənədli filmini izləyiblər.

# İlin təhsil yekunları

**Naxçıvan şəhərindəki "Duzdağ" otelində Ümummilli lider Heydər Əliyevin 100 illiyi və 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününə həsr olunmuş toplantıda 2023-cü ilin təhsil yekunlarına dair mükafatlandırma keçirilib.**

Toplantı iştirakçılarını Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli başa çatan ilin ölkəmiz üçün uğurlu və əlamətdar olduğunu vurğulayıb. 2023-cü ildə Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və qüdrətli ordumuzun şücaəti sayəsində dövlət bayrağımız Azərbaycanın bütün bölgələrində dalğalanır. Bu il anadan olmasının 100-cü ildönümünü böyük uğurlarla və fəxarətlə qeyd etdiyimiz Ümummilli lider Heydər Əliyevin əksər arzuları gerçəyə çevrilib.

Bildirilib ki, Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" muxtar respublikada icra olunur. 11 prioritet sahəni əhatə edən dövlət proqramının ən önəmli hədəflərindən biri də təhsilin hərtərəfli inkişafına nail olmaqdır. Dövlət proqramından irəli gələn tədbirlərin icrasının və keçirilən islahatların muxtar respublika təhsilini daha böyük inkişafa aparacağına əminliyini bildirən Fuad Nəcəfli bu sahədə əməyi olan hər kəsə təşəkkür edib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini, nazir vəzifələrini müvəqqəti icra edən Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev təhsil sahəsinin inkişafının, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılmasının, cəmiyyətdə müəllimin nüfuzunun daha da artırılmasının daim dövlət siyasətinin mühüm istiqamətlərindən biri olduğunu bildiriblər, birgə keçirilən tədbirlər barədə məlumat veriblər.

Sonra mükafatlandırma mərasimi olub. Səlahiyyətli nümayəndə Fuad Nəcəfli ümumtəhsil müəssisələrində pedaqoji fəaliyyət göstərən şəhid valideynlərinə mükafatları təqdim edib. 2023-cü ildə uğurlar əldə etmiş şagirdlər də unudulmayıb. Təhsildə, beynəlxalq və ölkədaxili olimpiada, müsabiqə və yarışlarda uğur qazanmış, müxtəlif idman yarışlarının qalibi olmuş şagirdlərə mükafatlar təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

# Ordubadda sakinlərlə görüş

**Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Ordubad rayonunda olub, sakinlərlə görüşüb.**



Sonra vətəndaşları qəbul edən səlahiyyətli nümayəndə ötən dövrdə də sakinlərlə görüşlərin keçirildiyini, bu cür görüşlərin nöqsan və çatışmazlıqların müəyyənləşdirilməsi və həllində mühüm rol oynadığını bildirib.Vurğulayıb ki, il ərzində rayonun bir sıra yaşayış məntəqələrində su təminatı yaxşılaşdırılıb, yollar yenidən qurulub, körpülər tikilib və digər tədbirlər görülüb. Fuad Nəcəfli qeyd edib ki, gələn ildən Ordubadda da mühüm infrastruktur layihələri reallaşdırılacaq.

Bildirilib ki, Azərbaycanın turizm incisi olan Ordubad şəhərində yeni otel kompleksi tikiləcək, şəhərin Anbaras və Sərşəhər məhəllələri şəhərin yeni baş planına uyğun yenidən qurulacaq, Ordubad abidələri və tarixi yerlər elmi əsaslarla, orijinal quruluşu saxlanılmaqla bərpa olunacaq, şəhərdə inşa olunacaq. Şəhidlər Memorial Abidə Kompleksində Ordubadın qəhrəman oğullarının xatirələri əbədiləşdiriləcək. Bundan başqa Ordubad şəhərində yeni uşaq bağçası, yeni istehsal müəssisələri, Kələntər Dizə kəndində müasir məktəb binası inşa olunacaq, qəsəbə və kəndlərdə infrastrukturlar yenilənəcək, yollar və körpülər inşa ediləcək. Bütün bunlar əhalinin rifah halını yüksəldəcək.

Fuad Nəcəfli belə görüşlərdə fəal iştirak etməklə mövcud problemlərin gündəmə gətirilməsinə və həllinə dəstək göstərdiklərinə görə Ordubad rayon ictimaiyyətinə təşəkkür edib, hər kəsi gələn il səsvermə hüququndan istifadə etməyə səsləyib.

Sonra görüşdə iştirak edən rayon sakinlərinin hər biri ilə fərdi söhbət aparılıb, onların problemləri və təklifləri dinlənilib. Müraciətlərin hər biri protokollaşdırılaraq həlli istiqamətində qanunvericiliyin tələblərinə uyğun tədbirlərin görüləcəyi bildirilib.

# Hospitala sovqat aparılıb



**Bayram ərəfəsində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında da olub və burada müalicə alan hərbi qulluqçularla görüşüb.**

Hospitalın poliklinika, cərrahiyyə, əməliyyat və yoluxucu xəstəliklər bölmələrində olan səlahiyyətli nümayəndəyə hərbi tibb müəssisəsinin fəaliyyət imkanları barədə məlumat verilib. Qeyd edilib ki, muxtar respublikada ən böyük tibb müəssisələrindən biri olan mərkəzi hospitalın bütün bölmələri, o cümlədən əməliyyat otaqları ən müasir avadanlıqlarla təchiz olunub, peşəkar tibbi personalla komplektləşdirilib. Burada laporaskopik cihaz vasitəsilə qapalı əməliyyatların aparılması da mümkündür. İnfeksion xəstəliklərin müalicəsi hospitalın modul tipli yoluxucu xəstəliklər bölməsində həyata keçirilir.

Fuad Nəcəfli hərbi qulluqçuların səhhəti ilə maraqlanıb, onları Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə təbrik edərək hər birinə hədiyyələr təqdim edib.

Tibb xidməti polkovniki Ramil Cəfərli göstərilən diqqət və qayğıya görə minnətdarlığını bildirib.

Naxçıvan Qarnizonu Mərkəzi Hospitalında müalicə alan hərbi qulluqçular, eləcə də tibb işçilərinə bayram hədiyyələri verilib, gətirilmiş ərzaq məhsulları hospitala təqdim olunub.

# Qədim diyardan başlanan milli həmrəylik

**AMEA-nın Naxçıvan Bölməsində "Dünya Azərbaycanlılarının Həmrəylik və Birlik Günü" mövzusunda elmi konfrans keçirilib.**

Bölmənin sədri, akademik İsmayıl Hacıyev bildirib ki, Ulu öndər Heydər Əliyev 1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri olarkən dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü elan etmiş, həmin tarixi qərar milli həmrəyliyimizə xidmət edən mühüm addım olmuşdur. Alim dünya azərbaycanlılarının təşkilatlanması ilə bağlı dövlətimiz tərəfindən görülən işlərdən, milli həmrəyliyimizin bugünkü vəziyyətindən danışıb.

Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Zeynəb Quliyeva "Həmrəyliyə gedən yolun tarixi xronikası", İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımov isə "Dünya azərbaycanlılarının həmrəyliyindən bəşəri həmrəyliyə" mövzusunda məruzə ediblər.

Məruzələrdə milli birlik və həmrəyliyimizin vacibliyi əhatəli şərh olunub, bu birliyin milli düşüncənin formalaşmasındakı rolundan söz açılıb. Sonda akademik İsmayıl Hacıyev bölmənin kollektivini qarşıdan gələn bayramlar münasibətilə təbrik edərək xoş arzularını çatdırıb və konfransa yekun vurub.

# Ali Məclisin sonuncu iclası



**Ali Məclis sədrinin müavini Anar İbrahimovun sədrliyi ilə altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il payız sessiyasının doqquzuncu – sonuncu iclası keçirilib.**

İclasda Ali Məclis Aparatının rəhbəri Ülvi Hüseynli çıxış edərək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin illik fəaliyyəti ilə bağlı məlumat verib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin müavini Anar İbrahimov bildirib ki, Ali Məclis həm qanunvericilik sahəsində, həm də vətəndaş müraciətlərinə baxılması işində il ərzində səmərəli fəaliyyət göstərib. Ali Məclisə daxil olan müraciətlərin çoxu əmək, mülkiyyət hüquqlarının pozulması, su təminatı ilə bağlı məsələlər olub.

Cari məsələlərin müzakirəsi zamanı deputatlardan Turan Məmmədli, Hacıfəxrəddin Səfərli, Yazgül Rzayeva, Əmir Babayev təmsil etdikləri seçki dairələri üzrə bir sıra məsələləri diqqətə çatdırıblar.

Deputatlardan Aidə Cəlilzadə, Nüsrət Həsənov, İsmayıl Qəribli və Yeganə Məmmədova da çıxış edərək seçicilərinin qaldırdığı məsələləri qeyd edib, 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbriklərini çatdırıblar.

# NDU Simfonik orkestri Bakı Filarmoniyasında



**Naxçıvan Dövlət Universitetinin Simfonik orkestri ilk dəfə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən konsert proqramı ilə çıxış edib.**

Universitetin rektoru Elbrus İsayev qonaqları salamlayaraq, onları Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən konsertdə görməkdən məmnunluğunu ifadə edib. Ümummilli lider Heydər Əliyevin birbaşa dəstəyi ilə yaradılan Naxçıvan Dövlət Universiteti Konservatoriyasının bu gün görkəmli dövlət xadiminə həsr edilən konsert proqramı ilə çıxış etməsini rektor Naxçıvan Dövlət Universitetinin Ulu öndərin ruhu qarşısında hesabatı kimi dəyərləndirib. Bildirilib ki, NDU-nun Konservatoriyası və Musiqi Kollecinin yaratdığı 150 nəfərə yaxın tərkibi ilə Simfonik orkestr Azərbaycan ali məktəbləri arasında yaradılan ilk musiqi kollektividir.

Sonra bədii rəhbəri və dirijoru Naxçıvan Dövlət Universitetinin professoru, Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundov olan Simfonik orkestr bir-birindən möhtəşəm musiqi nömrələri ilə tamaşaçıların zövqünü oxşayıb. Naxçıvan Dövlət Universitetinin müəllim və tələbələrinin ifasında Müslüm Maqomayevin "Azərbaycan", Vasif Allahverdiyevin "Azərbaycan torpağıyam", Cahangir Cahangirovun "Alagöz", Bəhram Nəsibovun "Qarabağ", Kamalın "Sən elə bir zirvəsən", Ramiz Mirişlinin "Naxçıvan təranəsi", Eldar Mansurovun "İlhamla sabaha" əsərləri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Qeyd edək ki, konsertdə millət vəkilləri, rəsmilər, AMEA-nın əməkdaşları, rektorlar, mədəniyyət, incəsənət, ictimaiyyət nümayəndələri və digər qonaqlar iştirak ediblər.

# Gənclərin bayram şənliyi



**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Gənclər Fondunun təşkilatçılığı ilə "Heydər Əliyev İli" çərçivəsində ilin yekunları və 31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə tədbir keçirilib.**

Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri səlahiyyətlərini icra edən, nazir müavini Məcid Seyidov bildirib ki, 2023-cü il muxtar respublikanın gənclik və idman mühiti üçün dinamika, yeniliklər və uğurlar baxımından yaddaqalan oldu. Gənclər və İdman Nazirliyi aid təşkilatlarla birgə 2023-cü ildə 222-si gənclərlə iş, 144-ü idman sahəsində olmaqla, ümumilikdə, 366 tədbir keçirdi və 15 mindən çox uşaq, yeniyetmə, gənc bu tədbirlərdə iştirak etdi. Nazir müavini Naxçıvan idmançılarının nailiyyətləri barədə danışarkən qeyd edib ki, 2023-cü ilin ötən dövrü ərzində ölkə miqyaslı yarışlarda 153, beynəlxalq turnirlərdə 62, Avropa çempionatlarında 6, dünya çempionatlarında 4 olmaqla, ümumilikdə, 225 medal qazanılıb. Medallardan 67-si qızıl, 67-si gümüş, 91-i isə bürüncdür. Bir idmançımız Avropa çempionu, biri isə dünya çempionu olmağı bacarıb.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru, millət vəkili Cəbi Quliyev 2023-cü ildə muxtar respublikada gənclər siyasəti ilə bağlı həyata keçirilən tədbirlərdən danışıb.

Sonra Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblının konsert proqramı təqdim edilib. Tədbir çərçivəsində mükafatlandırma mərasimi keçirilib.

# İnternat məktəbdə Yeni il yolkası

**31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Ordubad şəhər internat tam orta məktəbində şənlik keçirilib.**

Mərasimdə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, nümayəndəliyin media məsələləri üzrə məsul şəxsi Günay Malikqızı, Naxçıvan Muxtar Respublikası təhsil nazirinin səlahiyyətlərini müvəqqəti icra edən, nazir müavini Elxan Nəcəfov, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev və Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli iştirak ediblər.

***Səhifənin materiallarını hazırladılar:***
***T.RÜSTƏMLİ,***
***S.HƏSƏNOV***
***XQ***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 504** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

**“Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı”nın təsdiq edilməsi haqqında**

“Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında” Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

“Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı” təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 505** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473, № 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; 2021, № 1, maddə 94, № 2, maddə 201, № 3, maddə 271, № 4, maddələr 392, 422, № 9, maddə 1053, № 10, maddə 1172, № 12, maddələr 1516, 1519, 1536, 1541; 2022, № 1, maddə 83, № 3, maddələr 266, 280, № 4, maddə 396, № 5, maddə 545, № 6, maddələr 669, 681, № 8, maddə 1011, № 9, maddə 1105, № 11, maddələr 1345, 1348, 1355, № 12, maddə 1562; 2023, № 2, maddələr 295, 303, № 4, maddə 587, № 5, maddə 710) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri”ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 0102 21 300 0, 0102 21 900 0, 0105 11 110 0, 0105 11 190 0, 0207 11 100 0, 0207 11 300 0, 0207 11 900 0, 0207 12 100 0, 0207 12 900 0, 0207 13 100 0, 0207 13 200 0, 0207 13 300 0, 0207 13 400 0, 0207 13 500 0, 0207 13 600 0, 0207 13 700 0, 0207 13 910 0, 0207 13 990 0, 0207 14 100 0, 0207 14 200 0, 0207 14 300 0, 0207 14 400 0, 0207 14 500 0, 0207 14 600 0, 0207 14 700 0, 0207 14 910 0, 0207 14 990 9, 0405 10 110 0, 0405 10 190 0, 0405 10 300 0, 0405 10 500 0, 0405 10 900 0, 0405 20 100 0, 0405 20 300 0, 0405 20 900 0, 0405 90 100 0, 0405 90 900 0, 0407 11 000 0, 0407 21 000 0, 0407 90 100 0, 0407 90 900 0, 0702 00 000 0, 0707 00 050 0, 0707 00 900 0, 0806 10 100 0, 0806 10 900 0, 0808 10 100 0, 0808 10 800 0, 0808 30 100 0, 0808 30 900 0, 2009 12 000 0, 2009 21 000 0, 2009 31 110 0, 2009 31 190 0, 2009 31 510 0, 2009 31 590 0, 2009 31 910 0, 2009 31 990 0, 2009 41 920 0, 2009 41 990 0, 2009 50 100 0, 2009 50 900 0, 2009 61 100 0, 2009 61 900 0, 2009 71 200 0, 2009 71 990 0, 2202 99 180 1, 2202 99 180 2, 2403 19 100 1, 2403 19 900 1, 4101 20 100 0, 4101 20 300 0, 4101 20 500 0, 4101 20 800 0, 4101 50 100 0, 4101 50 300 0, 4101 50 500 0, 4101 50 900 0, 4101 90 000 0, 4102 10 100 0, 4102 10 900 0, 4102 21 000 0, 4102 29 000 0, 4104 11 100 0, 4104 11 510 0, 4104 11 590 0, 4104 11 900 0, 4104 19 100 0, 4104 19 510 0, 4104 19 590 0, 4104 19 900 0, 4105 10 000 0, 6809 11 000 0, 6809 19 000 0 və 6904 10 000 0 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “31.12.2023-cü il” sözləri “31.12.2025-ci il” sözləri ilə əvəz edilsin.

2. 0703 10 190 0 və 0703 10 900 0 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “15 (01.05.2023-cü il tarixinədək 0%)” sözləri “15” rəqəmləri ilə əvəz edilsin.

3. 0802 21 000 0 və 0802 22 000 0 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “15 (31.12.2023-cü il tarixinədək 1 kq - 1,5 ABŞ dolları)” sözləri “15” rəqəmləri ilə əvəz edilsin.

4. 0810 70 000 0 alt yarımmövqeyinə aid sətrin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “15 (31.12.2023-cü il tarixinədək 1 kq - 0,3 ABŞ dolları)” sözləri “15” rəqəmləri ilə əvəz edilsin.

5. 1209 91 800 0, 2102 10 100 0, 2102 10 310 0, 2102 10 900 0, 2102 20 110 0, 2102 20 190 0, 2102 30 000 0, 2301 20 000 0, 2309 90 100 0, 2309 90 200 0, 2309 90 310 0, 2309 90 330 0, 2309 90 350 0, 2309 90 390 0, 2309 90 410 0, 2309 90 430 0, 2309 90 490 0, 2309 90 510 0, 2309 90 530 0, 2309 90 590 0, 2309 90 700 0, 2309 90 910 0 və 2309 90 960 0 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “31.12.2023-cü il” sözləri “31.12.2026-cı il” sözləri ilə əvəz edilsin.

6. 2508 10 000 0 alt yarımmövqeyinə aid sətrin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “5 (31.12.2023-cü il tarixinədək 1 kq – 0,03 ABŞ dolları)” sözləri “5” rəqəmi ilə əvəz edilsin.

7. 2520 10 000 0 alt yarımmövqeyinə aid sətrin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “15 (31.12.2023-cü il tarixinədək 1 kq – 0,07 ABŞ dolları)” sözləri “15” rəqəmləri ilə əvəz edilsin.

8. 2523 10 000 9, 2523 29 000 0, 2523 30 000 0 və 2523 90 000 0 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “31.12.2023-cü il” sözləri “31.12.2030-cu il” sözləri ilə əvəz edilsin.

9. 3206 49 700 0 alt yarımmövqeyinə aid sətrin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “15 (31.12.2030-cu il tarixinədək 0%)” sözləri “15” rəqəmləri ilə əvəz edilsin.

10. 6810 11 100 0, 6810 11 900 0 və 6810 19 000 0 alt yarım-mövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “15 (31.12.2023-cü il tarixinədək 1 kq 0,4 ABŞ dolları)” sözləri “15” rəqəmləri ilə əvəz edilsin.

11. 6907 21 100 0, 6907 21 900 0, 6907 22 100 0, 6907 22 900 0, 6907 23 100 0, 6907 23 900 0, 6907 30 100 0, 6907 30 900 0, 6907 40 100 0 və 6907 40 900 0 alt yarımmövqelərinə aid sətirlərin “Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)” sütununda “31.12.2023-cü il tarixinədək 15 faiz, lakin 1 m2-ə 2 ABŞ dollarından az olmamaqla” sözləri “31.12.2025-ci il tarixinədək 15 faiz, lakin 1 m2-ə 3 ABŞ dollarından az olmamaqla” sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 506** **Bakı şəhəri, 30 dekabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı ilə təsdiq edilmiş “İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı”nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1252) ilə təsdiq edilmiş “İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı”nın 3-cü hissəsinin 25-ci sətri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının***
***Baş naziri***

# Azərbaycan–İran: Yeni avtomobil körpüsü və modul tipli buraxılış məntəqəsi

**Dekabrın 30-da Azərbaycan–İran dövlət sərhədində Astaraçay üzərində avtomobil körpüsünün və modul tipli buraxılış məntəqəsinin açılış mərasimi keçirilib.**



Tədbirdə Baş nazirin müavini, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri, Komissiyanın İran tərəfdən həmsədri Mehrdad Bəzrpaş iştirak ediblər.

Qeyd edək ki, körpünün tikintisi 2022-ci ilin martın 1-də başlayıb. Yük nəqliyyat vasitələri üçün nəzərdə tutulan körpünün ümumi uzunluğu 97,5 metr təşkil edir. Körpüdə dörd hərəkət zolağı mövcuddur. Körpü üzərində hər birinin eni 2,5 metr olan iki piyada yolu da inşa edilib.

Modul tipli dövlət sərhədindən buraxılış məntəqəsinin tikinti-quraşdırma işləri cari ilin avqustun 28-də başlayıb və dekabrın 1-də yekunlaşdırılıb. Sahəsi 4500 kvadratmetr olan buraxılış məntəqəsində gömrük prosedurlarının səmərəli formada tətbiq olunması, sürətli keçidin təmin edilməsi məqsədilə müvafiq şərait yaradılıb.

Son texnoloji imkanlara malik yeni avadanlıqla təchiz olunan yeni məntəqədən idxal və ixrac istiqamətlərində sutkalıq 250-300 yük nəqliyyat vasitəsinin, ümumilikdə isə 500-600 yük nəqliyyat vasitəsinin qəbul edilməsi nəzərdə tutulub.

Şimal-Cənub Nəqliyyat Dəhlizinin mühüm komponentləri olan körpünün və buraxılış məntəqəsinin istifadəyə verilməsi dəhliz üzrə daşımaların həcminin artırılması baxımından böyük əhəmiyyət daşıyır. Qeyd edək ki, cari ildə dəhlizlə yük daşımaları 44,5 faiz artıb.

Eyni zamanda, cari ilin 11 ayında Azərbaycanla İran arasında ikitərəfli yük daşımalarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 46 faiz, o cümlədən tranzit daşımaları 2,1 dəfə çox olub. Yeni körpünün və buraxılış məntəqəsinin açılışı iki ölkə arasında yük daşımalarının həcminin daha da artırılmasına töhfə verəcək.

Dövlət sərhədində yol və gömrük-sərhəd infrastrukturunun yaradılması, eyni zamanda, nəqliyyat vasitələrinin Astara şəhərinə daxil olmadan yollarına davam etmələrinə şərait yaradacaq ki, bu da öz növbəsində şəhərdaxili nəqliyyat axınının səmərəliliyinin artırılmasına müsbət təsir edəcək.

Eyni zamanda, dövlət sərhədindən buraxılış məntəqəsinin ikinci fazada genişləndirilməsi məqsədilə müvafiq işlərə başlanılıb. Genişləndirilmə işlərindən sonra dövlət sərhədindən buraxılış məntəqəsi 7 gediş və 7 gəliş xətləri üzrə gündəlik olaraq 500 giriş və 500 çıxış olmaqla, ən azı 1000 yük nəqliyyat vasitəsini qəbul edə biləcək.

***XQ***

# Qlobal media 2023-cü ildə

## *Təhdidlər, problemlər yeni ilə keçir*

**2023-cü il xəbər istehsalçıları üçün ciddi risklərlə müşayiət olunub. Dünya ölkələrində öldürülən, xəsarət alan, təhdid olunan jurnalistlərin sayı yüksək kəmiyyətlə ifadə olunub. Beynəlxalq jurnalist təşkilatlarının hazırladıqları ilkin hesabatlardan məlum olur ki, il ərzində 94 nəfər KİV işçisi peşə fəaliyyətinə görə həyatını itirib. Bəzi hesabatlarda bu rəqəm 111 nəfər göstərilir.**

Qətlə yetirilən xəbər istehsalçılarının əksəriyyəti Qəzza bölgəsindəki müharibənin qurbanına çevrilib. Onların sayı dünya üzrə öldürülən jurnalistlərin 72 faizini təşkil edir. Beynəlxalq təşkilatlar oktyabrın 7-dən sonra Qəzza münaqişəsinin gedişində 69 jurnalistin öldürüldüyünü qeydə alıblar. Bunlardan 62 nəfəri Fələstin tərəfində, 4 nəfəri İsrail ərazisində, 3 nəfəri isə Livanda qeydə alınıb.



Hesabatlarda vurğulanır ki, Qəzza müharibəsi 1992-ci ildən sonra ən çox jurnalistin həyatını bitirən münaqişə kimi tarixə düşüb. Məlumat üçün qeyd edək ki, 2022-ci ilin fevralında başlayan Rusiya–Ukrayna müharibəsinin gedişində 38 nəfər jurnalistin ölümü rəsmiləşdirilib. Bu müharibənin gedişində jurnalist təhlükəsizliyini təmin etmək üçün görülən tədbirlər effekt verib. 2023-cü ildə Rusiya-Ukrayna müharibəsini izləyən jurnalistlərin qətli minimuma enib, 3 nəfər olub.

Bununla yanaşı, digər dünya dövlətlərində də jurnalist ölümlərinin kəmiyyəti narahatlıq doğurub. Xəbər istehsalçılarının peşə fəaliyyətinə görə həyatını itirdikləri ölkələr sırasında ABŞ-dan başlamış Suriyaya qədər ən müxtəlif dövlətlərin adları keçir.

2023-cü ildə təhdid alan, təqib edilən və ya həbsdə olan jurnalistlərin kəmiyyəti də yüksək rəqəmlərlə ifadə edilir. İl ərazində 393 nəfər xəbər istehsalçısı həbsdə olub. Bu kateqoriya üzrə qeydə alınan dövlətlərin də siyahısı da genişdir. Ən yüksək göstəricilər Çin / Honq-Konqda (80 nəfər jurnalist), Myanmarda (54 nəfər), Rusiyada (40 nəfər), Misirdə (23 nəfər), İranda ( 18 nəfər) qeydə alınıb. Avropa Şurasına üzv dövlətlər arasında bu kateqoriya üzrə ən yüksək göstərici Belarusa aiddir- 32 nəfər.

Amma peşəkar KİV-lərin üzlışdikləri problemlərin siyahısı təkcə ölüm faktları və təqiblərlə yekunlaşmır. Maliyyə-iqtisadi problemlər, reklam gəlirlərinin minimuma düşməsi, texnologiya nəhəngləri, xüsusilə, sosial şəbəkə platformaları ilə rəqabətin kəskinləşməsi və sair kimi amillər peşəkar KİV-lərin durumunu ağırlaşdıran məqamlar qismində qeydə alınıb.

Ənənəvi KİV-lərin durumunu ağırlaşdıran tendensiyaların bir qisminin Qərbdə–Avropada yaranıb yayıldığı üçün narahatlığı daha da artırıb. Qərbdə yaranan neqativ tendensiyalar həm “örnək xarakteri daşımasına”, həm də daha ciddi nəticələr doğurmasına görə diqqət çəkib. Bu sırada ifadə azadlığını məhdudlaşdıran qanunların qəbul edilməsi, ictimai yayım sektorunun imkanlarının daraldılması önə çəkilir. Polşada, Fransada bu istiqamətdə atılan addımlar qeyd edilən tendensiyaların mahiyyətini daha yaxşı izah edir. Motivi budur ki, Avropa ölkələrinin əksəriyyətində “təhlükəsizlik problemlərini” əsas götürərək, yeni qanunlar qəbul edilir. Həmin qanunlar bir sıra sahələr kimi, media azadlığını da məhdudlaşdırır. Qeyd edilən tendensiyanın bünövrəsi 2000-ci illərin əvvəllərinə gedib çıxır.

2001-ci ildə ABŞ-da baş vermiş terror aktlarından sonra Qərb ölkələrinin əksəriyyətində anti-terror qanunları qəbul edildi ki, həmin qanunlarda ifadə azadlığını məhdudlaşdıran müddəalar yer tutdu. Problem ondadır ki, qeyd edilən tendensiya bu gün də davam edir və daha sərt müddəalarla diqqət çəkir. Məsələn, Fransa “Qlobal təhlükəsizlik qanunu” təşəbbüsünü 2019-cu ildən sonra müzakirəyə çıxarıb və ciddi etirazlarla qarşılaşıb. Digər Avropa ölkələrində də neqativ tendensiya özünü büruzə verib. Hazırda qitə üzrə ciddi narahatlıq doğuran problemlərdən biri də ictimai-yayım sektorunun imkanlarının məhdudlaşdırılmasıdır. Sosial media ilə kəskin rəqabət mühitində olan ictimai yayım sektoru əlavə bir zərbəni də hökumətlərdən və qanunlardan alır. Polşada 2023-cü ildə yaşanan insident bu kontekstdə qabardılır.

Medianı təhdid edən problemlərin aradan qaldırılması üçün 2023-cü ildə çoxsaylı təkliflər hazırlanıb. Bir sıra proqramların gerçəkləşdirilməsinə nail olunub. Bu kontekstdə ən yadda qalan hadisə Avropa Media Azadlığı Aktının ( EMFA-European Media Freedom Act) qəbul edilməsidir. Avropa İttifaqı Şurası və Avropa Parlamenti tərəfindən hazırlanan bu Akt uzun müddətli müzakirələrdən sonra nəhayət 2023-cü ilin dekabr ayında qəbul olunub. Media azadlığını, media plüralizmini və redaksiya müstəqilliyini qorumaq üçün nəzərdə tutulmuş bu qanun ilkin mərhələdə Avropa Birliyinin 27 üzv dövlətində tətbiq ediləcək. Daha sonra isə Avropa Şurasına üzv olan dövlətlərdə qəbul edilməsinə təşəbbüs göstəriləcək.

Yeni Akt jurnalistlərin və KİV subyektlərinin peşəkar fəaliyyətlərinin səmərəli müdafiəsini təmin etmək öhdəliyini müəyyən edir. Aktın əsas prinsipi budur ki, dövlətlər yeni qanunlar qəbul edərkən, həmin qanunlara media mühitini məhdudlaşdıran maddələr daxil edə bilməzlər.

Paralel olaraq, Beynəlxalq Jurnalistlər Federasiyası daha bir təşəbbüsü Birləşmiş Millətlər Təşkilatı qarşısında irəli sürüb. “Jurnalist təhlükəsizliyi üzrə BMT konvensiyası”nın qəbul edilməsi üçün BMT Baş Assambleyasına müraciət edilib.

“Konvensiya layihəsi”nin əsaslandırılması bölümündə qeyd edilir ki, jurnalistlərin həm gündəlik fəaliyyətləri zamanı, həm də riskli bölgələrdə çalışdıqları zaman təhlükəsizliklərini təmin etməyə çağıran çoxlu beynəlxalq sənədlər mövcuddur. Bu sırada 1949-cu il tarixli Cenevrə Konvensiyası, BMT Təhlükəsizlik Şurasının 2006-cı il tarixli 1738 saylı Qətnaməsi, BMT TŞ-nin 2015-ci il tarixli 2222 saylı Qətnaməsi və digər sənədlər xüsusi qeyd edilir. Amma bu sənədlərin mövcudluğuna baxmayaraq, jurnalistlər hələ də ciddi təhlükələrlə üzləşirlər. Jurnalistlərin təhlükəsizliyi üzrə vəziyyət daha da pisləşməkdə davam edir.1990-cı ildən başlayaraq aparılan qlobal səviyyəli monitorinqlərin nəticələri göstərir ki, 30 il ərzində dünyada 2.778 nəfər jurnalist peşə fəaliyyətinə görə qətlə yetirilib. Digər bir problem ondan ibarətdir ki, jurnalist qətlləri üzrə hər 10 işdən 9-u cəzasız qalır. Cəzasızlığın kəmiyyəti 90 faizi ötür.

Bütün bunları nəzərə alaraq BMT-dən jurnalist təhlükəsizliyi üzrə əlahiddə bir konvensiyanın qəbul edilməsinə ehtiyac duyur. 2023-cü il bu konvensiyanın reallşaşdırılması üçün atılan addımlarla yadda qalıb.

***Müşfiq ƏLƏSGƏRLİ,***
***XQ-nin media eksperti***

# Türk dünyasının Kinematoqrafçılar Assosiasiyası da yaradıldı

**Daşkənddə TÜRKSOY-un təşəbbüsü ilə türk dünyasının Kinematoqrafçılar Assosiasiyası yaradılıb.**

Assosiasiyanın təsis iclasında Azərbaycan Kinematoqrafçılar Agentliyinin rəhbəri Orxan Fikrətoğlu, “Qazaxfilm” Birliyinin prezidenti Azamat Satıbaldı, Özbəkistan Kinematoqrafçılar Agentliyinin rəhbəri Firdavs Abduxalikov, Türkiyə Kinematoqrafçılar İdarəsinin baş direktoru Erkin Yılmazot, Qırğızıstan Kinematoqrafçılar Departamentinin direktoru Akjol Bekpolatov və TÜRKSOY-un nümayəndəsi Salim Ezer iştirak ediblər.

Bildirilib ki, Assosiasiya türk dünyası kino sənətinin dirçəldilməsi, birgə layihələrin həyata keçirilməsi, yeni filmlərin istehsalı, ən yaxşı filmlərin beynəlxalq tədbirlərə çıxarılması, türk dövlətlərinin birgə kinoprokat sisteminin yaradılması və digər məsələlərin həllini nəzərdə tutur.

Qeyd olunub ki, əsas prioritetlərdən biri də Daşkənd Beynəlxalq Kinofestivalını və Beynəlxalq “Qorqud Ata” kinofestivalını dünya standartları səviyyəsinə qaldırmaqdır.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**Daşkənd**



**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

# Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması

# QAYDASI

**1. Ümumi müddəalar**

1.1. Bu Qayda "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra –¬ Qanun) 20.5-ci, 24.1-ci, 24.5-ci və 24.16-cı maddələrinə uyğun olaraq hazırlanmışdır və qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalı həyata keçirilən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin, o cümlədən xarici ölkələrdə fəaliyyət göstərən qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması, habelə Qida Təhlükəsizliyi Reyestrinin aparılması ilə bağlı məsələləri tənzimləyir.

1.2. Bu Qaydada istifadə edilən əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

1.2.1. qida zənciri subyektləri (bundan sonra – qida subyektləri) – qida zəncirində fəaliyyətlə məşğul olan fiziki və ya hüquqi şəxslər, bələdiyyə, dövlət orqanları (qurumları);

1.2.2. qida zənciri obyektləri (bundan sonra – qida obyektləri) – qida zəncirində fəaliyyətin həyata keçirildiyi məkan, sahə, bina, nəqliyyat vasitəsi və digər modul tipli (daşınabilən) obyektlər;

1.2.3. modul tipli (daşınabilən) qida obyekti – təyinatına hər hansı zərər vurulmadan yerinin dəyişdirilməsi mümkün olan, təsdiq olunmuş və ya qeydiyyata alınmış digər qida obyektinin tərkibinə daxil olmayan qida obyektləri;

1.2.4. Qida Təhlükəsizliyi Reyestri (bundan sonra – Reyestr) – Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmış məhsullar, qida obyektləri və qida subyektləri, qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlər, habelə təsdiq olunmuş qida obyektləri barəsində məlumatları (qeydləri) özündə əks etdirən informasiya ehtiyatı;

1.2.5. videoinspeksiya formatında qiymətləndirmə – xarici ölkələrdə fəaliyyət göstərən qida obyektlərinin qiymətləndirilməsi məqsədilə fəaliyyətin həyata keçirildiyi yerə getmədən texniki vasitələrdən istifadə etməklə məsafədən qida obyektlərinin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun qiymətləndirilməsi.

1.3. Bu Qaydada istifadə olunan digər anlayışlar Qanunla və Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

1.4. Qida obyektlərinin və qida subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalı həyata keçirilən obyektlərin qeydiyyatı, qida obyektlərinin, o cümlədən xarici ölkələrdə fəaliyyət göstərən qida obyektlərinin təsdiqi, xarici ölkələrin qida obyektləri üzrə təsdiq sisteminin ekvivalentliyinin tanınması, Reyestrin aparılması Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (bundan sonra – Agentlik) tərəfindən həyata keçirilir.

**2. Qeydiyyat və təsdiq üçün müraciət**

2.1. Azərbaycan Respublikasının ərazisində qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası həyata keçirilən qida obyektlərinin, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalı həyata keçirilən obyektlərin qeydiyyatı, qida obyektlərinin təsdiqi üçün Agentliyə bu Qaydaya 1 nömrəli əlavədə göstərilən formada ərizə ilə müraciət olunur. Mülkiyyətində və ya istifadəsində qida obyekti olan subyektlər (bundan sonra – cavabdeh subyekt), habelə qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektləri qeydiyyat və ya təsdiq zamanı ərizəçi (bundan sonra – ərizəçi) qismində çıxış edirlər.

2.2. Obyektlərin qeydiyyatı və təsdiqi həmin obyektlərin faktiki ünvanı, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektlərinin və modul tipli (daşınabilən) qida obyektlərinin qeydiyyatı isə onların hüquqi ünvanı (fiziki şəxslərə münasibətdə fəaliyyət və ya qeydiyyat ünvanı) üzrə aparılır.

2.3. Vahid prosesin müxtəlif mərhələlərinin həyata keçirildiyi eyni ərazidə yerləşən obyektlər istisna olmaqla, cavabdeh subyektin obyektləri hər biri ayrılıqda qeydiyyata alınır və ya təsdiq edilir.

2.4. Ərizə elektron qaydada, yaxud sifarişli poçt göndərişi vasitəsilə və ya şəxsən, kağız daşıyıcıda "ASAN xidmət" mərkəzlərində, kiçik və orta biznes evlərində (KOB evlərində) və ya Agentlikdə qəbul olunur.

2.5. Ərizənin elektron qaydada təqdim olunması üçün ərizəçilər gücləndirilmiş elektron imzaya malik olmalıdırlar.

2.6. "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla ərizəyə aşağıdakı sənədlər əlavə edilməlidir:

2.6.1. "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1–18.2.3-cü maddələrində nəzərdə tutulmuş sənədlər;

2.6.2. ərizə səlahiyyətli nümayəndə tərəfindən verildikdə nümayəndənin səlahiyyətlərini təsdiq edən sənəd və şəxsiyyəti təsdiq edən sənədin surəti;

2.6.3. cavabdeh subyektin təsərrüfat fəaliyyətini həyata keçirdiyi obyekt üzərində mülkiyyət, istifadə və ya icarə hüququnu təsdiq edən sənədin surəti;

2.6.4. modul tipli (daşınabilən) qida obyektlərinə münasibətdə onların quraşdırılmasına verilən icazə sənədi, o cümlədən nəqliyyat vasitəsinə dair mülkiyyət və ya istifadə hüququnu təsdiq edən sənədlər.

2.7. Ərizəyə əlavə olunan sənədlər xarici dildə olduqda onların Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi də əlavə edilməlidir.

2.8. Ərizədə və ona əlavə edilən sənədlərdə aradan qaldırılması mümkün olan və imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə ərizəçiyə məlumat təqdim edilir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələri izah olunur. Bütün çatışmazlıqlar ərizəçiyə eyni zamanda bildirilməlidir.

2.9. Ərizəçi çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 (on) iş günü ərzində aradan qaldırmalıdır. Bu zaman qeydiyyat və ya təsdiqlə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət qeydiyyat və ya təsdiq müddətinə daxil edilmir. Çatızmazlıqların aradan qaldırılması barədə ərizəçinin müraciətindən sonra müddətin axımı bərpa olunur.

2.10. Ərizəçi ərizədə və ona əlavə edilən sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 2.9-cu bəndində qeyd edilən müddətdə aradan qaldırmadıqda müraciətin baxılmamış saxlanılması barədə qərar qəbul olunur. Müvafiq qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günündən gec olmayaraq ərizəçiyə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə ərizəçinin elektron kabinetinə (mövcud olduqda) göndərilir.

**3. Qida obyektlərinin (obyektlərin) və qida subyektlərinin qeydiyyatı**

3.1. Azərbaycan Respublikasının ərazisində qida və yem məhsullarının ilkin istehsalı, istehsalı, emalı, dövriyyəsi və utilizasiyası həyata keçirilən qida obyektləri ("Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nda göstərilən qida obyektləri və bu Qaydaya 2 nömrəli əlavədə göstərilən qeydiyyatı tələb olunmayan qida obyektləri və subyektləri istisna olmaqla), qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektləri, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalı həyata keçirilən obyektlərin qeydiyyatı ilə bağlı ərizədə və müvafiq sənədlərdə uyğunsuzluq və ya çatışmazlıq aşkar edilmədikdə, həmin qida obyekti (obyekt) və ya qida subyekti Agentlik tərəfindən ərizənin qeydiyyata alındığı tarixdən 7 (yeddi) iş günü müddətində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilmədən qeydiyyata alınır.

3.2. Qeydiyyataalınmadan "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsi ilə müəyyən edilmiş hallarda imtina edilir. İmtina barədə qərar imtina hallarına istinad edilməklə əsaslandırılmalıdır. Qeydiyyatdan imtina olunması ilə bağlı Agentliyin müvafiq qərarı qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində ərizəçiyə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə ərizəçinin elektron kabinetinə (mövcud olduqda) göndərilir. Ərizəçi imtina haqqında qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

3.3. Bu Qaydanın 3.1-ci bəndinə uyğun olaraq qeydiyyata alınmış qida obyektinə, qida obyekti olmadan fəaliyyət göstərən qida subyektinə, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalı həyata keçirilən obyektə qeydiyyat nömrəsi verilir, Reyestrə daxil edilir və Reyestrdən elektron və ya kağız formada çıxarış Agentlik tərəfindən ərizəçiyə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə ərizəçinin elektron kabinetinə (mövcud olduqda) göndərilir.

3.4. Bu Qaydanın 3.1-ci bəndinə uyğun olaraq qeydiyyata alınan qida obyektlərinin (obyektlərin) və qida subyektlərinin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu dövlət nəzarəti tədbirləri çərçivəsində qiymətləndirilir.

**4. Qida obyektlərinin təsdiqi**

4.1. "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nda göstərilən, qida və yem məhsullarının istehsalı, emalı, dövriyyəsi və utilizasiyası ilə məşğul olan qida obyektləri Agentlik tərəfindən ərizəçinin müraciətinin qeydiyyata alındığı tarixdən 30 (otuz) iş günü müddətində qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunur və ya onların təsdiqindən imtina edilir.

4.2. Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğun qiymətləndirilməsi məqsədilə Agentliyin qərarı ilə qiymətləndirməni aparacaq şəxs (şəxslər) təyin olunur.

4.3. Qiymətləndirici şəxs (şəxslər) tərəfindən aparılan qiymətləndirmə nəticələri əsasında obyektin qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu haqqında qiymətləndirmə aktı tərtib olunur.

4.4. Qida obyektlərinin təsdiq olunması məqsədilə aparılan qiymətləndirmələr zamanı götürülən məhsul nümunələrinin tədqiqi (sınağı) ərizəçinin seçiminə uyğun olaraq "Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada akkreditasiyadan keçmiş laboratoriyalarda və ya Agentliyin tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında həyata keçirilir.

4.5. Nümunələrin tədqiqi (sınağı) Agentliyin tabeliyində olan akkreditasiya edilmiş sınaq laboratoriyalarında aparıldığı halda, nümunənin tədqiqi (sınağı) yalnız ərizəçi tərəfindən məhsulun ekspertizası üçün müvafiq xidmət haqqı ödənildikdən sonra təmin edilir.

4.6. Qida obyektinin təsdiqi barədə Agentlik tərəfindən qərar qəbul edildikdə, Reyestrdən çıxarış verilməsinə görə ərizəçi "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda və məbləğdə dövlət rüsumu ödəyir.

4.7. Ərizəçi dövlət rüsumunun ödənilməsi ilə bağlı məlumatı aldığı tarixdən 5 (beş) iş günü müddətində dövlət rüsumunu ödəməlidir.

4.8. Təsdiq edilməsi barədə qərar qəbul edilmiş qida obyektinə münasibətdə dövlət rüsumu (qanunla tələb olunduğu halda) ödənildikdən sonra Agentlik tərəfindən həmin obyektə təsdiq nömrəsi verilir, Reyestrə daxil edilir və 2 (iki) iş günündən gec olmayaraq Reyestrdən elektron və ya kağız formada çıxarış ərizəçiyə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə ərizəçinin elektron kabinetinə (mövcud olduqda) göndərilir.

4.9. Qida obyektində aparılan qiymətləndirmənin nəticələrinə əsasən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələbləri ilə bağlı uyğunsuzluqlar aşkarlandıqda aşağıdakı qərarlardan biri qəbul edilir:

4.9.1. qida obyekti aşkar edilmiş uyğunsuzluqların xüsusiyyəti və yaratdığı riskin səviyyəsi nəzərə alınmaqla, uyğunsuzluqların 90 (doxsan) təqvim günündən gec olmayaraq aradan qaldırılması şərtilə təsdiq olunur. Bu zaman qida obyektinə xüsusi təsdiq nömrəsi verilir və Reyestrə daxil edilir;

4.9.2. aparılan qiymətləndirilmə nəticəsində qida obyektində aşkar edilmiş uyğunsuzluqların infrastruktur və avadanlıqla əlaqəli olduğu və təhlükəli qida və yem məhsullarının istehsalına və emalına səbəb olacağı halda qida obyektinin təsdiqindən imtina edilir.

4.10. Bu Qaydanın 4.9.1-ci və 4.9.2-ci yarımbəndlərində qeyd edilən qərarlardan biri qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində ərizəçiyə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə ərizəçinin elektron kabinetinə göndərilir.

4.11. Ərizəçi bu Qaydanın 4.9.2-ci yarımbəndində göstərilmiş uyğunsuzluqları aradan qaldırdıqdan sonra təsdiq üçün yenidən müraciət edə bilər.

4.12. Bu Qaydanın 4.9.1-ci yarımbəndində nəzərdə tutulmuş şərtlərlə təsdiq edilmiş qida obyektində uyğunsuzluqların aradan qaldırılması üçün müəyyən edilmiş müddət ərzində əlavə nəzarət tədbirləri həyata keçirilə bilər.

4.13. Bu Qaydanın 4.9.1-ci yarımbəndində nəzərdə tutulmuş şərtlərlə təsdiq edilmiş qida obyektində müəyyən edilmiş müddət ərzində uyğunsuzluqlar aradan qaldırılmadığı halda qida obyektinin təsdiqi ləğv olunur. Bu barədə qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində ərizəçiyə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə ərizəçinin elektron kabinetinə (mövcud olduqda) göndərilir. Ərizəçi uyğunsuzluqları aradan qaldırdıqdan sonra təsdiq üçün yenidən müraciət edə bilər.

4.14. Bu Qaydanın 4.9.1-ci yarımbəndində nəzərdə tutulmuş şərtlərlə təsdiq edilmiş qida obyektində müəyyən edilmiş müddət ərzində uyğunsuzluqların aradan qaldırıldığı müəyyən olunduqda, Reyestr məlumatlarında müvafiq dəyişikliklər edilərək şərti təsdiq qeydi təsdiq qeydi ilə əvəz olunur. Qida obyektində aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması vəziyyəti yerində araşdırma tələb etdiyi halda uyğunsuzluqların aradan qaldırılması üçün verilmiş müddətdə təkrar qiymətləndirmə aparılır. Bu Qaydanın 4.6-cı bəndi nəzərə alınaraq 2 (iki) iş günündən gec olmayaraq Agentlik tərəfindən Reyestrdən elektron və ya kağız formada çıxarış ərizəçiyə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə elektron kabinetinə (mövcud olduqda) göndərilir.

4.15. Qida obyektinin təsdiqindən eyni zamanda "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 20.1-ci maddəsində nəzərdə tutulmuş hallarda imtina edilir. Təsdiqdən imtina haqqında qərar imtina hallarına istinad edilməklə əsaslandırılmalıdır. Ərizəçi imtina haqqında qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

**5. Xarici ölkələrdə fəaliyyət göstərən qida obyektlərinin təsdiqi**

5.1. "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nda göstərilən qida və yem məhsullarının Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün həmin məhsulların istehsal və emal edildiyi xarici ölkələrdə fəaliyyət göstərən qida obyektləri (bundan sonra – xarici qida obyekti) xarici qida subyektlərinin və ya onların Azərbaycan Respublikasında səlahiyyətli nümayəndələrinin, filiallarının, nümayəndəliklərinin müraciəti əsasında Agentlik tərəfindən qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə yerində, o cümlədən videoinspeksiya formatında uyğunluğu qiymətləndirilməklə təsdiq olunur və ya onların təsdiqindən imtina edilir.

5.2. Təsdiq sisteminin ekvivalentliyi tanınan ölkənin səlahiyyətli qurumu tərəfindən xarici qida obyektlərinin təsdiqinə dair müvafiq rəsmi məlumatlar olduğu və ya həmin obyektlər tərəfindən bu barədə Agentliyə müvafiq təsdiqedici sənədlər təqdim edildiyi halda, onların bu Qaydanın 5.1-ci bəndinə əsasən yenidən təsdiqi tələb edilmir.

5.3. Xarici qida obyektinin bu Qaydanın 5.1-ci bəndinə əsasən təsdiqi üçün xarici qida subyekti (onun Azərbaycan Respublikasında səlahiyyətli nümayəndəsi), onun filialları və nümayəndəlikləri ərizə ilə müraciət edərək, aşağıdakı sənədləri elektron kabinet vasitəsilə və ya kağız daşıyıcılarda Agentliyə təqdim etməlidir (sənədlər xarici dildə tərtib olunduqda onların Azərbaycan dilinə notariat qaydasında təsdiq edilmiş tərcüməsi əlavə edilməlidir):

5.3.1. ərizə qida subyektinin səlahiyyətli nümayəndəsi tərəfindən verildikdə – nümayəndənin səlahiyyətlərini təsdiq edən sənəd və şəxsiyyətini təsdiq edən sənədin surəti;

5.3.2. qida obyektinin fəaliyyət göstərdiyi ölkənin səlahiyyətli qurumu tərəfindən təsdiq olunduğunu (və ya ona bərabər tutulan qeydiyyat, uçot və s. barədə rəsmi məlumat) əks etdirən sənədin surəti;

5.3.3. qida subyektinin Azərbaycan Respublikasındakı filialları və nümayəndəlikləri tərəfindən müraciət edildikdə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 18.2.1–18.2.3-cü maddələrində nəzərdə tutulan sənədlər;

5.3.4. qida obyektinin tikinti layihəsi, obyektin infrastrukturu və yerləşdiyi ərazi, obyektdə istifadə edilən qida ilə təmasda olan dəzgah və avadanlıqlar, obyektdə istehsal edilən məhsulların çeşidləri, adları, tərkibi, istehsal metodlarının təsviri, müəssisənin istehsal gücü, zərərvericilərə nəzarət, tullantıların idarə edilməsi, Təhlükənin Analizi və Kritik Nəzarət Nöqtələrinə (HACCP-a) əsaslanan qida təhlükəsizliyinə daxili nəzarət sistemi, obyektdə tətbiq olunan qida təhlükəsizliyini idarəetmə proseslərinə dair məlumatları əks etdirən arayış;

5.3.5. fəaliyyəti heyvan mənşəli qida məhsulları ilə bağlı olan obyektlərin təsdiqi üçün xarici ölkənin epizootik vəziyyətinə dair Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının məlumatını əks etdirən, həmin ölkənin səlahiyyətli qurumu tərəfindən verilən sənəd;

5.3.6. fəaliyyəti heyvan mənşəli məhsullarla bağlı olan obyektlərin təsdiqi üçün həmin ölkənin səlahiyyətli qurumu tərəfindən təsdiq edilmiş qalıqların izlənilməsinə dair milli monitorinq planı.

5.4. Xarici qida obyektlərinin bu Qaydanın 5.1-ci bəndinə əsasən təsdiqi üçün verilmiş ərizə və ona əlavə edilmiş sənədlər qeydiyyata alındığı tarixdən etibarən 30 (otuz) iş günü müddətində baxılaraq Agentlik tərəfindən obyektin təsdiqi və ya təsdiqdən imtina haqqında qərar qəbul edilir.

5.5. Təsdiqlə bağlı imtinaya səbəb olan uyğunsuzluqlar aradan qaldırıldıqdan sonra obyektin təsdiqi üçün Agentliyə yenidən müraciət oluna bilər.

5.6. Xarici qida obyektinin təsdiqi barədə qərar qəbul edildikdə "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş məbləğdə dövlət rüsumu 5 (beş) iş günü müddətində ödənilməlidir.

5.7. Dövlət rüsumu ödənildikdən sonra xarici qida obyektinə dair məlumatlar Reyestrə daxil edilir.

5.8. Bu Qaydanın 5.4-cü bəndində qeyd edilən qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində Reyestrdən elektron və ya kağız formada çıxarış ərizəçiyə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə ərizəçinin elektron kabinetinə (mövcud olduqda) göndərilir.

**6. Xarici qida obyektləri üzrə təsdiq sisteminin ekvivalentliyinin tanınması**

6.1. Agentlik "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nda müəyyən edilən məhsulların Azərbaycan Respublikasının gömrük ərazisinə idxal olunması üçün həmin məhsulların istehsal və emal edildiyi qida obyektlərinin Azərbaycan Respublikasında qüvvədə olan texniki normativ hüquqi aktların tələblərinə uyğunluğunun təsbit edilməsi, ticarət tərəfdaşı olan ölkələrlə əməkdaşlığın artırılması və təkrarlanan prosedurların aradan qaldırılması məqsədilə xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyini tanıyır.

6.2. Təsdiq sisteminin ekvivalentliyi tanınan ölkədə yerləşən təsdiq edilmiş xarici qida obyektlərinin siyahısı yeniləndikcə diplomatik kanallar vasitəsilə Agentliyə məlumat verilir.

6.3. Xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması zamanı aşağıdakı meyarlar əsas götürülür:

6.3.1. qida və yem məhsulları ilə bağlı ticarət dövriyyəsi zamanı müəyyən edilmiş qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların tələblərinə uyğunsuzluqların statistikası;

6.3.2. xarici ölkənin qida təhlükəsizliyi sisteminin, o cümlədən yoxlama və nəzarət sistemlərinin Azərbaycan Respublikasında tətbiq edilən sistemlə uyğunluğu;

6.3.3. xarici ölkənin qida təhlükəsizliyi sisteminin Birləşmiş Millətlər Təşkilatının Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı və Ümumdünya Səhiyyə Təşkilatının Kodeks Alimentarius Komissiyasının və Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının standartlarına uyğunluğu.

6.4. Agentlik bu Qaydanın 6.3-cü bəndində nəzərdə tutulmuş meyarları təhlil edərək, xarici ölkənin təsdiq sisteminin ekvivalentliyini birbaşa və ya xarici səlahiyyətli qurumun diplomatik kanalları vasitəsilə müraciətinin qiymətləndirilməsi əsasında tanıyır.

6.5. Təsdiq sisteminin ekvivalentliyinin tanınması üçün xarici səlahiyyətli qurum Agentliyə aşağıdakı məlumatları təqdim edir:

6.5.1. xarici qida obyektləri üzrə təsdiq sistemınə dair normativ hüquqi aktlar, həmin aktların Azərbaycan Respublikasının müvafiq normativ hüquqi aktlarından fərqli tələbləri və bu tələblərin Azərbaycan Respublikasında müəyyən edilmiş sanitar mühafizənin eyni və ya daha yüksək səviyyəsinin təmin etməsinə dair elmi sübutlar və risk qiymətləndirilməsi nəticələrinə dair məlumatlar;

6.5.2. xarici ölkənin müvafiq normativ hüquqi aktları ilə müəyyən edilmiş Təhlükənin Analizi və Kritik Nəzarət Nöqtələrinə (HACCP-a) əsaslanan qida təhlükəsizliyinin daxili nəzarət sisteminə dair tələblər;

6.5.3. xarici ölkənin qida obyektləri üzrə nəzarət proqramlarına və tədbirlərinə (yoxlama prosedurları, təhlükəli məhsulların geri çağırılması, yığışdırılması, utilizasiyası və məhv edilməsi üzrə prosedurlar və s.) dair məlumatlar;

6.5.4. məhsulların izlənilməsi və heyvanların identifikasiyası üzrə sistemlərə dair məlumatlar;

6.5.5. xarici ölkədə yerləşən laboratoriyalar, onların qiymətləndirilməsi və akkreditasiyası, o cümlədən beynəlxalq standartlara cavab verməsinə dair məlumatlar və sübutlar;

6.5.6. xarici ölkənin qida obyektlərinin yoxlanılmasına cəlb edilən müfəttişlərin təlim keçməsinə və sertifikatlaşdırılmasına, say və bölgüsünə dair məlumatlar;

6.5.7. xarici ölkənin qida təhlükəsizliyi sahəsində böhran vəziyyətlərinin idarə edilməsi sisteminin strukturu;

6.5.8. qida təhlükəsizliyi sahəsində nümunə götürmə və tədqiq üsulları;

6.5.9. təsdiq edilmiş qida obyektlərinin siyahısı;

6.5.10. beynəlxalq təşkilatlar və başqa dövlətlərlə ekvivalentlik sazişləri (mövcud olduqda);

6.5.11. xarici ölkənin epizootik vəziyyətinə dair Ümumdünya Heyvan Sağlamlığı Təşkilatının məlumatını əks etdirən və həmin ölkənin səlahiyyətli qurumu tərəfindən verilən sənəd;

6.5.12. xarici ölkənin səlahiyyətli qurumu tərəfindən təsdiq edilmiş qalıqların izlənilməsinə dair milli monitorinq planı;

6.5.13. ekvivalentliyin tanınması üçün xarici səlahiyyətli qurumun zəruri hesab etdiyi digər məlumatlar.

6.6. Təqdim edilmiş məlumatların qiymətləndirilməsi üçün xarici səlahiyyətli qurumla razılaşdırmaqla Agentlik tərəfindən yerində, o cümlədən videoinspeksiya formatında qiymətləndirilmə aparılır.

6.7. Agentlik xarici səlahiyyətli qurumun müraciətinin qəbul olunduğu tarixdən 6 (altı) aydan gec olmayaraq təsdiq sisteminin ekvivalentliyinin tanınması və ya imtinanın əsasları göstərilməklə imtina haqqında qərar qəbul edir və qəbul edilmiş qərar barədə 7 (yeddi) iş günü müddətində xarici səlahiyyətli quruma diplomatik kanallar vasitəsilə rəsmi məlumat verir.

6.8. Xarici ölkənin təsdiq sisteminin ekvivalentliyinin birbaşa tanınması ilə bağlı qərar qəbul edildiyi halda, Agentlik bu barədə 7 (yeddi) iş günü müddətində xarici səlahiyyətli quruma diplomatik kanallar vasitəsilə rəsmi məlumat verir.

6.9. Bu Qaydanın 6.3-cü bəndində tanınma üçün əsas götürülmüş meyarlar üzrə tələblərə uyğunsuzluğu barədə sübutlar olduqda və ya həmin ölkədən təkrar olaraq insan və heyvan həyatı və sağlamlığı üçün təhlükəli olan "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nda göstərilən qida və yem məhsulları idxal edildiyi halda Agentlik tərəfindən həmin ölkənin təsdiq sisteminin ekvivalentliyinin ləğv edilməsi məsələsinə baxılır.

**7. Reyestrin forması və aparılma qaydası**

7.1. Azərbaycan Respublikasının ərazisində qeydiyyata alınmalı olan məhsullar, qida obyektləri və qida subyektləri, qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin, habelə təsdiq edilmiş qida obyektləri barədə məlumatların daxil edildiyi Reyestr Agentlik tərəfindən aparılır.

7.2. Reyestr Azərbaycan Respublikasının dövlət dilində aparılır. Reyestrə daxil edilən dövlət sirri, kommersiya və (və ya) vergi sirri təşkil etməyən məlumatlar Agentliyin rəsmi internet səhifəsində yerləşdirilir və istifadəçilər üçün açıqdır.

7.3. Qeydiyyat və təsdiq üçün təqdim edilmiş sənədlər və məlumatlar Agentlikdə saxlanılır. Reyestrə daxil edilmiş qida subyektləri və qida obyektləri (obyektlər) barədə müraciət zamanı kağız daşıyıcıda təqdim olunmuş sənədlər "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş müddətdə saxlanıldıqdan sonra arxivə təhvil verilir.

7.4. Bu Qaydanın 3, 4 və 5 nömrəli əlavələri ilə müəyyən edilmiş formalara uyğun olaraq verilmiş Reyestrdən çıxarışlarda göstərilən qida obyektlərinə (obyektlərə), qida subyektlərinə dair qeydiyyat və təsdiq nömrələri qida təhlükəsizliyi fəaliyyəti zamanı identifikasiya vasitəsi kimi çıxış edir.

7.5. Qeydiyyat və təsdiqlə bağlı qida subyektləri və qida obyektləri (obyektlər) haqqında aşağıdakı məlumatlar Reyestrə daxil edilməlidir:

7.5.1. qida subyektinin adı (fiziki şəxs olduqda – soyadı, adı, atasının adı);

7.5.2. vergi ödəyicisinin eyniləşdirmə nömrəsi (VÖEN);

7.5.3. qida subyekti fiziki şəxs olduqda – fərdi identifikasiya nömrəsi;

7.5.4. qida subyekti fiziki şəxs olduqda qeydiyyat ünvanı, hüquqi şəxs olduqda hüquqi ünvanı və ya vergi orqanlarında uçota alındığı ünvan;

7.5.5. hüquqi şəxsin səlahiyyətli nümayəndəsi (soyadı, adı, atasının adı və şəxsiyyətini təsdiq edən sənədin seriyası və nömrəsi);

7.5.6. qida subyektinin əlaqə vasitələri (telefon nömrəsi və elektron poçt ünvanı);

7.5.7. qida obyekti (obyekt) haqqında məlumatlar (adı, faktiki ünvanı, tipi, firma adı (əmtəə nişanı), işçi sayı, tibbi müayinədən keçmiş işçilərin sayı haqqında məlumatlar);

7.5.8. qida obyektində (obyektdə) həyata keçirilən təsərrüfat fəaliyyətinin istiqaməti (ilkin istehsal, istehsal, emal, dövriyyə və utilizasiya), fəaliyyət növü (fəaliyyət istiqamətləri üzrə ayrı-ayrı proseslər) və fəaliyyət sahəsi (məhsul və ya xidmət sahəsi);

7.5.9. qida obyektində (obyektdə) həyata keçirilən xidmətlər və ilkin istehsal, həmçinin istehsalı və emalı həyata keçirilən qida və yem məhsullarının adları;

7.5.10. qida obyektində (obyektdə) aparılan qiymətləndirilmələrin tarixi və nəticələri;

7.5.11. qida obyektinin (obyektin) qeydiyyat, təsdiq nömrəsi və tarixi, qida obyekti olmadan fəaliyyət göstərən qida subyektinin qeydiyyat nömrəsi və tarixi;

7.5.12. qida obyekti bu Qaydanın 4.9.1-ci yarımbəndində nəzərdə tutulmuş şərtlərlə təsdiq edildikdə, müəyyən olunmuş təsdiq müddəti;

7.5.13. qeydiyyat və təsdiq zamanı təqdim edilmiş sənədlərdə edilən hər bir dəyişiklik, eləcə də daxil edilmiş məlumatlarda sonradan edilmiş dəyişikliklər barədə məlumatlar;

7.5.14. qeydiyyatın və təsdiqin ləğv edilməsi və ya dayandırılması barədə məlumatlar;

7.5.15. Qanunun 25.8-ci maddəsi ilə müəyyən edilmiş qaydaya uyğun olaraq qida və yem məhsulları barədə məlumat.

7.6. Reyestrdən kağız və elektron formada çıxarış eyni hüquqi qüvvəyə malikdir.

**8. Qeydiyyat və təsdiqin yenidən rəsmiləşdirilməsi**

8.1. Qida obyektlərinin qeydiyyatı və təsdiqi, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 23.1-ci maddəsində nəzərdə tutulmuş hallarda yenidən rəsmiləşdirilir və Reyestr məlumatlarında müvafiq dəyişikliklər edilir.

8.2. Yenidən rəsmiləşdirilmə üçün yuxarıda qeyd edilən əsaslar yarandığı tarixdən 5 (beş) iş günündən gec olmayaraq Agentliyə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 23.3-cü maddəsində nəzərdə tutulmuş sənədlərlə birlikdə ərizə ilə müraciət edilməlidir.

8.3. Reyestr məlumatlarında dəyişikliklər ərizənin qeydə alındığı tarixdən 3 (üç) iş günü müddətində rəsmiləşdirilir və Agentlik tərəfindən 2 (iki) iş günündən gec olmayaraq Reyestrdən elektron və ya kağız formada çıxarış icazə sahibinə şəxsən, yaxud sifarişli poçt göndərişi vasitəsilə təqdim olunur, habelə elektron kabinetinə (mövcud olduqda) göndərilir.

8.4. Qeydiyyata alınmış obyektdə təsdiq tələb edən yeni fəaliyyət növü həyata keçirildikdə və ya təsdiq edilmiş obyektdə qeydiyyat tələb edən yeni fəaliyyət növü həyata keçirildikdə müvafiq olaraq təsdiq və qeydiyyat üçün müraciət edilməlidir. Belə halda obyektin təsdiqi və qeydiyyatı bu Qaydanın 3-cü və 4-cü hissələrinə uyğun olaraq aparılır.

**9. Qeydiyyatın və təsdiqin dayandırılması**

9.1. Qida obyektlərinin qeydiyyatı və təsdiqi, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı aşağıdakı hallarda dayandırılır:

9.1.1. icazə sahibi müvafiq ərizə ilə müraciət etdikdə;

9.1.2. icazə sahibi qida təhlükəsizliyi ilə bağlı şərtlərin pozulması hallarının aradan qaldırılmasına dair Agentliyin göstərişlərini yerinə yetirmədikdə.

*(ardı 11-ci səhifədə)*

# Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması QAYDASI

**(əvvəli 10-cu səhifədə)**

9.2. Qeydiyyat və təsdiq bu Qaydanın 9.1-ci bəndində qeyd edilən hallara istinad edilməklə Agentliyin qərarı ilə dayandırılır. Həmin qərarda dayandırılmaya əsas verən hallar və icazənin dayandırıldığı müddət göstərilməlidir. Bu Qaydanın 9.1.2-ci yarımbəndində göstərilən əsas üzrə icazənin dayandırılması haqqında qərarda həmçinin dayandırılmaya əsas verən halların aradan qaldırılması üçün görülməli olan tədbirlər və icazənin dayandırıldığı müddətdə həmin halların aradan qaldırılmamasının nəticəsi göstərilməlidir.

9.3. İcazə sahibi qeydiyyat və təsdiqin dayandırıldığı müddət bitənədək bu Qaydanın 9.1.2-ci yarımbəndində göstərilən dayandırılmaya əsas verən halları aradan qaldırmalı və nəticəsi barədə 3 (üç) iş günü müddətində Agentliyə yazılı məlumat verməlidir.

9.4. Bu Qaydanın 9.1.1-ci yarımbəndinə uyğun olaraq dayandırılmış qeydiyyat və təsdiq icazə sahibinin ərizəsinə əsasən Agentliyin qərarı ilə bərpa edilir.

9.5. Bu Qaydanın 9.1.2-ci yarımbəndinə uyğun olaraq dayandırılmış qeydiyyat və təsdiq icazə sahibinin dayandırılmaya əsas verən halların aradan qaldırılmasına dair yazılı məlumatına əsasən Agentliyin qərarı ilə bərpa edilir.

9.6. Qeydiyyat və təsdiqin dayandırılması və bərpası haqqında qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində icazə sahibinə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə icazə sahibinin elektron kabinetinə (mövcud olduqda) göndərilir.

9.7. Qeydiyyat və təsdiqin dayandırılması barədə məlumatlar Reyestrə daxil edilir.

9.8. İcazə sahibi qeydiyyat və təsdiqin dayandırılması haqqında qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

**10. Qeydiyyatın və təsdiqin ləğv edilməsi**

10.1. Qida obyektlərinin qeydiyyatı və təsdiqi, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı aşağıdakı hallarda ləğv edilir:

10.1.1. icazə sahibi müvafiq ərizə ilə müraciət etdikdə;

10.1.2. icazə sahibi olan hüquqi şəxs (xarici hüquqi şəxsin filialı, nümayəndəliyi) ləğv edildikdə;

10.1.3. icazə sahibinin sahibkarlıq fəaliyyətinə xitam verildikdə və ya 1 (bir) ildən artıq bu fəaliyyətini dayandırdıqda;

10.1.4. qeydiyyat və təsdiq zamanı təqdim olunmuş sənədlərdə sonralar səhv və ya təhrif olunmuş məlumatlar aşkar edildikdə;

10.1.5. bu Qaydanın 4.13-cü bəndində qeyd edilən halda;

10.1.6. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

10.1.7. bu Qaydanın 9.3-cü bəndində qeyd edilən məsələ ilə bağlı Agentliyə yazılı məlumat verilmədikdə;

10.1.8. qida obyektinin qeydiyyatı və təsdiqi, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı ilə bağlı icazə "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikası Qanununun 3 nömrəli əlavəsində göstərilmiş sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısından çıxarıldıqda.

10.2. Qida obyektlərinin (obyektlərin) və qida subyektlərinin qeydiyyat və təsdiqi bu Qaydanın 10.1-ci bəndində qeyd edilən hallara (bu Qaydanın 10.1.6-cı yarımbəndi istisna olmaqla) istinad edilməklə, Agentliyin qərarı ilə ləğv edilir. Həmin qərar qəbul olunduğu tarixdən 2 (iki) iş günü müddətində icazə sahibinə şəxsən və ya sifarişli poçt göndərişi vasitəsilə təqdim edilir, habelə icazə sahibinin elektron kabinetinə (mövcud olduqda) göndərilir.

10.3. Qida obyektlərinin (obyektərin) qeydiyyatı və təsdiqi, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektlərinin qeydiyyatı ləğv edildikdə Reyestrə bu barədə məlumatlar daxil edilir.

10.4. Qida obyektlərinin (obyektlərin) qeydiyyatının və təsdiqinin, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektlərinin qeydiyyatının ləğv edilməsi qeydiyyat və təsdiq üçün yenidən müraciətə mane olmur. Bu zaman qeydiyyat və təsdiq proseslərinin bütün mərhələləri bu Qaydaya əsasən təkrar icra edilir. Qida obyektləri yenidən qeydiyyata alındığı və ya təsdiq edildiyi, qida obyektləri olmadan fəaliyyət göstərən qida subyektləri yenidən qeydiyyata alındığı halda Reyestrdə ilkin qeydiyyat barədə məlumatlar əks olunur.

10.5. İcazə sahibi qeydiyyatın və təsdiqin ləğvi haqqında qərardan inzibati qaydada və məhkəməyə şikayət verə bilər.

---

**Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir**

## Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin siyahısı

| | |
|---|---|
| **A – Heyvan mənşəli qida məhsullarının istehsalı, emalı və dövriyyəsi ilə məşğul olan qida obyektləri** | |
| **1.** | **Ümumi fəaliyyət göstərən qida obyektləri** |
| 1.1. | Saxlanılması xüsusi temperatur şərtləri tələb edən heyvan mənşəli qida məhsulları depolayan müstəqil soyuducu anbarlar |
| 1.2. | Heyvan mənşəli qida məhsullarının təkrar qablaşdırıldığı müəssisələr |
| 1.3. | Heyvan mənşəli qida məhsullarının qida obyektlərində topdan satışının təşkil edildiyi sahələr |
| **2.** | **Kənd təsərrüfatı heyvanlarının ətinin istehsalı ilə məşğul olan qida obyektləri** |
| 2.1. | Kəsim məntəqələri |
| 2.2. | Parçalanma məntəqələri |
| **3.** | **Ev (kənd təsərrüfatı) quşlarının və dovşankimilərin ətinin istehsalı ilə məşğul olan qida obyektləri** |
| 3.1. | Kəsim məntəqələri |
| 3.2. | Parçalanma məntəqələri |
| **4.** | **Fermer təsərrüfatlarında saxlanılan ov heyvanlarının ətinin istehsalı ilə məşğul olan qida obyektləri** |
| 4.1. | Kəsim məntəqələri |
| 4.2. | Parçalanma məntəqələri |
| **5.** | **Vəhşi ov heyvanlarının ətinin istehsalı və emalı ilə məşğul olan qida obyektləri** |
| 5.1. | Ov ətini emal edən müəssisələr |
| 5.2. | Parçalanma məntəqələri |
| **6.** | **Ətin farş edildiyi, hazırlandığı və çeşidləndiyi qida obyektləri** |
| 6.1. | Farş istehsalı müəssisələri |
| 6.2. | Hazırlanmış ət qatışıqları istehsal edən müəssisələr |
| 6.3. | Mexaniki olaraq ayrılmış ət istehsal edən müəssisələr |
| **7.** | **Ət məhsullarının emalı ilə məşğul olan qida obyektləri** |
| **8.** | **Canlı ikitaylı molyuskların istehsalı ilə məşğul olan qida obyektləri** |
| 8.1. | Paylanma məntəqələri |
| 8.2. | Təmizlənmə müəssisələri |
| **9.** | **Balıqçılıq məhsullarının istehsalı və emalı ilə məşğul olan qida obyektləri** |
| 9.1. | Balıq emalı gəmiləri |
| 9.2. | Soyuducu gəmilər |
| 9.3. | Təzə və dondurulmuş balıq məhsullarının istehsalı müəssisələri |
| 9.4. | Balıq məhsullarının emalı müəssisələri |
| 9.5. | Topdansatış məntəqələri |
| 9.6. | Balıq məhsullarının hərracının aparıldığı məntəqələr |
| **10.** | **Süd və süd məhsullarının emalı ilə məşğul olan qida obyektləri** |
| 10.1. | Süd toplama məntəqələri |
| 10.2. | Süd emalı müəssisələri |
| **11.** | **Yumurta və yumurta məhsullarının istehsalı və emalı ilə məşğul olan qida obyektləri** |
| 11.1. | Qablaşdırma məntəqələri |
| 11.2. | Maye yumurta hazırlanma müəssisələri |
| 11.3. | Emal müəssisələri |
| **12.** | **Qurbağa ayaqları və ilbiz istehsalı ilə məşğul olan qida obyektləri** |
| **13.** | **Heyvan mənşəli yağ və piy emalı ilə məşğul olan qida obyektləri** |
| 13.1. | Toplama məntəqələri |
| 13.2. | Emal müəssisələri |
| **14.** | **Heyvanların daxili orqanlarının emalı ilə məşğul olan qida obyektləri** |
| **15.** | **Jelatin istehsalı ilə məşğul olan qida obyektləri** |
| **16.** | **Kollagen istehsalı ilə məşğul olan qida obyektləri** |
| **B – Bitki mənşəli qida məhsullarının istehsalı və emalı ilə məşğul olan qida obyektləri** | |
| **1.** | **Alkoqollu içkilər, qida spirtinin yerli istehsal və emal müəssisələri** |
| **C – Yem məhsullarının istehsalı ilə məşğul olan qida obyektləri** | |
| **1.** | **Tərkibində yem əlavələri və insan istehlakı üçün nəzərdə tutulmayan heyvan mənşəli sub məhsullar olan yem məhsulları istehsal edən müəssisələr** |
| 2. | Yem əlavələri istehsal edən müəssisələr |

**Qeyd:** Bu Siyahı "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun 24.5-ci maddəsinə uyğun olaraq hazırlanmışdır.

---

**"Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası"na 1 nömrəli əlavə**

## Qida obyektlərinin, qida subyektlərinin, qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalı həyata keçirilən obyektlərin qeydiyyatı, qida obyektlərinin təsdiqi üçün ərizə

Azərbaycan Respublikasının
Qida Təhlükəsizliyi Agentliyinə

| | |
|---|---|
| Ərizənin tarixi | |
| ☐ qida obyektinin qeydiyyatı ☐ qida subyektinin qeydiyyatı ☐ qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalı və emalı həyata keçirilən obyektlərin qeydiyyatı ☐ qida obyektinin təsdiqi | |
| **Subyektin adı (fiziki şəxs olduqda – soyadı, adı, atasının adı)** | |
| Hüquqi şəxsin təşkilati-hüquqi forması | |
| VÖEN-i | |
| **Qida subyektinin hüquqi ünvanı (fiziki şəxslərə** münasibətdə fəaliyyət və ya qeydiyyat ünvanı) | |
| **Obyektin tipi** | ☐Stasionar ☐Modul ☐Daşınabilən |
| **Obyektin firma adı (əmtəə nişanı)** | |
| Obyektin faktiki ünvanı | |
| İşçilərin sayı | 1.Ümumi _______<br>2.Qida məhsulları ilə bilavasitə təmasda olan _______ |
| Fəaliyyət istiqaməti (ilkin istehsal, istehsal, emal, dövriyyə və utilizasiya) | |
| Fəaliyyət növü (fəaliyyət istiqamətləri üzrə ayrı-ayrı proseslər) | |
| **Fəaliyyət sahəsi (m**əhsul və ya xidmət sahəsinin adı) | |
| **Qablaşdırma növləri** | ☐ Kağız ☐ Karton ☐ Taxta ☐ Şüşə<br>☐ Metal ☐ Polipropilen ☐ Polietilen<br>☐ Tetra-pak ☐ Digər _________ |
| **Müraciət edən səlahiyyətli nümayəndə (etibarnamə əsasında)** | Şəxsiyyət vəsiqəsinin seriyası və nömrəsi |
| | Telefon nömrəsi |
| | Elektron poçt ünvanı |
| | Qida subyekti ilə bağlılığı |
| İmza | **Tarix** |

**"Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi,xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası"na 2 nömrəli əlavə**

## Qeydiyyatı tələb olunmayan qida obyektlərinin və subyektlərinin SİYAHISI

1. Yarmarkalar, sərgilər və xeyriyyə tədbirləri çərçivəsində təşkil edilən satış obyektləri.
2. İlkin istehsal sahəsində, pərakəndə satış bazarları daxilində və səyyar satışlar vasitəsilə qida məhsullarını satan ailə kəndli təsərrüfatları.
3. Qurban bayramı üçün təşkil edilmiş müvəqqəti kəsim yerləri.
4. Fövqəladə hallar baş verdikdə qida və yem məhsullarının müvəqqəti saxlanıldığı, hazırlandığı və satıldığı yerlər.

**"Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası"na 3 nömrəli əlavə**

## AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**QİDA SUBYEKTİNİN QEYDİYYATI BARƏDƏ QİDA TƏHLÜKƏSİZLİYİ REYESTRİNDƏN ÇIXARIŞ**

**Qeydiyyat nömrəsi** _____________ **Qeydiyyat tarixi** ______________

| | |
|---|---|
| Qida subyektinin | |
| Adı | |
| VÖEN-i | |
| **Hüquqi ünvanı (fiziki şəxslərə** münasibətdə fəaliyyət və ya qeydiyyat ünvanı) | |
| Fəaliyyət istiqaməti (ilkin istehsal, istehsal, emal, dövriyyə və utilizasiya) | |
| **Fəaliyyət növü (fəaliyyət istiqamətləri üzrə ayrı-ayrı proseslər)** | |
| Fəaliyyət sahəsi (məhsul və ya xidmət sahəsi) | |

Azərbaycan Respublikası
Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətli nümayəndəsi

___________ (imza)

**M.Y.** **QR kod**

**"Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası"na 4 nömrəli əlavə**

## AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**OBYEKTİN QEYDİYYATI BARƏDƏ QİDA TƏHLÜKƏSİZLİYİ REYESTRİNDƏN ÇIXARIŞ**

**Qeydiyyat nömrəsi** _____________ **Qeydiyyat tarixi** ______________

| | |
|---|---|
| Cavabdeh subyektin | |
| Adı | |
| VÖEN-i | |
| Hüquqi ünvanı | |
| Qeydiyyata alınan obyektin | |
| Adı | |
| Faktiki ünvanı | |
| **Fəaliyyət istiqaməti (ilkin istehsal, istehsal, emal, dövriyyə və utilizasiya)** | |
| **Fəaliyyət növü (fəaliyyət istiqamətləri üzrə ayrı-ayrı proseslər)** | |
| Fəaliyyət sahəsi (məhsul və ya xidmət sahəsi) | |

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətli nümayəndəsi ______________________

(imza)

**M.Y.** **QR kod**

**"Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası"na 5 nömrəli əlavə**

## AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ

**QİDA OBYEKTİNİN TƏSDİQİ BARƏDƏ QİDA TƏHLÜKƏSİZLİYİ REYESTRİNDƏN ÇIXARIŞ**

**Təsdiq nömrəsi** _____________ **Təsdiq tarixi** ______________

| | |
|---|---|
| **Cavabdeh qida subyektinin (xarici qida subyektinin)** | |
| **Adı** | |
| VÖEN-i | |
| **Hüquqi ünvanı** | |
| Təsdiq olunan qida obyektinin | |
| Adı | |
| Faktiki ünvanı | |
| **Fəaliyyət istiqaməti (ilkin istehsal, istehsal, emal, dövriyyə və utilizasiya)** | |
| **Fəaliyyət növü (fəaliyyət istiqamətləri üzrə ayrı-ayrı proseslər)** | |
| Fəaliyyət sahəsi (məhsul və ya xidmət sahəsi) | |

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin səlahiyyətli nümayəndəsi ______________________

(imza)

**M.Y.** **QR kod**

Təqdimat







# "Qızılağac Milli Parkı – Xəzər nağılı"

**Dekabrın 30-da Nizami Kino Mərkəzində IDEA İctimai Birliyinin "Azərbaycanın 10 möcüzəsi" xüsusi layihəsi çərçivəsində yeddinci ekran əsəri olan "Qızılağac Milli Parkı - Xəzər nağılı" sənədli filminin təqdimat mərasimi keçirilib.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Filmin təqdimatından əvvəl qonaqlar 2014-cü ildən ərsəyə gətirilmiş 6 sənədli film, "Şirvan Milli Parkı", "Ağgöl Milli Parkı", "Göygöl Milli Parkı", "Ceyranlar", "Abşeron Milli Parkı" və "Şahdağ Milli Parkı" haqqında hazırlanmış video və fotosərgi ilə tanış olublar.

Mərasimdə çıxış edən filmin rejissoru İqor Bışnyov layihənin təşəbbüskarı Leyla Əliyevaya təşəkkürünü bildirib, davamlı və uğurlu şəkildə həyata keçirilən layihənin növbəti filminin çəkiliş prosesindən maraqlı detalları danışıb, ölkəmizin bənzərsiz rəngarəng və təbii gözəlliklərinin olmasını nadir bir xoşbəxtlik kimi qeyd edib.

Filmdə 2018-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılmış Qızılağac Milli Parkının ərazisində mövcud olan qlobal əhəmiyyətli, adları Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş məməlilər, endemik və nəsli kəsilməkdə olan növlər və transsərhəd köçəri heyvanlar, həmçinin ərazi üçün xarakterik olan digər fauna və müxtəlif flora növləri haqqında bəhs edilir.

Tədbirdə 2023-cü il ərzində IDEA İctimai Birliyinin layihələrində könüllü kimi fəal iştirak edən 10 nəfər gənc Leyla xanım Əliyeva tərəfindən təşəkkürnamələrlə təltif edilib.

"Qızılağac Milli Parkı – Xəzər nağılı" filmin təqdimatından sonra Hirkan Milli Parkından bəhs edən və hazırda çəkilişləri davam edən yeni filmin treyleri də nümayiş etdirilib.

IDEA-nın milli parklarla bağlı sənədli filmlər silsiləsi yaratmağında əsas məqsədi Azərbaycanın əsrarəngiz təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaqdır.

**XQ**

# 2023-cü ilin mədəni akkordları

**Qalib xalq kimi Zəfər ruhu ilə yaşadığımız daha bir il arxada qalır. Bakıda, Gəncədə, Sumqayıtda, Mingəçevirdə... duyulan mədəni yüksəliş artıq doğma Qarabağımızda da aşkar duyulur. Azad nəfəs alan torpaqlarımız abad olduqca, doğma sakinlərini qoynuna aldıqca o yerlərə mədəniyyətimiz, incəsənətimiz də daha iri addımlarla qayıdır.**




Müstəqil Azərbaycanın memarı və qurucusu olan Heydər Əliyev Azərbaycanın mədəniyyət siyasətinin banisi kimi də müstəsna xidmətlər göstərib. Ulu öndər mədəniyyəti xalqın böyük sərvəti hesab edirdi. "Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir", – deyən unudulmaz dahi şəxsiyyət hakimiyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişafını diqqət mərkəzində saxlayıb.

2023-cü ilin yekunları öncə unudulmaz dahi şəxsiyyət, xalqımızın Ümummilli lideri Heydər Əliyevin 100 illiyi ilə yadda qalacaq. Bu ilin əsl mədəniyyət ili olduğunu da söyləmək olar. Çox fərəhli haldır ki, müstəqil Azərbaycanın mədəniyyət siyasətini 20 ildir ki, ölkə başçısı, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyev uğurla davam etdirir. Bunu bir daha görmək üçün il ərzində bu sahədə görülən işlərə ötəri nəzər salmaq kifatətdir.

Bir neçə gün əvvəl Bakıdakı Nizami Kino Mərkəzində "Mədəniyyət Könüllüləri" İctimai Birliyinin ilin yekunlarına həsr olunan toplantısında da qeyd olunduğu kimi, cəmiyyətimizin bütün təbəqələrini əhatə edən mədəni tərəqqi ictimai həyatımıza, təşəbbüskarlığımıza, innovativ düşüncə tərzimizə yeni nəfəs verməklə, Azərbaycanın dünyada müsbət imicinin daha da artmasına xidmət edib. Ondan bir həftə əvvəl böyük uğurla keçən "Mədəni irs" Forumunda da uğurlar ətraflı sərf-nəzər edilib. Təsadüfi deyil ki, UNESCO, İSESCO, TÜRKSOY və digər beynəlxalq təşkilatlar səviyyəsində Azərbaycanın yüksək sivilizasiyalı bir ölkə olduğu dönə-dönə etiraf edilib.

İl ərzində "Türk dünyasının mədəniyyət paytaxtı" olan Şuşa şəhərində möhtəşəm mədəni tədbirlər keçirilib. "Xarıbülbül" festivalı,Vaqif Poeziya günləri və digər möhtəşəm tədbirlərin təmtərağı yaddaşlara həkk olunub. Dekabrın 10-da tac-şəhərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və TÜRKSOY-un birgə təşkilatçılığı ilə "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı – 2023" ilinin rəsmi bağlanış mərasimi olub və estafet Türkmənistanın Anev şəhərinə ötürülüb. Yekun olaraq düzənlənən Türk dünyası rəssamlarının Şuşa sergisi təşkilatçıların




yüksək səviyyəsindən soraq verib. Bütün bu tədbirlər Şuşanın mədəniyyət incisi kimi təbliğinə xidmət edib. Yeri gəlmişkən, gələn il üçün də Şuşa İslam dünyasının mədəniyyət paytaxtı seçilib ki, bu da başlıca olaraq dövlətimizin mədəni siyasətinin uğurudur.

Mədəniyyət naziri Adil Kərimli tədbirdə bildirib ki, il ərzində həyata keçirilən fəaliyyətləri təhlil edərkən həm TÜRKSOY təşkilatının institusional təkmilləşməsi, həm də türk dövlətləri arasında mədəniyyət əlaqələrinin inkişafı baxımından bir sıra irəliləyişlərə nail olunduğunu deyə bilərik. Azərbaycan 3-cü "Qorqud Ata" Türk Dünyası Beynəlxalq Film Festivalı, TÜRKSOY Mədəniyyət Nazirləri Daimi Şurasının 40-cı toplantısı və Türk Dünyası Muzeylər Görüşünə evsahibliyi etməklə yanaşı, ilk dəfə gerçəkləşən TÜRKSOY Beynəlxalq Teatr Festivalı və Türk Dünyası Mədəniyyət Forumu da dövlət başçıları tərəfindən mədəni əməkdaşlıq sahəsində qarşımıza qoyulan tapşırıqların uğurla həyata keçirilməsində mühüm rol oynayıb.

Xüsusi vurğulamaq lazımdır ki, işğaldan azad edilmiş ərazilərimizdə mədəni irs nümunələrimizin bərpası prosesi 2023-cü ildə də uğurla davam edib. Bu gün Qarabağ nəhəng tikinti meydanını xatırladır. Dövlət başçısı İlham Əliyev tarixi-mədəni abidələrə ikinci həyat verilməsinə müstəsna qayğısını əsirgəmir. Azərbaycan mədəniyyətinin əsl himayədarı olan Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Şuşada müxtəlif yerli və beynəlxalq mədəni tədbirlər keçirilir, Qarabağın ənənəvi mədəni-mənəvi mühiti yenidən dirçəlir.

Ölkəmizdə kino, teatr, Azərbaycan dili və ədəbiyyatı, musiqi, rəssamlıq üzrə silsilə forumlar təşkil olunub, yaradılan yeni mədəniyyət strategiyası üçün rəy və təkliflər kompleksləşdirilib. Bunlar "Azərbaycan mədəniyyəti – 2040" Konsepsiyasında öz əksini tapacaq.

Ötən il peşəkar Azərbaycan teatrının yaranmasının 150, "Azərbaycanfilm"in 125 illiyi qeyd olunub. Uğurlara nəzər salınıb, qarşıda duran ən mühüm vəzifələr müəyyənləşdirilib. Bakıda dövlət başçısının iştirakı ilə tanınmış bəstəkar Tofiq Quliyevin abidəsinin açılışı olub. Ölkəmizin ilk yaradıcı ali təhsil ocağı olan Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illik yubileyi qeyd edilib. Bununla bağlı Prezident İlham Əliyevin imzaladığı 6 iyul 2023-cü il, eyni zamanda ADMİU-nun bir sıra əməkdaşının mükafatlandırılması ilə bağlı 13 dekabr 2023-cü il tarixli sərəncamları ölkə başçısının mədəniyyətə, incəsənətə və təhsilə diqqət və qayğısının ən gözəl nümunələrindən biridir.

Lap bu günlərdə isə Beynəlxalq Muğam Mərkəzinin (BMM) fəaliyyətə başlamasının 15 illiyinə həsr olunmuş tədbir keçirilib. Orada keçirilən son tədbirlərdən biri Kərkük musiqisi axşamı idi. Məclisdə bildirilib ki, İraq türkmanları ilə tarixi əlaqələrimiz özünü mədəniyyət və musiqidə daha bariz şəkildə göstərib. Heç uzağa getməyək: "Ninnə yarım", "İpək yaylığım", "Gözələ bax" kimi mahnılar həm Kərkük elinin, həm də Azərbaycan xalqının dillər əzbəri deyilmi? Təsadüfi deyil ki, həmin axşam Kərkük elindən əsən musiqi rüzgarı könülləri sevindirib.

Mədəni yüksəliş ab-havası Naxçıvanda, Gəncədə, Lənkəranda, Şəkidə, Şamaxıda – bütün bölgələrimizdə da aşkar duyulur. Festivallar, sərgilər, konsertlər, dəyirmi masalar, yubiley gecələri həyatımıza rəng qatıb.

Üzümüzə gələn il Şərq təqviminə görə Yaşıl Əjdaha ilidir. Əjdaha bu təqvimdə yeganə mifik varlıqdır, mifologiya isə mədəniyyətin bir parçası sayılır. Gəlin, inanaq ki, qarşıdakı il bizə xeyli sevinc bəxş edəcək.

**Ə.DOSTƏLİ**
**XQ**

# IDEA-nın uşaqlara hədiyyəsi

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Sevincini bölüş" kampaniyası çərçivəsində şəhərin müxtəlif yerlərində yerləşdirilən xüsusi ianə qutularından toplanan istifadəyə yararlı oyuncaqlar, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xüsusi qayğıya ehtiyacı olan uşaqlara təqdim edilib.**

Bu barədə IDEA İctimai Birliyindən bildiriblər.

Sözügedən qutulara toplanılan oyuncaqlardan ibarət hazırlanan yüz ədəd hədiyyə qutusu "Ümid yeri" uşaq sığınacağındakı azyaşlı uşaqlara paylanılıb.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların hədsiz sevincinə səbəb olan, onlara təbəssüm dolu gülüşlər bəxş edən, bayram abu-havası yaradan bu təşəbbüsə dəstək verən və kampaniyanın uğurla həyata keçməsində fəal olan hər bir iştirakçıya IDEA İctimai Birliyi minnətdarlığını bildirir.



Bu xüsusda, IDEA İctimai Birliyi şəhərimizin sakinlərini öz "sevincini bölüşməyə", evlərində olan istifadəsiz, yararlı və saf qalan oyuncaqlarını tullamaq əvəzinə IDEA-nın ianə qutularına yerləşdirməklə ehtiyacı olan uşaqlara öz yardım əlini uzatmağa, eyni zamanda, həmin oyuncaqlara "ikinci həyat" verməklə təbiətə vurulan zərəri azaltmağa çağırır.

**XQ**

Oxucularla görüş

# Mühacir yazıçının Vətən hesabatı

**31 Dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Cəfər Cabbarlı adına Respublika gənclər kitabxanasında keçirilən mərasimdə Moskvada yaşayan tanınmış yazıçı Ulduz Qasımın son yaradıcılıq hesabatı olan yeni 2 romanı ölkənin ədəbi-mədəni ictimaiyyətinə təqdim edildi.**



Məclisin aparıcısı "Kredo" həftəliyinin baş redaktoru, şair-publisist Əlirza Xələfli Ulduz Qasımın yaradıcılığı barədə qələmə aldığı irihəcmli "Yazıçının Vətən dağı" kitabından çıxış edərək mühacir ədibin son 10 ili əhatə edən məhsuldar yaradıcılığı və yeni işıq üzü görmüş "Maral" və "Badamgözlü" romanları barədə yığcam məlumat verdi. O, bildirdi ki, Bakıda ali jurnalistika təhsili almış Ulduz Qasım ailə həyatı ilə bağlı 1985-ci ildən Rusiyada yaşasa da, heç vaxt Vətənlə əlaqəsini kəsməmişdir. O, Cəbrayıl rayonundan məcburi köçkün düşmüş doğmalarının timsalında Qarabağ faciəsinin bütün ağrı-acılarını dərindən yaşamışdır.

Ermənі vandallarının Qarabağda törətdikləri vəhşiliklər və sonda qəhrəman oğullarımızın insanlıq simasını itirmiş düşmənləri darmadağın edərək yurdumuzdan qovub çıxarması Ulduz Qasımın yaradıcılığında "Mən aşiqəm Qarabağda", "Xocalı şikəstəsi", "Açılmayan sirlər", "Solmayan Nərgiz","Ağ göyərçinlər", "Qarabağda qiyamət" kimi silsilə romanlara mövzu olub. Müəllifin "Tələbə gündəliyi", "Qürbət Zöhrəsi", Qaçaq Aslan" əsərləri də soydaşlarımızın acılı-şirinli taleyindən bəhs edir.

AMEA Ədəbiyyat İnstitutunun şöbə müdiri, professor Qurban Bayramov Ulduz Qasımın təqdim edilən yeni kitabları barədə söz açaraq qeyd etdi ki, yazıçının Vətənə növbəti səfərində oxuculara layiqli töhfəsi olan "Badamgözlü" və "Maral" romanları əvvəlki yaradıcılığının ideya-mənəvi davamı sayıla bilər. Hər iki əsər çağdaş Azərbaycan gerçəkliyinin ədəbi-bədii salnamələri təsiri bağışlayır. Ümumiyyətlə, Ulduz Qasımın nəsrində həyat bütün əlvanlığı və təbiiliyi ilə əks olunduğundan çağdaş ədəbi realizmin yeni nümunələri kimi diqqəti cəlb edir.

Ədəbiyyatşünas professorlar İslam Qəribli və Aslan Salmansoy, fəlsəfə doktorları Fazil Füney və Namiq Qədimoğlu, Əməkdar jurnalistlər Tahir Aydınoğlu və Əntiqə Qonaq, eləcə də digər çıxış edənlər Ulduz Qasımın yaradıcılığının mövzu, ideya, sənətkarlıq, dil-üslub məsələləri ilə bağlı mülahizələrini söylədilər. Natiqlər yazıçı soydaşımızı istedadlı və məhsuladar qadın nasir kimi səciyyələndirdilər, ona yeni yaradıcılıq uğurları dilədilər.

Sonda deyilən xoş sözlərə görə razılığını bildirən Ulduz Qasım bundan sonra da doğma Vətənə qələmi ilə xidmət edəcəyini söylədi. Yazıçı xalqımızı Həmrəylik günü və Yeni il bayramı münasibətilə səmimi təbrik etdi, ölkəmizə əmin-amanlıq və yeni qələbələr arzuladı.

**T.RÜSTƏMLİ**
**XQ**




**Əziz xalqımız!**

**“Mətanət A” Şirkətlər Qrupu sizi milli birliyi və Vətənə məhəbbəti özündə cəmləşdirən 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və qarşıdan gələn 2024-cü il münasibətilə təbrik edir, sağlam həyat, xoş ovqat, tərəqqi və müvəffəqiyyətlər arzu edir!**

**Yeni iliniz uğurlu olsun!**

Dostluq meridianı

# Biz mehriban ailəyik!

**Həyatımıza yeni, 2024-cü il daxil olur. Xoşbəxtlikdən son illər xalqımız və dövlətimiz üçün bir-birindən uğurlu gəlir. 2024-cü il də böyük tarixi qələbə ilə yaddaşlara yazılıb. Belə ki, Xankəndi və ətrafındakı əzəli torpaqlarımız sentyabrın 19-da başlayan və 23 saat davam edən uğurla antirerror əməliyyatı nəticəsində düşməndən azad edilib.**



Beləliklə, Azərbaycanın ərazi bütövlüyü tam təmin olunub. 3 il əvvəl 44 günlük şanlı savaşda qazandığımız Tarixi Zəfər sayəsində düşmən əsarətindən qurtulan Şuşada, eləcə də Qarabağın digər şəhər və bölgələrində ilboyu geniş miqyaslı tikinti-quruculuq işləri davam etdirilib.

Möhtərəm Prezidentimiz İlham Əliyevin imzaladığı “Böyük Qayıdış” proqramı çərçivəsində 30 il yurd, torpaq nisgili çəkən qaçqın ailələrinin bir qismi artıq doğma yurdlarına qayıdıb. Orada bu ailələr üçün hər cür şərait yaradılıb. Zərrə qədər şübhə etmirəm ki, ən yaxın aylar, illər ərzində digər ailələr də ata-baba yurdlarına qayıdacaqlar.

Bu gün Qarabağda görülən işlərin miqyası və vüsəti hər kəsi heyran edir. Amma, təkcə Qarabağ deyil, Azərbaycanın hər yerində böyük tikinti-quruculuq, abadlıq işləri görülür, yeni müəssisələr açılır, iş yerləri yaradılır. Azərbaycanın şimal bölgəsində, eləcə də bizim Qusar rayonunda da son illər böyük miqyaslı quruculuq işləri həyata keçirilir.

Rayonda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı istiqamətində uğurlu göstəricilər əldə olunur. Rayonda, eyni zamanda çox sayda infrastruktur layihələri icra olunur. Qusarda son illər rahat, yaraşıqlı yollar çəkilib. Bütün bunlar Qusar sakinlərində dərin razılıq hissi, vətəndaş məmnunluğu yaradır, hər kəsdə sabaha ümidləri gücləndirir.

Bu gün Azərbaycan böyük və mehriban bir ailəyə bənzəyir. Böyük qürur hissi ilə deyə bilərəm ki, Azərbaycan və ləzgi xalqları arasında dostluq və qardaşlıq əlaqələri tarixən güclü və sarsılmaz olub. Bu dostluq bizim böyük sərvətimizdir. Tamamilə əminəm ki, gələcək nəsillər bu gözəl ənənəni böyük ləyaqət və şərəf hissi ilə davam etdirəcəklər.

Mən uzun illər Qusar rayonunda bir çox məsul vəzifələrdə çalışmışam. Bütün qəlbim və varlığımla Ulu öndər Heydər Əliyevin, eləcə də müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin müdrik daxili və xarici siyasətinə hər zaman sadiq olmuşam. Azərbaycanın son illərdəki uğurları məni çox sevindirir.

Qarşıdan 2024-cü il və 31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəylik Günü gəlir. Hər bir bayram yeni arzular, təzə ümidlər deməkdir. 76 yaşlı bir ağsaqqal kimi xalqımızı ürəkdən təbrik edir, hər bir Azərbaycan vətəndaşına uğur və səadət arzulayıram. Bayramınız mübarək, dostlar!



**Mayıl BAĞIROV,**
**təqaüdçü, Qusar rayonu**

# 2023-cü ilin iqtisadi kardioqramı



**Başa çatmaqda olan 2023-cü ildə ölkə iqtisadiyyatında islahatlar uğurla davam etdirilib, biznes və investisiya mühiti daha da yaxşılaşdırılıb, əhalinin rifahının əhəmiyyətli dərəcədə yüksəldilməsi istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə iqtisadiyyatın şaxələndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, qeyri-neft özəl sektorun təşviqi və qeyri-neft ixracının artırılması, kiçik və orta sahibkarlığın dəstəklənməsi ilə bağlı çoxşaxəli layihələr gerçəkləşdirilib.**

## İnkişaf, artım, yüksəliş yönləri:

***– ölkəmizin strateji valyuta ehtiyatları 16,6 faiz artaraq 68,2 milyard dollara yüksəlib;***

***– ölkəmizin ümumi daxili məhsulunda (ÜDM) özəl sektorun payı 86,5 faiz, məşğulluqdakı payı isə 78 faizdən çox olub;***

***– sahibkarlıq subyektlərinin 99,6 faizi kiçik və orta biznes strukturunda qeydə alınıb;***

***– qeyri neft-qaz sektorunda əlavə dəyər 3,2 faiz artıb;***

***– iqtisadiyyatın şaxələndirilməsi və ixrac potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlər nəticəsində qeyri-neft-qaz sektorunun ixracı ötən ilin müvafiq dövrü ilə müqayisədə 10,5 faiz artaraq 3 milyard dollara çatıb;***

***– Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə vergi daxilolmalarının həcmi ötən illə müqayisədə 4,1 faiz artaraq 15 milyard 338 milyon manat olub;***

***– qeyri-neft-qaz sektorundan vergi daxilolmaları isə ötən illə müqayisədə 18,9 faiz artaraq 9 milyard 15,8 milyon manat təşkil edib.***

Hesabat ilində neft-qaz sektorunda da uğurlu nəticələr qeydə alınıb. Belə ki, cari ilin 11 ayında operativ məlumatlara əsasən, neft-kondensat hasilatı 27,6 milyon ton, ixracı isə 23,1 milyon ton olub. Bu dövrdə 3,6 faiz artımla hasil edilən 44 milyard kubmetr qazın 22,5 milyard kubmetri ixrac edilib.

Yanvar–noyabr aylarında qaz ixracı 9 faiz artıb. Avropaya 10,85 milyard kubmetr, Türkiyəyə 8,7 milyard kubmetr, Gürcüstana isə 2,5 milyard kubmetr qaz ixrac olunub. Bu dövrdə TANAP-la Türkiyəyə 5,1 milyard kubmetr “mavi yanacaq” nəql edilib.

Respublikada elektrik enerjisi istehsalında da müsbət nəticələr əldə edilib. Belə ki, 11 ayda elektrik enerjisi istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 223 milyon kVt-st, yəni 0,8 faiz artaraq 26 milyard 487 milyon kVt-st olub.

Bu müddətdə elektrik enerjisi istehsalı istilik elektrik stansiyalarında (İES) 24 milyard 525 milyon kVt-st, su elektrik stansiyalarında (SES) 636 milyon kVt-st, digər mənbələr üzrə isə 326 milyon kVt-st təşkil edib. İlin 11 ayında külək elektrik stansiyalarında (KES) 54,3 milyon kVt-st, günəş elektrik stansiyalarında (GES) 69,7 milyon kVt-st, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 202 milyon kVt-st elektrik enerjisi istehsal olunub.

Hesabat dövründə elektrik enerjisinin istehsalı “Azərenerji” ASC üzrə 23 milyard 895 milyon kVt-st (İES-lərdə 22 milyard 363 milyon kVt-st, SES-lərdə 1 milyard 532 milyon kVt-st), Naxçıvan MR Dövlət Energetika Xidməti üzrə 444,2 milyon kVt-st (İES-lərdə 295 milyon kVt-st, SES-lərdə 91 milyon kVt-st, GES-də 57,8 milyon kVt-st), “Azərişıq” ASC üzrə külək elektrik stansiyalarında 40 milyon kVt-st, müstəqil elektrik stansiyaları üzrə isə 2 milyard 108 milyon kVt-st təşkil edib.

Sənayenin inkişafına müsbət təsir göstərən əhəmiyyətli mexanizmlərdən biri dövlət başçısının təşəbbüsü ilə sənaye parkları və məhəllələrinin yaradılmasıdır. Hazırda ölkədə 7 sənaye parkı (Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl rayonunda “Araz Vadisi İqtisadi Zonası” sənaye parkları), 5 sənaye məhəlləsi (Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri) fəaliyyət göstərir. Adlarıçəkilən sənaye zonalarında investisiya həcmi 7 milyard manatdan çox olan 138 sahibkarlıq subyektinə rezidentlik statusu verilib. İndiyədək sənaye zonalarına 6,6 milyard manat investisiya yatırılıb və 11 mindən çox daimi iş yeri yaradılıb.

Növbəti mərhələdə sənaye zonalarına mövcud layihələr üzrə 864 milyon manat investisiyanın yatırılması, 6700-dən çox daimi iş yerinin açılması nəzərdə tutulur. Sənaye zonalarında indiyədək, ümumilikdə, 11,1 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 3,6 milyard manatlıq hissəsi ixrac olunub. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 60-dan çox ölkəsinə ixrac edilib.

Hesabat ilində kənd təsərrüfatında həyata keçirilən islahatlar daha da dərinləşib, aqrar sahəyə dövlət dəstəyi mexanizmi təkmilləşdirilib və kənd təsərrüfatı istehsalçılarına verilən birbaşa subsidiyaların əhatə dairəsi genişləndirilib. Yanacaq və motor yağlarına, mineral gübrələrin, pestisidlərin satışına, toxum və tinglərin istehsalı və satışına, buğda və çəltik əkinlərinə, təkrar əkinlərə, pambıq və şəkər çuğunduru satışına görə subsidiyaların verilməsinə başlanılıb.

Həmçinin torpaq-iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəltmək üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il iyulun 9-da imzaladığı “Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında” Fərmanla yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə, artıq cari ildən pivot suvarma tətbiq edilməklə istehsal olunaraq Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının da ödənilməsinə başlanılıb.

Həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, aqrar sektorda istehsal göstəricilərinin yüksəlməsi davamlı xarakter alıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin 11 ayında ölkəmizdə 11 milyard 571 min manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz çoxdur.

Beləliklə, Azərbaycanda ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə müəyyənləşdirilən vəzifələrə uyğun olaraq bu il də kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikası qeydə alınıb. İlin ötən 11 ayında aqrar sahə 3 faizdən çox böyüyüb, bitkiçilikdə 2,5 faiz, heyvandarlıqda 3,5 faiz artım olub.

Yeri gəlmişkən, cari il dekabrın 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 3 milyon 223 min ton və yaxud ötən ilin eyni dövrünə nisbətən 2,9 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 813 min ton (0,1 faiz çox) tərəvəz, 1 milyon 249 min ton (0,1 faiz çox) meyvə və giləmeyvə, 223 min ton (5,3 faiz çox) üzüm, 1 milyon 124 min ton (12,3 faiz çox) yaşıl çay yarpağı, 29,2 min ton (1,3 faiz çox) günəbaxan, 213,5 min ton (4,8 faiz çox) şəkər çuğunduru yığılıb.

Cari ilin yekunları barədə danışarkən qeyd edək ki, hesabat dövründə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aparılan bərpa-quruculuq layihələrinin icrası da diqqətdə saxlanılıb. Düşməndən təmizlənən ərazilərdə dövlət büdcəsindən 11,2 milyard manatdan çox vəsait ayrılıb. Bu maliyyə hesabına cari il azad edilmiş rayon və şəhərlərdə bir sıra iri infrastruktur obyektləri istifadəyə verilib. Artıq Laçın şəhərinə və rayonun Zabux kəndinə, Tərtərin Talış kəndinə, Füzuli şəhərinə doğma sakinlərin qovuşması, eləcə də Zəngilana 2022-ci ildə başlanmış geridönüşün növbəti mərhələsi gerçəkləşib.

Hazırda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələri uğurla icra edilir. Dəmir və avtomobil yollarının çəkilişi, elektrik enerjisi, su təchizatı məsələləri, meliorativ tədbirlərlə bağlı layihələr reallaşdırılır. İki hava limanı artıq fəaliyyətdədir, üçüncü isə tikilir. Müasir beynəlxalq standartlar əsasında istifadəyə verilən aeroportlar nəinki iqtisadi, həm də geosiyasi və geoiqtisadi baxımdan region ölkələri arasında Azərbaycanın nüfuzunu daha da gücləndirir. Ən diqqətçəkən məqam isə Azərbaycan dövlətinin bütün bu və ya digər layihələrin həyata keçirilməsinə çəkdiyi xərcləri daxili imkanlar hesabına reallaşdırmasıdır.

Beləliklə, işğaldan azad olunan ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyasından, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcək. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən olunmasında rolunu daha da möhkəmləndirəcək.

*

2024-cü ilin strateji vəzifələrinə gəldikdə isə vurğulayaq ki, bu dövrdə hökumət qarşısında bir sıra hədəflər müəyyənləşdirilib. Bunlar qeyri-neft əmtəə və xidmət ixracının əhəmiyyətli dərəcədə genişləndirilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və “kölgə iqtisadiyyatı”nın səviyyəsinin minimuma endirilməsindən ibarətdir.

**Vaqif BAYRAMOV**
**XQ**




Yaddaşlarda yaşayanlar

# Yazıçı dostların bir-birindən "umacağı"

**Firudin Ağayev və Nahid Hacızadəni uzun illər teleekrandan tanısam da, sonralar uğurlu və uzunmüddətli şəxsi tanışlığımız da oldu. Firudin müəllimi ötən əsrin səksəninci illərinin əvvəllərində, Nahid müəllimi isə həmin onilliyin sonunda tanımışdım.**





... İnstitutda diplom işimin mövzusu tanınmış bir ədəbi əsər əsasında təşkil ediləcək mədəni-kütləvi tədbir üçün ssenari yazmaq və həmin tədbiri geniş ictimaiyyətə təqdim etməkdən ibarət idi. Mən Firudin Ağayevin "İldırım dənizdə çaxır" romanını götürdüm. Ssenarini yazdım. Rejissor tapdım, aktyorları cəlb etdim və neftçilərin Bayıldakı Mədəniyyət Sarayında İncəsənət İnstitutu təmsilçilərinin, roman müəllifinin, Dənizçilik Məktəbi müdavimlərinin və ictimaiyyət nümayəndələrinin iştirakıl ilə "İldırım işığında" adlı bir tədbir keçirdik.

Tədbirin adı Firudin müəllimin xoşuna gəlmişdi. Aktyor elə başlanğıcda demişdi ki, çox zülmətləri bir andaca aydınlaşdıran ildırım işığı ani olsa da, qarşısını heç kəsin ala bilməyəcəyi ən güclü işıqdır. Bu giriş roman müəllifini məmnun eləmişdi. Sonradan uzun müddət görüşlərimiz, salam- kəlamımız olmuşdu. Çox yaxşı söhbətlərini, xatirələrini eşitmişdim. Danışırdı ki, televiziyadakı şöbəmizə (Firudin müəllim radioda da işləmişdi) Mailə Muradxanlı ad-soyadlı bir gənc qız göndərmişdilər. İlk yazılarından məlum idi ki, qabiliyyətlidir. Amma bəzi yazılarını bir bəhanə ilə geri qaytarırdım ki, özünə çox arxayın olmasın. Bir yazısını da oxudum və özünə qaytararaq dedim ki, məzmun yaxşıdır, amma yazını bir az da isit, yəni daha bədii, qəlbə toxunan, həssas, kövrək olsun. Yazını aparıb qaynayan elektrik çaynikinin üstünə qoydu və mənə, sanki, acıqlı-acıqlı baxıb dedi: "Sənə bu da azdır!".

Nahid Hacızadəni isə Respublika "Bilik" Maarifçilik Cəmiyyətinin təsis etdiyi "Dalğa" qəzetindən tanıdım. Bu qəzet rəhmətlik Elşad Quliyevin təşəbbüsü ilə Dövlət Televiziyasında yaradılmış məşhur "Dalğa" verilişinin yazılı davamı kimi işıq üzü görmüşdü. Nahid müəllim məni müəllimlikdən həmin qəzetə gətirmişdi.

... Qərəz, aralarında üç yaş fərqi olan ( Firudin müəllim 1933-cü ildə, Nahid müəllim isə 1936-cı ildə doğulmuşdu) bu iki televiziya əməkdaşı səmimi və sədaqətli dostlar idi. Hər ikisi həm ədəbiyyata bağlı idi, həm də ekrana, efirə. Hər ikisi həm səmimi idi, həm də təvazökar. Ancaq... bir-birindən ciddi "umacağı" olubmuş. Bunu hər ikisindən şəxsən eşitmişdim.

Firudin müəllim deyirdi ki, Yeni il münasibətilə Lənkəranda keçirilən tədbirdən sonra açılan süfrəyə ləvəngi və ağ balıq kababı başda olmaqla, dörd-beş cür balıq yeməkləri düzülmüşdü. Nahid əlli qram araqdan sonra soruşdu ki, bəs kartof yoxdur? Ona kartof da təşkil elədik.

Nahid müəllimin danışdığı hadisənin də tarixçəsi maraqlı idi:

– Gədəbəydə rayon rəhbərləri bizə zəngin bir bayram süfrəsi açmışdılar. Firudin mənim yanımda əyləşmişdi. Buxarlanan "kəlafur"un və onun yanındakı naz-nemətin ətri ətrafı götürmüşdü. O yemək soyumamış məclisə Gədəbəyin "kilo kababı"nı daşıdılar. Firudin raykom işçiləri eşitməsinlər deyə, xəlvətcə məndən soruşdu: "Bəs balıq olmayacaq?"

Allah hər ikisinə rəhmət eləsin! Səmimi insanlar unudulmurlar.

**İttifaq MİRZƏBƏYLİ**
**XQ**

# Türkiyə Superkuboku niyə təxirə salındı?

**Dekabrın 29-da Türkiyənin nüfuzlu iki futbol klubu – "Qalatasaray" və "Fənərbaxça" komandaları arasında Superkubok uğrunda oyun keçiriməli idi. Lakin oyuna az vaxt qalmış məlum oldu ki, qarşılaşma təxirə salınır. Matçın təxirə salınmasının səbəbinin də Səudiyyə Ərəbistanı rəsmilərinin klublara bəzi qadağalar qoyması ilə bağlı olduğu bildirilir. Hər iki klub artıq Türkiyədədir, oyunun keçiriləcəyi məkan və yer müzakirə edirir. Variantlardan biri kimi də Xankəndi stadionu təklif olunur.**



"Qalatasaray" və "Fənərbağça" komandaları arasında oynanılması planlaşdırılan Türkiyə Superkuboku uğrunda oyunun təxirə salınmasını Türkiyə Futbol Federasiyası (TFF) və hər iki klubun yaydığı birgə bəyanatda bildirilib. Qeyd olunub ki, təşkilatçılıqdakı bəzi çatışmazlıqlar səbəbindən klublarla birgə qəbul olunan ortaq qərar nəticəsində qarşılaşma başqa tarixə keçirilib. Bəyanatda vurğulanıb ki, TFF Superkubok matçının təşkilində indiyədək göstərdiyi səylərə görə ev sahibi ölkənin Futbol Federasiyasına və müvafiq qurumlara təşəkkür edir. Bəs matçın təxirə salınmasının səbəbi nə olub?

Türkiyə mətbuatı yazır ki, oyundan saatlar öncə Səudiyyə Ərəbistanı türklərə (klub və azarkeşlər) Mustafa Kamal Atatürkün şəkli əks olunan pankart, banner və formalarla meydana çıxa bilməyəcəklərini bildirib. Matçın başlaması nəzərdə tutulan vaxta dəqiqələr qalsa da, start heyətlər açıqlanmayıb, komandalar stadiona gəlməyib. Bunun ardından Türkiyə gənclər və idman naziri Osman Aşkın Bak, Türkiyə Futbol Federasiyasının prezidenti Mehmet Büyükekşi, "Fənərbağça" prezidenti Ali Koç və "Qalatasaray" rəhbəri Dursun Özbek arasında gedən danışıqlar nəticəsində komandalar İstanbula qayıtmaq qərarı alıb. Klublar və TFF ortaq bəyanat yayaraq, oyunun gələcək tarixə təxirə salındığını açıqlayıblar.

Baş verənlərlə bağlı matçın təşkilatçısı "Riyad Seson" da açıqlama yayıb. Açıqlamada bildirilir ki, oyunun beynəlxalq futbol qaydalarına və idman növünün əhatə dairəsindən kənar şüarlar olmadan keçirilməsi istənilib. Səudiyyə Ərəbistanı şirkəti vurğulayıb ki, Türkiyə dövlət himninin səsləndirilməsi və stadionda və tribunalarda türk bayraqlarının nümayiş etdirilməsi ilə bağlı da razılığa gəlinib, lakin türk komandaları başqa qərar qəbul ediblər.

İstənilnə halda oyunun təxirə salınması səbəbləri Türkiyədə, eləcə də digər ölkələrdə böyük əks-səda doğurub. Qardaş ölkənin nəinki idman mütəxəssisləri, hətta siyasi ekspertləri də fəal şəkildə məsələyə münasibət bildirirlər. Arzu edək ki, məsələ ciddi siyasi çalar almasın. Hazırda dünyada müşahidə edilən geosiyasi qarışıqlıq vəziyyətində iki müsəlman ölkəsinin münasibətlərinə mənfi təsir göstərəcək amillərə yol verilməməlidir.

Qaldı ki, təxitə salınmış oyunun harada keçirilməsinə, bununla bağlı bir sıra təkliflər irəli sürülür. Türkiyəli siyasətçi Sinan Oğan "Fənərbaxça" və "Qalatasaray" arasındakı Superkubok matçının Xankəndidə keçirilməsini təklif edib. O, bu barədə öz "X" hesabındakı paylaşımında bildirib: "Əgər xarici ölkədə oynamaq istəyirsinizsə, Xankəndi stadionunu məsləhət görürəm. Əks halda, final Türkiyə paytaxtına yaraşır".

**S.ELAY**
**XQ**

Cavad xanın şəhadətindən 220 il keçir

# Gəncənin şəhid xanı

**Gəncədə Cavad xan türbəsi, Cavad xan dəftərxanası, Cavad xan qəsəbəsi, Cavad xan küçəsi, Cavad xan tamaşası, Cavad xan təqaüdçüsü var... Amma vaxt olub ki, onun adını nəinki Gəncədə, ölkənin heç bir yerində dilə gətirməyə belə qorxublar.**



Cavad xan Gəncə xanlığının sonuncu hökmdarı, böyük Azərbaycan sərkərdəsi və dövlət xadimi idi. Gəncənin qeyrət rəmzi hesab edilən böyük sərkərdə qədim şəhərdə XVI əsrdən hökmranlıq edən Ziyadoğlular nəslindəndir. O nəsildən ki, əcdadları ilk doqquz Qızılbaş tayfasından biri olan Qacarların əsas qollarından biri idi.

1786-cı ildən Gəncəni idarə edən, "Gəncəyə yalnız meyidimin üstündən keçə bilərsiniz", – deyən Cavad xan, 1804-cü il yanvarın 3-dən 4-nə keçən gecə general Pavel Sisianovun başçılığı ilə uzun müddət şəhəri mühasirədə saxlayan rus işğalçı qoşunları ilə mübarizədə hətta düşmənlərinin belə etiraf etdiyi bir qəhrəmanlıqla, oğlu ilə birlikdə həlak olub.

Xanın 150 ildən sonra təsadüf nəticəsində tapılan məzarının tarixcəsi maraqlıdır. Belə ki, Xanlıqlar dönəmində Şah Abbas məscidinin həyəti Qacarlar qəbiristanlığı idi. Ziyadoğlu nəslindən Məmmədqulu xan Məmmədəli bəy oğlunun, Hüseynqulu xan Kəlbəli xan oğlunun, Cavad xan Şahverdi xan oğlunun, Hüseynqulu ağa Cavad xan oğlunun və Qacarlar nəslinin başqa adlı-sanlı vətənsevərlərinin türbə və qəbirləri hələ 1925-ci ilin iyununda indiki fəvvarələrin yerində qalırdı.



SSRİ dönəmində məscidin həyətində fəvvarə inşa etmək məqsədi ilə aparılan qazıntılar zamanı təsadüfən ekskavator nəyəsə ilişir və qazıntılar təcili olaraq dayandırılır. Ərazidən üstü ərəb dilində yazılan baş daşı və məzar çıxarılır. Yazılar oxunarkən məzarın şəhid Gəncə xanı Cavad xana aid olduğu məlum olur. Baş daşında bu sözlər yazılırdı:"Bu məzarda Gəncə bəylərbəyi, Qacar tayfasından olan Ziyadoğlu Cavad xan uyuyur."

Məsələni dərhal şəhər icraiyyə komitəsinin sədri Ələsgər Əlizadəyə danışırlar. O, qəbrin Cavad xana aid olduğunu bilib, məzarın "Səbiskar" qəbiristanlığına aparılmasına göstəriş verir. Gəncəlilər xanın qalıqlarını Mirzə Adıgözəl bəy Qarabağinin nəvəsi Əsgər ağa Goraninin türbəsində gizli qoruyub saxlayırlar.

Ələsgər Əlizadə müsahibələrinin birində deyirdi: "Şəhərin azadlığı uğrunda öldüyünü bilirdim. Amma 60-cı illərdə onun adını çəkmək xətalıydı. "Səbiskar"a köçürülməsinə göstəriş verdim. Çalışdıq ki, bu işi mümkün qədər səs-küysüz görək, gizli qalsın, "yuxarı"lara xəbər çatmasın. Xəbər tutsaydılar, bəlkə də məni işdən çıxarıb həbs edərdilər. …Əsas qəbri qorumaq lazım idi. Gələcək nəsil, tarix məni bağışlamazdı".

Cavad xanın nəşinin qalıqları 1990-cı llədək Goraninin türbəsində qalır. Azərbaycanda milli azadlıq hərəkatı başlananda Gəncə əhalisinin ilk tələblərindən biri məhz xanın öz yerində dəfn olunması olur. 1990-cı il martın 22-də onun nəşinin qalıqları özünün məzarında yenidən dəfn olunur. Sovet hakimiyyəti son günlərini yaşasa da, tam çökməmişdi, Yanvar qırğını da təzəcə olmuşdu. Ona görə də Cavad xanın qəbrini öz yerində yox, məscidin qərb tərəfində, gözdən uzaq yerdə qazırlar. Amma şəhər əhalisi razı olmur. 1963-cü ildə xanın sümüklərini tapan adamlardan sağ qalanlar tələb edirlər ki, sümükləri haradan götürmüşüksə, orada da dəfn etməliyik. Əhalinin təzyiqiylə Cavad xan üçün elə öz məzarında yer qazılır və xan yenidən çöx böyük izdihamla canını qurban verdiyi torpağa tapşırılır…

Həmin gün yaxşı yadımdadır. Dəfndə 80 minə yaxın gəncəli iştirak edirdi. Xanın tabutunu "Səbiskar" qəbiristanlığından Şah Abbas məscidinədək, təxminən 4 kilometr yolu insanlar çiyinlərində piyada gətirdilər.

Adamlar, xüsusilə yaşlı adamların ağlaması hələ də gözlərim önündədir. Ancaq bu göz yaşları sevinc göz yaşları idi.

Cavad xanın məzarına mərmərdən başdaşı qoyulub. 2004-cü ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xanın qəbrinin üstündə məqbərə tikilməsinə dair göstəriş verib. Tezliklə Heydər Əliyev Fondunun dəstəyi ilə məzarın üstündə xana layiq türbə inşa edilərək, xatirəsi əbədiləşdirilib. Türbə Arran memarlıq məktəbi üslubuna uyğun bişmiş kərpicdən, dördkünc formada inşa edilib və üstü gümbəzlə örtülüb. Əski baş daşı isə qiymətli eksponat kimi Gəncə Tarix Diyarşünaslıq Muzeyində saxlanılır.

Şəhərdə Xanın adını yaşadan digər bir abidə Cavad xan dəftərxanası — XVIII əsrdə Gəncə xanı Cavad xanın göstərişi ilə tikilmiş tarixi binadır. 1968-ci ildən Ölkə əhəmiyyətli tarixi abidə kimi qorunur. Bina 2012 aprelin 4-də yenidən tikilib.

Cavad xanın dövründə binada Usuf bəyin rus dili məktəbi fəaliyyət göstərib. Sovet dövründə gürcü şairi Nikolaz Baratişvilinin ev muzeyi kimi də istifadə olunub. 2012-ci ilə qədər Cavad xanın dəftərxanası muzey kimi fəaliyyət göstərib. Tarixi abidə Nazirlər Kabinetinin 2 avqust 2001-ci il tarixli Qərarı ilə ölkə əhəmiyyətli tarix və mədəniyyət abidəsi kimi qeydə alınıb.

Gəncədəki Cavad xan küçəsini isə bəzən Bakının mərkəzindəki "Torqovı" küçəsinə bənzədirlər. Küçənin tamamilə yenidən qurulması, burada ciddi təmir-bərpa işlərinin aparılması ona əlavə gözəlliklər gətirib.

Gəncə xanının keçdiyi qəhrəmanlıq yolunu özündə əks etdirən "Cavad xan" tamaşası da onun adının yaşadılmasına böyük töhfədir. Hələ ilk dəfə 1991-ci ildə yazıçı-dramaturq Nüşabə Əsəd Məmmədlinin eyni adlı pyesi əsasında tamaşaya qoyulan əsər, 2 il öncə yeni quruluşda Gəncə Dövlət Dram Teatrının səhnəsində oynanılıb və böyük uğur qazanıb.

...Artıq neçə illərdir ki, hər il yanvarın 4-də minlərlə Gəncə sakini öz qəhrəman oğlunun xatirəsini yad etmək üçün onun məzarı başına toplaşır, ruhuna dualar oxuyur. Bundan sonra gənclər mərkəzi prospekt boyu yürüş edirlər.

Bəli, tarix göstərir ki, Vətən, torpaq uğrunda canından keçənlər heç vaxt unudulmur, xalqın qəlbində əbədi yuva salırlar.

**Hamlet QASIMOV,**
**XQ-nin bölgə müxbiri**

**Gəncə**






# Yeni il niyə qışdan başlayır?

**Hər il Yeni il ərəfəsində cəmiyyətimiz iki cəbhəyə bölünür: Yeni il bayramını keçirənlərə və bu bayramı xristian bayramı adlandıranlara. Mübahisələr kəsilmir. 25 dekabrda keçirilən "Rojdestvo" bayramı bizim mentalitetə yaddır şüarları səslənir. Bəs miladi təqvimi nədən qışda başlayır?**



Bildiyimiz kimi, Hicri-qəməri təqvimində Ayın Yer kürəsi ətrafında dövr etməsi əsas olaraq götürülüb.

Bu gün işlətdiyimiz rəsmi təqvim, yəni Miladi təqvim isə Yer kürəsinin Günəş ətrafında dövrü üzərində qurulub.

Hər il dekabrın 22-də Gün dönümü baş verir. Yer kürəsinin şimal bölgələrində görünən Günəş, ən aşağı vəziyyətə çatandan sonra, üfüqdə 3 gün dəyişməz qalır və dördüncü Gün yuxarı qalxır. Beləliklə, 22 dekabr ilin ən uzun gecəsi olur. Bu hal 3 gün davam edir və 25 dekabrdan başlayaraq günlər uzanmağa başlayır.

Əslində, bu Günəşin doğuşu deməkdir. Necə ki hər ay, göydə Ayın ilk hilal formasında gördüyümüz gecəni, ayın ilk günü sayırıq və "Ay doğdu" deyirik. Beləcə də bu dövrdə Günəş enerji toplayaraq yeni dönəmə başlayır – bir il davam edən bir dönəmə. Bu üç gün mühüm astroloji hadisədir.

Miladdan öncə Şimal yarımkürəsində bir sıra xalqlar qədim inanclara görə, 25 dekabrı Günəş Tanrısının günü kimi qeyd edirdilər. Bu günü həm də Yeni il kimi, yeni həyatın başlanğıcı kimi, işıqlı gündüzün qaranlıq gecə üzərindəki qələbəsi kimi qeyd edirdilər. Qədim şumerlərdə, zərdüştlərdə, Mesopotamiyada, Misirdə, Günəşin dönməsi günü ilin ən vacib və əsas bayramı sayılırdı. Qədim inanclara görə, həmin gecə Xeyir qüvvəsi (Axura Mazda) Şər qüvvəsi (Əhrimən) ilə kəskin mübarizə aparmışdır.

Yulian təqvimi ilk dəfə İsgəndəriyyə şəhərində Misir kilsəsi tərəfindən qəbul edilir. Kilsə rəhbərliyi çox gözəl anlayırdı ki, qədim xalq adətlərini qadağan edə bilməyəcəklər. Xalqın rəğbətini qazanmaq üçün, xristianlığın yaranma tarixini, İsa peyğəmbərin (ə.) anadan olma gününü Günəş bayramı ilə əlaqələndirmək qərarına gəlirlər. Təqvimi tərtib etmək bir qrup astronoma həvalə olunur. Beləliklə, təqvim Günəşin illik hərəkəti üzrə tərtib edilir. Qədim romalılar 25 dekabrda Günəşin doğuşu bayramını çox təntənəli və şən keçirirdilər. Bu adət qədim şumerlərdən yunanlara və romalılara keçmişdir. Eramızın 337-ci ilində Roma papası Günəş bayramını nəzərə alaraq, 25 dekabrı İsa peyğəmbərin (ə.) doğum günü kimi təqdim edir və xristianlığın başlanğıcı məhz bu gündən sayılır.

Britannica Ensiklopediyasında (ing. Encyclopaedia Britannica) qeyd edilir ki, Kilsə bu tarixi qış gündönümündə qeyd olunan "məğlubedilməz Günəş tanrısının doğulması" adlı bütpərəst Roma bayramı ilə üst-üstə düşməsi üçün seçmiş ola bilər. Amerika Ensiklopediyasına (ing. Encyclopedia Americana) görə, Bibliya alimlərinin bir çoxu hesab edir ki, bu, "xristianlığa çevrilmiş bütpərəstlərin gözündə xristianlığın nüfuzunu artırmaq" üçün edilmişdir.

Əslində, İsa peyğəmbərin (ə.) əsl doğum günü və ili məlum deyil. 1996-cı ildə Roma papası II İoann Pavel təsdiq edir ki İsa peyğəmbərin (ə.) doğum tarixi məlum deyil və əslində, o, Miladdan 5-7 il əvvəl anadan olmuşdur.

Skandinav xalqları ilin ən uzun gecəsi olan 21-22 dekabr şərəfinə qışın ortası həmin günləri təntənə ilə keçirərək, onu Yol bayramı adlandırırlar. (Yol - поворот колеса года) və bunu Orta əsr alman xalqlarının bayramı kimi izah edirlər. Lakin "Yol" sözünün etimologiyasını heç kim izah edə bilmir. Yol–Yıl, əlbəttə ki, türk xalqlarına məxsus bir kəlmədir. Bu kəlmənin alman xalqları ilə sıx təmasda olan hunlardan keçməsi inkaredilməzdir.

Milad bayramının əsas atributu Şam ağacı sayılır. Həmişə yaşıl şam, soyuq qışdan sonrada davam edən həyatı simvolizə edir.

Bildiyimiz kimi, İsa peyğəmbər (ə.) Fələstin dövlətinin ərazisində anadan olub və isti iqlim şəraitində şam ağacının bitməsi mümkün deyil. Aralıq dənizi ətrafında yaşayan ilk xristianlar şam ağacını görməyiblər. Müqəddəs yazılarda şam ağacının adı çəkilmir. Şam ağacının bəzədilməsi adəti ilk dəfə XVI (!) əsrdə Almaniyada peyda olub. Ağac kultu ilə bağlı belə bir fakt var: slavyan xalqlarında, almanlarda müqəddəs ağac palıd ağacı sayılırdı, yunanlarda zeytun ağacı, finlərdə huş ağacı. Şam ağacı, şimal xalqlarında, Tayqa meşələri ilə məşhur olan, Sibirin türk xalqlarında müqəddəs ağac sayılırdı. Şam ağacı ətrafında müxtəlif rituallar icra edən şamanlara "Şaman" deyirdilər. Murad Acının "Qıpçaq çölünün yovşanı" kitabında qıpçaqların İslamdan əvvəl sitayiş etdikləri Yer-su adlı bir allahla bağlı qədim rəvayət təsvir edilir. "Yer-su dünyanın ortasında olur. Orada nəhəng bir şam bitir. Şamın yanında Ulgen – ağsaqqal bir qoca oturur. O, insanların yanına qışda gəlir. Təbiət donanda. Ulgen şam ağacı gətirirdi, onun yanında insanlar şənlənirdi, uşaqlar hədiyyələri paylamaqda qocaya kömək edirdilər".

Şam ağacı ilə bağlı adətləri məhz köçəri hunların Avropaya gətirməsi məntiqə uyğundur.

Azərbaycanda da qədim bayramlarımızdan olan, ilin ən uzun gecəsi – Çilə gecəsi, 22 dekabrda qeyd olunurdu. Müxtəlif bölgələrimizdə bu gecəyə xüsusi hazırlıq görülür, həmin gün maraqlı mərasimlər keçirilir. Çilə gecəsindən sonra hər gün, gündüz gecədən 1-2 dəqiqə daha uzun olacaq. Bu, Yeni həyatin, yeni dövrün və yeni ilin başlanğıcı deməkdir. Dinindən, milliyətindən, irqindən asılı olmayaraq, Günəşin şüaları hər kəsi bir az daha çox da isidəcək. Beləliklə, Milad bayramı, və Milad təqvimi ilə Yeni il bayramı tək xristian dünyasının deyil, Yer kürəsində yaşayan bütün insanların bayramıdır – ümumbəşər bir bayramdır.

**Fəridə NAMAZOVA,**
**Prezident Kitabxanasının aparıcı məsləhətçisi, fəlsəfə doktoru**

İdman

# Uğurlar yeni qələbələrin təməlidir

**Tarixin yaddaşına qovuşmasına saatlar qalan 2023-cü il Azərbaycan idmanı üçün də çox uğurlu olub. Dünya, Avropa çempionatlarında və digər nüfuzlu yarışlarda təmsilçilərimiz yüksək səviyyədə çıxış edərək adlarını idman tariximizə yazıblar. Yeni il ərəfəsində onların bir neçəsi ilə görüşüb arzularını dinlədik.**

**İrina Zaretska, Tokio Olimpiadasının gümüş mükafatçısı:**



–2023-cü il mənim üçün xüsusilə mühüm nailiyyətlərlə yadda qalıb. Macarıstanın paytaxtı Budapeştdə keçirilən dünya çempionatında qızıl medal qazanmaqla 3 qat dünya çempionu tituluna layiq görüldüm.

Ondan əvvəl, 2018 və 2021-ci illərdə keçirilən mundiallarda da qızıl medal qazanmışdım. Azərbaycanda karate üzrə dünya və Avropa çempionatlarının qalibi olan birinci və yeganə qadın təmsilçiyəm. Bu böyük nailiyyətlərin əldə edilməsində məşqçim, Azərbaycan Milli Karate Federasiyasının prezidenti Yaşar Bəşirovun böyük zəhməti var. İdmançı kimi yetişməyimdə, inkişafımda əməyi keçən hər kəsə minnətdarlığımı bildirirəm. Qürur duyuram ki, güclü və qüdrətli Azərbaycanı dünyada layiqincə təmsil edirəm.

2024-cü ildə bizi bir sıra nüfuzlu yarışlar gözləyir. İlin yekunlarına görə Gənclər və İdman Nazirliyi tərəfindən "İlin ən yaxşı qadın idmançısı" nominasiyası üzrə mükafatlandırıldım.

Biz idmançılar dövlətimizin diqqət və qayğısını hər zaman hiss edirik və bu, bizi daha böyük qələbələrə ruhlandırır.

**Hacı Əliyev, Olimpiadanın gümüş və bürünc mükafatçısı:**



–2023-cü ildə güləş karyerama daha bir zəfər əlavə etdim. Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən Avropa çempionatında birinci yeri tutdum. Bu, mənim üçün vacib qələbə və medal idi. Çünki Azərbaycan güləş tarixinə düşdüm. Yeganə güləşçiyəm ki, 4 dəfə qitənin ən güclüsü olmuşam.

"Tokio-2020" Yay Olimpiya Oyunlarından sonra güləşçi karyeramı bitirməyi düşünürdüm. "Olimpiada-2016"-da bürünc, Tokio Oyunlarında gümüş medal qazandım. "Tokio 2020"-dən sonra karyeramı başa vurmağı düşünürdüm. Amma sonra potensialıma güvənərək bəzi məsləhətlərdən sonra Paris Olimpiadasında da iştirak etmək qərarına gəldim. Paris Yay Olimpiya Oyunlarına lisenziya qazanmaq üçün ciddi səy göstərəcəyəm. Əsas hədəf Olimpiya "qızıl"ıdır. Bunun üçün əlimdən gələni edəcəyəm. Yalnız çox çalışmaq və çempion olmaq vacibdir. Paris Olimpiadasından sonra artıq 34 yaşım tamam olacaq. Təbii ki, bu yaşdan sonra güləş meydanlarında mübarizə aparmaq çətindir. Dünya çempionu tituluna ilk dəfə 23 yaşda ikən sahib olmuşam. 2015-ci ildə Las-Veqasda bu nailiyyəti təkrarladım. 2 il sonra isə Parisdə dünya çempionatının 3 qat qalibi adını qazandım. Təbii ki, gənc yaşlarda idmançılar daha enerjili və çevik olurlar. Ona görə də karyeramı yüksək nəticə əldə edərək başa vurmaq istəyirəm.

2024-cü ildə Azərbaycan idmanını, xalqımızı daha böyük uğurlar və nailiyyətlər gözləyir. Azərbaycan dünyada, həm də idman ölkəsi kimi tanınır. Buna görə də biz idmançıların üzərinə böyük məsuliyyət düşür. İndiyədək meydana ancaq qələbə üçün çıxmışıq, bu, bundan sonra da davam edəcək. Azərbaycanın bayrağını beynəlxalq arenalarda yüksəklərə qaldırmaq, Dövlət Himnimizi səsləndirmək bizim üçün böyük şərəfdir.

**Yeniyetmə cüdoçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Rüstəm Alimli:**



–2023-cü il Azərbaycan idmanı, bütünlükdə xalqımız üçün çox uğurlu olub. Bu il Azərbaycanın öz suverenliyinin tam bərpa etməsi ilə yadda qalıb. İdmançılarımız, o cümlədən cüdoçularımız böyük qələbələr qazanıblar.

Bu uğurlarda yeniyetmə cüdoçular böyük pay sahibidirlər. Təmsilçilərimiz bu il 37-si qızıl, 22-si gümüş, 44-ü bürünc olmaqla 103 medala sahib olublar.

Avropa Gənclər Olimpiya festivalında 3 qızıl, 2 gümüş və 4 bürünc medal qazanan komandamız ümumi hesabda birinci oldu. Daha bir turnirdə –Avropa çempionatının qarışıq komanda yarışlarında cüdoçularımız ilk yerə sahib oldular ki, bu da tarixi nəticə hesab olunur. Yığmamız fərdi yarışlarda da parlaq nailiyyət qazandı. Daha bir yüksək nəticə Xorvatiyanın Zaqreb şəhərində dünya çempionatında qazanıldı. Komandamızda uzun illər sonra ilk dəfə qızıl medal əldə edildi. 2-si qızıl, 3-ü gümüş və 3-ü bürünc medal olmaqla, ümumilikdə 8 medala sahib olan millimiz bu nəticə ilə də bütün komandaları üstələyərək birinci yeri tutdu.

Biz bu qələbələrlə kifayətlənmirik. Növbəti ildə daha böyük nailiyyətləri hədəfləyirik. Yığmamızın hər bir üzvü meydana çempionluq üçün çıxacaq.

2023-cü ilin "Ən yaxşı məşqçisi" nominasiyasında mükafatçılar sırasında yer aldım. Bizə verilən dəstəyə, diqqət və qayğıya görə minnətdarıq.

**Leyla QURBANOVA**
**XQ**

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

**Azərbaycan Milli Konservatoriyası**

Boş olan ştat üçün müsabiqə elan edir:
1. Dirijorluq kafedrası üzrə:
Kafedra müdiri

"İmişli Mehmanxana" ASC səhmdarlarının nəzərinə!

1 fevral 2024-cü il saat 14.00-da "İmişli Mehmanxana" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

**Ümumi yığıncağın gündəliyi:**

1. Cəmiyyətin ləğvetmə balansının təsdiq edilməsi.
2. Cəmiyyətin qalıq əmlakının (pul vəsaitinin) səhmdarlar arasında bölüşdürülməsi planını əks etdirən hesabatın təsdiq edilməsi.
3. Qalıq əmlakın (pul vəsaitinin) səhmdarlar arasında bölüşdürülməsi.
4. Digər məsələlər.

Səhmdarlar yığıncaqda müzakirə ediləcək sənədlərlə hər həftənin iş günləri, saat 10.00-dan 17.00-dək (050) 255-40-80 nömrəli telefonla əlaqə saxlayaraq tanış ola bilərlər.

Yığıncaqda səhmdarların iştirakı vacibdir.

Ünvan – Bakı şəhəri, Səbail rayonu, Ə.Əlizadə küçəsi 6/8.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 288 (30404) 31 dekabr 2023-cü il, bazar


# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

**2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!**


Qarabağ Azərbaycandır!
Xalq qəzeti
Varislik ənənəsində Qələbə ovqatı
Lider xalqa söykənəndə

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.

1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Yaponiyada süni intellekt mərkəzi

***Yaponiyada süni intellektin inkişafı ilə bağlı potensial riskləri öyrənəcək və onların aradan qaldırılması yollarını təklif edəcək yeni tədqiqat mərkəzinin yaradılması istiqamətində işlər aparılır. Yeni mərkəz Tokioda yerləşən və ölkənin Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən Milli İnformatika İnstitutunun bazasında yaradılacaq.***



Yaponiyanın “Yomiuri” qəzeti yazıb ki, yeni mərkəzin işinə gələn ilin aprelində start veriləcək. Nəşrin məlumatına görə, mərkəz süni intellekt sahəsindəki şirkətlərlə sıx əməkdaşlıq etməklə, onların öz tədqiqatlarının nəticələri ilə təmin edəcək.

Bundan başqa, hazırda bu ölkədə “Originator profile” adlı rəqəmsal texnologiya hazırlanır ki, bu da gələcəkdə saxta məlumatları və zərərli niyyətlərlə internetdə yerləşdirilən ilkin mənbəni izləməyə imkan verəcək.

***Rizvan FİKRƏTOĞLU***
***XQ***

## İdman xəbərləri

# Rekord göstərici: 1472 medal

**Azərbaycan idmançıları 2023-cü ildə beynəlxalq yarışlarda 1472 medal əldə ediblər. Bu Azərbaycanın idman tarixində rekord göstəricidir.**




Medallardan 799-u (214 qızıl, 208 gümüş, 377 bürünc) Olimpiya idman növlərinin payına düşüb. Qeyri-Olimpiya idman növləri üzrə isə 587 (223 qızıl, 159 gümüş, 205 bürünc) medal əldə edilib. Paralimpiyaçılarımız isə il ərzində 86 (27 qızıl, 31 gümüş, 28 bürünc) mükafat qazanıblar.

# 2023-ün dünya məşhurları

**Kriştianu Ronaldunu 2023-cü ilin ən populyar idmançısı seçilib.**



“Hooper HQ” şirkəti Səudiyyə Ərəbistanının “Əl-Nəsr” klubunda çıxış edən Portuqaliya millisinin futbolçusunu bu ilin ən yaxşı idmançısı hesab edib. İkinci sırada Argentina millisinin və ABŞ-nin “İnter Mayami” klubunun hücumçusu Lionel Messi yer alıb. İlk “üçlüy”ü hindistanlı kriketçi Virat Kohli tamamlayıb.

# İlin ən yaxşı baş məşqçisi

**2023-cü ildə futbol üzrə milli komandalarda işləyən ən yaxşı baş məşqçi bəlli olub.**



Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyası (IFFHS) bu ada Argentina yığmasının baş məşqçisi Lionel Skaloni layiq görüb. 45 yaşlı mütəxəssis 185 xalla bütün rəqiblərini qabaqlayıb. Fransa millisinin rəhbəri Didye Deşam (112 xal) ikinci, Portuqaliya yığmasını çalışdıran Roberto Martines (61 xal) üçüncü sıralarda qərarlaşıblar.

***Leyla SABİRQIZI***
***XQ***

## Kosmos

**Qara dəliklər, sadəcə, boşluq deyil. Bunlar güclü cazibə qüvvəsi ilə daxilində hər şeyi udurlar. Onlar dövrünü bitirən və partlayan ulduzlardan yaranır. Belə bir cazibə gücündən qaçacaq bir şey yoxdur. Planet və digər materialları qara dəlik tərəfindən udulması, onların hərəkət mərkəzinə çəkilməsi üçün çox yaxından keçməsi lazımdır. Bu zaman obyektin geri dönməsi mümkün deyil. Deməli, o qaçmağın mümkün olmadığı hadisə üfüqünə girmiş olur.**

# Qara dəlik kosmik əjdahadır



Alimlər müasir texnologiyaların köməyi ilə Kainatda qara dəliklərdən birini müşahidə edə biliblər. Bu James Webb teleskopu vasitəsi ilə mümkün olub.

Beləki, kainatın dərinliklərinə baxan teleskop GN-z11 qalaktikasının mərkəzində 1.6 milyon günəş kütləsində qara dəlik aşkar edib. Bu, indiyədək tapılmış ən qədim qara dəlik sayılır. Onun yaşı təqribən 13.4 milyard ildir və kainatın yaranışından, sadəcə, 440 milyon il sonra formalaşdığı güman edilir.

Bununla yanaşı araşdırmalar bu qara dəliyin əslində tək olmadığını, onunla birlikdə çox sayda qara dəliklərdən yarandığını göstərir.

# Ayda vaxt tez keçir

***Cazibə qüvvəsi təkcə planetimizin səthindəki bütün canlıları deyil, həm də atmosferi və suyu saxlayır. Alimlər sübut ediblər ki, bu qüvvə vaxtı ləngitməyə qadirdir. Buna görə də, astronavtlar Ayın səthində olarkən Yerdəkindən saniyənin yüzdə biri qədər tez yaşlanarlar. Çünki Yerdə vaxt Aydan daha yavaş keçir.***



Tədqiqatçılara görə, quruda həyatın əsasını təkcə bakteriyalar deyil, həm də kifayət qədər mürəkkəb quruluşlu, çoxhüceyrəli orqanizmlər təşkil edəndə planetdə sutka 18 saatdan ibarət olub.

Yer planeti ilə bağlı maraqlı faktlardan biri də onun səthinə düşən kosmik tozla bağlıdır. Bu səbəbdən onun kütləsi hər min ildə, təxminən, 2 milyard ton artır. Bundan başqa, hər gün Yerə 200 minə yaxın meteorit yaxınlaşır, lakin hamısı atmosferdə yanır. Yerətrafı orbitdə isə 8 minə yaxın obyekt var. Bunlar əsasən, müxtəlif növ kosmik tullantılardır.

***P.ƏFƏNDİ***
***XQ***

# Müşfiqli günlərin yarpaqları

### “Şair Füzuli kimi olar”



Mikayıl Müşfiq Füzulini lirikanın zirvəsi hesab edirmiş. O, gecələr gözlərini Füzuli divanı ilə yumur, səhərlər həmin divanla açırmış. Füzulinin sehrkar qələminə heyranlığını heç cür gizlədə bilmirmiş. Bir gün o, şair dostu Mir Mehdi Seyidzadəgildə gecələyir. Səhər tezdən Müşfiq əlində Füzulinin divanı Mir Mehdini yuxudan oyadır:

– Mir Mehdi, bax, gör bir nə deyir! Belə də gözəl söz olar? Hər misrada nə qədər böyük məna var? Biz də adımızı şair qoymuşuq.

Müşfiqin vaxtilə oxuyub, bəzi səhifələrində qeydlər etdiyi həmin Füzuli divanı şair Mir Mehdi Seyidzadənin şəxsi kitabxanasında imiş.

### “...Elə bil, başımdan alov çıxdı”

Bir dəfə Müşfiq Dilbər xanımla tramvayda harasa gedirmiş. Şairin baxışları pəncərədən bayıra zillənibmiş, nə haqqında isə düşüncələrə dalıbmış. O, birdən nəzərlərini Dilbərə çevirəndə gözü onlarla üzbəüz oturan bir kişiyə sataşır. Sir-sifəti çopur, gözlərindən hərislik yağan kişi də, sən demə, nəzərlərini onlara zilləyibmiş. Müşfiq elə o dəqiqə Dilbər xanımın qulağına pıçıldayır:

– Dur keçək, başqa yerdə oturaq.

Dilbər tez ayağa qalxır və yerlərini dəyişirlər. Müşfiq deyir:

– Mən indicə xəyalımda səmimi, zərif qəlbli, zahirən gözəl, sadə bir insan haqqında düşünürdüm. Belə bir vaxtda bu kişinin sifətini görəndə, elə bil, başımdan alov çıxdı.

### “Dərsi təxirə salmayın”

Qüvvətli hafizəsinə arxayın olan Müşfiq çox vaxt qoşduğu şeiri uzun müddət kağıza köçürməzdi. Öz şeirlərini və sevdiyi klassiklərin əsərlərini əzbər bilərdi. Müşfiq tələbə olan vaxt bir dəfə müəllim növbəti dərsdə məşhur türk şairi Tofiq Fikrətin yaradıcılığından məruzə oxuyacaqmış. Lakin şairin kitabını özü ilə götürməyi yaddan çıxaran müəllim dərsi təxirə salmaq istəyir. Bu vaxt Müşfiq icazə alıb deyir:

– Müəllim, dərsi təxirə salmayın. Tofiq Fikrətin hansı əsəri lazımdırsa, mən onu əzbər deyə bilərəm.

Müəllim təəccüblənir:

– Sən onun hansı əsərini bilirsən?

Müşfiq də qürrələnir:

– Müəllim, siz məndən soruşun ki, Tofiq Fikrətin hansı əsərini bilmirsən?

Müəllim bu dəfə fərəhlə gülümsəyir:

– Demək, onun bütün əsərlərini bilirsən?

– Bəli.

– Onda dərsə başlayaq,– deyə müəllim Müşfiqin köməyi ilə növbəti mühazirəsini oxuyur.

***Z.HÜSEYNLİ***
***XQ***

## Hava




***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata, əsasən, dekabrın 31-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir.***

Cənub küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 5-8°, gündüz 11-16° isti olacaq. Atmosfer təzyiqi 765 mm civə sütunundan 760 mm civə sütununa enəcək, nisbi rütubət 50-60 faiz olacaq. Azərbaycanın rayonlarında hava, əsasən, yağmursuz keçəcək. Bəzi rayonlarda arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 10-15° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 0-5° isti olacaq.

***Qəzənfər QASIMOV***
***XQ***



# Kuklaların “Qış nağılı”

**Azərbaycan Dövlət Kukla Teatrının balacalara bayram ərməğanı olan “Qış nağılı” tamaşası böyük maraqla qarşılanıb. Tamaşanın quruluşçu rejissoru Saida Haqverdiyeva, quruluşçu rəssamı İqbal Əliyevdir.**

Səhnə işinin ilk izləyiciləri sağlamlıq imkanları məhdud balaca tamaşaçılar olub. Teatrın mütəmadı həyata keçirdiyi sosial-mədəni aksiyasına uyğun olaraq 200 nəfərə yaxın müxtəlif həssas qrupa aid uşaq və yeniyetmə tamaşanı böyük maraqla qarşılayıblar.

Musiqi tərtibatlı birhissəli uşaq tamaşasında mövzu müasir uşaqların və onların əyləncə dünyasını əhatə edir. Uşaqlara həm sosial şəbəkələr ilə uzun zaman keçirməyin zərərləri aşılanır, həm də şifahi xalq ədəbiyyatı nümunələrindən seçilən məşhur personajlar və hadisələr vasitəsilə mütaliəyə maraq yaradılır.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3428
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır
00:00